**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2018, 4 (23)**

**ISBN: 90000000060074**

**BAKI-2018**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 4 (23), 2018

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika, 2017-ci ildən siyasi elmlər, antropologiya elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Cəfər Cəfərov** (baş redaktor), **Asəf Zamanov, Bəxtiyar Əliyev, Urxan Ələkbərov, Yaqub Mahmudov, Vəli Əliyev, İzzət Rüstəmov, Abbas Seyidov** (baş redaktorun müavini)**, İradə Hüseynova, Oqtay Sultanov, Anar İsgəndərov, Ramiz Əliyev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sevinc Quliyeva** (məsul katib)

**UOT 930.85**

# İPƏK YOLU MƏDƏNİYYƏTİ VƏ TÜRKLƏR

***Cavanşir Feyziyev***
*AMEA-nın Fəlsəfə İnstitutu*
*javanshir@feyziyev.com*

**Açar sözlər**– *Avrasiya, Böyük İpək yolu, türk dövlətləri*

*Böyük İpək yolu mövcud olduğu bütün dövrlərdə sanki öz həyatının "fəsil dəyişmələrini" yaşayıb: Böyük İpək yolunun "yazı", "yayı", "payızı" və "qışında" onun fəaliyyətinin yüksəlişi, enişi və yenidən yüksəlişi prosesləri çox dramatik şəkildə bir-birini əvəzləyib. Hətta yüzilliklər boyu insanların və ticarət karvanlarının səsini eşidən, nəfəsini duyan bu yollar zamanın hansısa dolaylarında unudulub, ot basıb, görünməz olub, amma quruyan çaylara yenidən su gələn kimi, bu yollar da yenidən dirçəlib, tamam başqa nəsillərin, üzərində başqa yükləri, mədəniyyətləri daşıyan karvanların səsinə, nəfəsinə şahidlik edib. Bəzən həmin yolların alternativləri meydana çıxıb. Böyük İpək yolunun köhnə və təzə qolları təqribən 12 800 km.-lik əsas marşrutu əhatə etməklə, Çindən İspaniyayadək uzanıb, yarğan və dağlardan, çöl və səhralardan, çay və dənizlərdən keçə-keçə görüşüb, sarmaşıb, ayrılıb və yenidən qovuşub.*

# КУЛЬТУРАШЕЛКОВОГО ПУТИ И ТЮРКИ

***Джаваншир Фейзиев***

**Ключевые слова**– *Евразия, Великие Щельковые пути, тюркские государства*

*Связи тюркского мира с Великим Шелковым Путем исторически сложились на трех уровнях: (1) так как Великий Шелковый Путьпроходил через многие тысячи километров территории расположенных в ряд тюркских стран, то топонимика тюркскойэтногеографии наложила свою печать на координатыдороги; (2) в течение долгого исторического периода основными партнерами, участниками, а также организаторами и компаньонами торговых и культурных связей, осуществляемых наВеликом Шелковом Пути, были тюрки; (3)тюркскиегосударства и империи выполнили историческую миссию задействованияВеликого*

*Шелкового Пути как Трансевразийской коммуникационной системы, осуществляликонтроль в значительном отрезке 2200-летней историиэтой дороги и в определенных региональныхграницах.Как и в прошлом, и сегодня политика Шелкового Пути занимает свое место в ряду фундаментальныхценностей тюркскойцивилизациии политическойкультуры, а также развивается новымиглобальными проектами.*

## CULTURE OF THE SILK ROAD AND THE TURKS

***Javanshir Feyziyev***

**Key words–** *Eurasia, Great Silk Road, Turkic states*

*Close relationship of the Turkic world with the Silk Road showed itself in three levels: (1) Because thousand miles of the Silk Road passes through the territories of the Turkic countries, toponymic traces of the Turkic ethno-geography had permeated through the coordinates of this way; (2) The Turks have been the main partners, participants and organizers of trade and culture relations carried out on the Silk Road for long periods of time; (3) Turkic states and empires carried out historical mission in functionalization of the Silk Road as a trans-Eurasian communication system and have maintained control over this Road for a considerable part of its two thousand and two hundred years history and within the definite regional boundaries. As it has been in the past, the Silk Road policy is one of the fundamental values of the Turkic civilization and political culture nowadays, and is developed with new global projects.*

Böyük İpək yolu mövcud olduğu bütün dövrlərdə sanki öz həyatının “fəsil dəyişmələrini” yaşayıb: Böyük İpək yolunun “yazı”, “yayı”, “payızı” və “qışında” onun fəaliyyətinin yüksəlişi, enişi və yenidən yüksəlişi prosesləri çox dramatik şəkildə bir-birini əvəzləyib. Hətta yüzilliklər boyu insanların və ticarət karvanlarının səsini eşidən, nəfəsini duyan bu yollar zamanın hansısa dolaylarında unudulub, ot basıb, görünməz olub, amma quruyan çaylara yenidən su gələn kimi, bu yollar da yenidən dirçəlib, tamam başqa nəsillərin, üzərində başqa yükləri, mədəniyyətləri daşıyan karvanların səsinə, nəfəsinə şahidlik edib. Bəzən həmin yolların alternativləri meydana çıxıb. Böyük İpək yolunun köhnə və təzə qolları təqribən 12 800 km.-lik əsas marşrutu əhatə etməklə, Çindən İspaniyayadək uzanıb, yarğan və dağlardan, çöl və səhralardan, çay və dənizlərdən keçə-keçə görüşüb, sarmaşıb, ayrılıb və yenidən qovuşub.

Yüzilliklər boyunca bəşər sivilizasiyasını təmsil edən ayrı-ayrı xalqların və mədəniyyətlərin təmasını tarixdə ən uzun və davamlı şəkildə təmin etmiş Böyük İpək yolunun bəlkə də ən real və parlaq bədii obrazı Soltan Hacıbəyovun "Karvan" simfonik muğamında öz təcəssümünü tapıb: uzaq yola çıxan və bu yolun çətinliklərində, təhlükələrində doğmalaşmış insanların hiss və həyəcanları, yaşantılarının dərinliyi, kövrəkliyi sanki bu simfonik muğamın ağır-ləngərli ritminə hopub. Bu yol – sanki sonsuzluğa doğru, Yer Kürəsindən kosmik məkanlara, uzaq sivilizasiyalara doğru uzanır. Amma bu yol öz taleyinin real tarixi hissəsini elə bizim planetdə – Avrasiyanın Sakit və Atlantik okeanlarının dalğalarına çırpılan əngin kontinentində – bu gün kosmosdan bütün aydınlığı ilə görünən, tarixən ayrı-ayrı mədəniyyətlərə yurd olmuş rəngarəng "sivilizasiya relyefində" tapır. Böyük İpək yolu insanlar, cəmiyyətlər, dövlətlər və mədəniyyətlər arasında tarixi əlaqələrin elə bir yaddaş saxlancını yaradıb ki, bu təməl üzərində onu hər dəfə bərpa etmək, daha mükəmməl kommunikasiya funksiyasına çatdırmaq üçün həmişə bir zəruri qüvvə tapılaraq özünün səfərbərlik imkanını irəli sürüb.

Bu gün müasir türk dünyası üçün müstəsna əhəmiyyət kəsb edən cəhət də bundan ibarətdir ki, Böyük İpək yolunun həyat fəsilləri nə qədər dəyişsə də, onun funksionallığını bərpa edərək, daim işlək hala gətirənlərin önündə başlıca olaraq türklər, onların ayrı-ayrı nəsilləri, dövlətləri və imperiyaları dayanıb. Başqa sözlə, dünya tarixi və sivilizasiyası üçün Böyük İpək yolunun əhəmiyyəti nə qədər böyük olmuşsa, onun bu günə qədər var olmasında, yaşadılmasında türklərin rolu da bir o qədər çox olmuşdur.

İlk dəfə elmə "İpək Yolu" anlayışını 1877-ci ildə alman coğrafiyaçısı Rixthofen gətirmişdir. Adından da göründüyü kimi, klassik mənasında eramızdan əvvəl ikinci əsrdən etibarən Şərqi Asiyadan, konkret olaraq, Çindən Aralıq dənizi ölkələrinə əsasən ipək ticarəti yolu funksiyasını yerinə yetirən bu yol getdikcə inkişaf edərək, qədim dünyanın daha geniş ticarət və mədəniyyət əlaqələrini mümkünləşdirən zəruri kommunikasiya vasitəsinə çevrilmişdir. Ancaq adındakı kimi, həmişə "ipək" yumşaqlığına, rahatlığına malik olmamış, cürbəcür təhlükələrlə üzləşmiş, taleyi müxtəlif zamanlarda müxtəlif hərbi-siyasi qüvvələrin, iqtisadi-mədəni mərkəzlərin necə konfiqurasiya tapmasından, geopolitik situasiyanın hansı əlverişli imkanları açmasından bilavasitə asılı olmuşdur. Böyük İpək yolunun ən müxtəlif diapazonda dəyişərək, lakin əsas hədəf-istiqamətlərini saxlayaraq keçdiyi tarixi-coğrafi məkan türk dövlətləri və mədəniyyətlərinin yerləşdiyi regionları əhatə etdiyindən, təbii ki, türk dünyası transformativ siyasi-sivilizasion sistem kimi Avrasiyadakı geopolitik situasiyanın bütün dəyişmə vəziyyətlərində onun mövcudluğunu şərtləndirən başlıca amil rolunda çıxış etmişdir.

İpək yolu mədəniyyətinin tarixi təkamülünü onun qoruyucuları olan türklərin bu prosesdə iştirakı kontekstində öyrənmək – Avrasiyada trans-

sivilizasiya hadisələrinin tarixi reallığını və ümumi qanunauyğunluqlarını daha obyektiv şəkildə aydınlaşdırmaq deməkdir. Türk sivilizasiyasının İpək yolu prosesinə qoşulması situasiyasında buradakı beynəlxalq siyasi-mədəni münasibətlərin hansı transformasiya keyfiyyətləri aldığını bilmədən Avrasiyanın tarixi-geopolitik mahiyyətini öyrənmək mümkün deyil. Bu həm də ona görə zəruridir ki, bir sıra araşdırmalarda "türk amili" Böyük İpək yolunun fəaliyyətində tamamilə yanlış olaraq destruktiv-barbar mövqeyə aid edilmiş, əksinə, bu prosesdə "Hind-Avropa amili" müəyyən məqsədlərlə qabardılmış və şişirdilmişdir. Amma tarix tamam başqa gerçəkliyi göz önünə gətirir: min kilometrlərlə türk xalqlarının vətənindən, dövlətlərindən keçən, əsas qovuşaq məntəqələri türk toponimləri ilə adlandırılan Böyük İpək yoluna türklər maneçilik törətsəydilər, onlar bu yollarda basqın və talançılıqla məşğul olsaydılar, o heç bir əsr də işlək ola bilməzdi. Əksinə, tarixin bir çox dönəmlərində Böyük İpək yoluna əngəl törədənləri məhz türklər neytrallaşdırmış, bu yolun yenidən fəaliyyət göstərməsinə şərait yaratmışlar.

Bu günə qədər təkamül prosesi davam edən trans-Avrasiya kommunikasiya sisteminin ilk təməlləri Böyük İpək yolu fəaliyyətə başlamazdan xeyli əvvəl – e.ə. IV-III minillikdə qoyulmuşdu. Hələ o zaman Mesopotamiya və Elamdan Hind vadisinə və Pamir dağlarının ətəklərinə qədər uzanan yollar məlum idi. Bu yollarla Yaxın Şərq ölkələrinin tacirləri Bədəxşan lazuriti daşıyırdılar. Bəşəriyyətin ən qədim sivilizasiya məskənləri sayılan Harappa və Mohenco-Daronu Çayarasına – Mesopotamiyaya birləşdirən cənubi karvan yolları var idi. Mesopotamiya ilə Hind vadisinin mədəni mərkəzləri arasındakı ticarəti öz əllərində cəmləmiş elamlılar "e.ə.IV-III minilliklərdə Orta Şərqdə şəhərəqədərki və ilkşəhər mərkəzlərini bir-birinə bağlayan çoxşaxəli kommunikasiya şəbəkəsini yaratmışdılar" [4, s. 26]. Ümumiyyətlə, Avrasiya boyunca köçəri xalqların mədəniyyətini, ilk sivilizasiya məskənlərini qarşılıqlı əlaqələr səviyyəsinə çatdıraraq, onların ticarət və təcrübə mübadiləsinə şərait yaradan qədim karvan yolları, bu imkanların getdikcə genişlənməsi nəticəsində daha çox şəbəkələnir, xalqlar, toplumlar bir-birini daha yaxından tanıyır, onlar ticari-mədəni əlaqələrində bir-birinə daha çox etibar edirdilər. Avrasiya kontinentinin müxtəlif istiqamətləri üzrə "cığırlanan" bu yollar bəzən lap təsadüfi, bələdçilik xarakteri daşıyırdı. Lakin həmin yolların daimi istifadə olunanları, uzun zamanlar ərzində coğrafi-mədəni məkanları bir-birinə bağlayanları "vərdiş edilmiş istiqamətlər üzrə" daha çox nüfuz və etibar qazanırdı. Beləliklə, bu yolların içərisindən onların "onurğa sütunları" – magistral xətləri müəyyənləşirdi. Böyük İpək yolu mahiyyətcə məhz belə bir tarixi zərurət nəticəsində meydana gəlmiş, yüzilliklər boyu genişlənə-genişlənə, yeni-yeni siyasi-coğrafi sərhədləri aşa-aşa, Avrasiyanın həm tarixi, həm də geopolitik baxımdan ən əhəmiyyətli yolu statusunu almışdır.

Böyük İpək yolunun "Şimal İpək yolu" adlanan ilk hissəsinin ticarət məqsədilə yarandığı dövr e.ə. 138-126-cı illərə aid edilir. Çin imperatoru U-di o zamanlar Mərkəzi Asiyanın hegemon etnosiyasi qüvvəsi olan hun türklərinə qarşı onların düşmənlərindən – yu-eçjilərdən faydalanmaq, onlarla koalisiya yaratmaq fikrinə düşür. Bu məqsədlə özünün əyan-diplomatı Çjan Tsanı həmin regionun qərb hissəsində köçəri həyat tərzi keçirən yu-eçjilərin yanına göndərir. Çin elçisi Fərqanə vadisində onu heyrətə salan, çinlilərdəkindən daha gözəl və daha hündür at ilxılarını görür. Qayıdarkən öz imperatoruna bu barədə məlumat verir və məsləhət görür ki, ipəkçilik sənətinin nə olduğunu bilməyən bu diyara ipək aparıb, əvəzində oradan o gözəl atları, eyni zamanda, dadlı meyvələri, şərabı və başqa məmulatları gətirmək olar. Beləcə, 5 ildən sonra – e.ə. 121-ci ildə Çin dövlətinin ipək və gümüş haşiyəli güzgülər yüklənmiş ilk ticarət karvanı Mərkəzi Asiyanın hələ təzə cığırı açılan çətin yollarından keçərək Fərqanə vadisinə çatır. Bu ölkələr arasında sülh razılaşması əldə olunandan sonra paralel marşrutla – Cənub İpək yolu ilə ticarətin ilk dövrəsi başlayır. Daha sonrakı əsrlərdə Böyük İpək yolunun alternativ istiqamətləri – Hind-Roma ticarət əlaqələrini quran Dəniz İpək yolu (Hind okeanı ilə) və s. yaranır.

Bizim eranın elə I əsrindən başlayaraq, başlıca olaraq, İpək yolu vasitəsilə "Avrasiya sivilizasiyaları arasında sistematik ticarət münasibətləri qurulmuşdur. Bunlar inkişaf etmiş infrastruktur əlaqələrinə malik olan müəyyən çoxqütblü makroünsiyyət formalarını təşkil etmişdir... Əsrlər boyu əkinçilik təsərrüfatında işlədilən mallara ehtiyac duyan Avrasiya çöllərinin köçəriləri ticarət-mübadilə əməliyyatlarının fəal iştirakçıları olmuşlar. Onlar Avrasiyanın əlverişli bölgələrində yerləşərək, Çindən Mərkəzi Avropaya qədər bütün sivilizasiya ocaqları ilə kontakta girmişlər" [3, s. 142]. İpək yolunun Şimal və Cənub (quru və dəniz) marşrutları, müvafiq olaraq, Mərkəzi Asiya – Aralıq dənizi hövzəsi və Çin – Şərqi Türküstan – Aralıq dənizi hövzəsi istiqamətləri üzrə funksionallaşmışdır. Belə bir differensiasiyanın səbəbi, əlbəttə, Avrasiya kontinentindəki siyasi situasiyanın daim ciddi və köklü şəkildə dəyişikliklərə uğraması ilə izah edilə bilər. Hələ qədim dünya və onun mübadilə mədəniyyəti hərəkətdən qalmamaq, "ticarəti öldürməmək" üçün özünə alternativ yollar axtarmışdır. Böyük İpək yolu məhz siyasi və iqtisadi manevr qabiliyyətləri sayəsində fəaliyyətini bəzi fasilələrlə davam etdirə bilmişdir.

Böyük İpək yolunun əsas marşrutları ilə bəşər sivilizasiyasının öz inkişafında əldə etdiyi bütün mütərəqqi yeniliklərin nümunələri, maddi və mənəvi nemətlərin çeşidləri (ipək, qiymətli daş-qaşlar, ədviyyat, dəri, yun və digər toxuculuq məmulatları, kağız, çini qablar, şüşə, çay, şərab, düyü, bitki və meyvə toxumları, geyimlər, parçalar və bəzəklər, kosmetika, silahlar və kitablar, əlyazmaları və dini rəmzlər, ornamentlər, insan fəaliyyətində istifadə olunan bütün alət, ləvazimat və avadanlıqlar, hətta ov itləri, ov şahinləri, tutuquşu, bəbir və şir.., nəhayət, canlı insanlar – qullar...) daşınıb. Sanki hər bir

tarixi zaman "öz yükünü" bu yollar üzərində hərəkət edən karvanlara "yükləyib". Karvanlar, onları hərəkət etdirən insanlar, dəvələrin boynundan asılan zınqırovlar, geyimlər, karvansaralar, ticarət aparılan şəhərlər, alınıb-satılan mallar, tədavüldə olan pullar, ünsiyyət yaradan dillər, ticarət yollarına nəzarət edən məmurlar, saraylar, imperiyalar dəyişib, yeniləri ilə əvəz olunub. Ancaq ticarət-mübadilə mədəniyyətinin bir "qızıl qaydası" dəyişməz qalıb: insanlar bütün tarixi zamanlarda qarşılıqlı münasibətlərin daha yüksək səviyyəsinə, geniş miqyasına çıxmağa, bir-birini daha dərindən tanımağa, malik olduqları ən yaxşı maddi və mənəvi nemətləri bir-biri ilə bölüşməyə, nəticədə, istehsal və istehlak mədəniyyətinin daha optimal texnologiyalarına yiyələnməyə çalışıblar. Bütün bunlar ümumbəşəri dəyərləri formalaşdıran əsas stimullar olub. Beləliklə, bu gün müasir dünyamızda qlobal sivilizasiyanın qazandığı başlıca universal nailiyyətlərin kökündə həm də Böyük İpək yolu mədəniyyəti dayanır.

Türk dünyasının Böyük İpək yolu ilə orqanik bağlılığı tarixən üç səviyyədə baş vermişdir: (1) Böyük İpək yolu yan-yanaşı türk ölkələrinin min kilometrlərlə uzanan ərazisindən keçdiyindən, türk etnocoğrafiyasının toponimik izləri bu yolun koordinatlarına hopmuşdur. Türk mənşəli toponimlər – yer adları Böyük İpək yolunun trayektoriyalarını cızan mayak timsalında görünür: Altay, Turfan, Üç Turfan, Tarim, Təklə-Məkan, Yarkənd, Qara şəhər (Yenki), Kuça, Aksu, Kızıl-su, Kaşğar, Türküstan... [7, s.39-41]; (2) Böyük İpək yolu üzərində aparılan ticarət və mədəniyyət əlaqələrinin əsas tərəfdaşı, iştirakçısı, həm də təşkilatçısı və ortağı (türkcə *"ortaq"* sözü həmin dövrlərin bütün xalqları tərəfindən başa düşülür və işlədilirdi) uzun tarixi zamanlar ərzində türklər olmuşlar; (3) türk dövlətləri və imperiyaları Böyük İpək yolunun trans-Avrasiya kommunikasiya sistemi kimi funksionallaşmasının tarixi missiyasını həyata keçirmiş, bu yolun iki min iki yüz illik tarixinin əhəmiyyətli kəsimində və müəyyən regional hüdudlarda ona nəzarəti öz əllərində saxlamışlar. İpək yolu siyasəti – türk sivilizasiyasının və siyasi mədəniyyətinin fundamental dəyərləri sırasında yer almışdır. İpək yolu – türk dünyagörüşünün universallaşmasına, türklərin hərbi-siyasi bacarığı isə İpək yolunun vüsətlənməsi və tərəqqinə yol açmışdır.

"Dünya tarixində Mərkəzi Asiya" monoqrafiyasının müəllifi P.B.Qolden həmin əsərinin İpək yolu tarixinə həsr edilmiş bölümündə göstərir ki, Yaponiyadan Belçikaya qədər uzanan İpək yolu dəhlizində işlədilən Çin, Tibet, toxar, hind, yunan, ərəb, İran dilləri arasında ən populyar-uzlaşdırıcı dil – türk dili idi. "Mərkəzi Asiyanın aparıcı siyasi dili olan türk dili – İpək yolunun bu regiondan keçən ərazilərindəki şəhərlərdə dominant ünsiyyət vasitəsi idi, İran dilləri isə ətraf kəndlərdə işlədilirdi" [6, s.50-62].

Ümumiyyətlə, Böyük İpək yolu tarixinə həsr olunan fundamental tədqiqatlarda, xüsusilə, X.Liunun "Dünya tarixində İpək yolu" və Ç.İ.Bekuizin "İpək yolu imperiyaları. Tunc dövründən müasir dövrə qədər Mərkəzi

Avrasiyanın tarixi” əsərlərində [9; 5] türk dövlətləri və imperiyalarının İpək yolu mədəniyyətinə verdiyi töhfələr geniş şəkildə araşdırılmışdır.

Hələ “Hun Epoxasında” türk etnoslarının Altaylardan Avropaya qədər yayılması bu regionda Böyük İpək yoluna perspektiv açan tarixi proseslərin başlanğıcı olmuşdu [5, s.93-111]. Asiyalılar və avropalılar ilk dəfə bir-birinin hərbi gücünə deyil, həm də mədəniyyətlərinə və adət-ənənələrinə, gündəlik həyat tərzində istifadə etdikləri əşyalara bələd olurdular. Hun-türk imperiyasının nəzarət etdiyi bu ərazilərdə ilk ticarət yollarının təhlükəsizliyini təmin etməyə çalışan Çinin Han imperiyası da hun-türklərlə hesablaşmağa məcbur idi. Hun-türk imperatoru Mode Kağanın dövründə (e.ə. 208-175-ci illər) Böyük Çin səddindən Baykala qədər uzanan bir ərazidə, Çiçi Kağanın dövründə isə (e.ə. 55-34-cü illər) daha geniş miqyasda – hun-türklərin hökmran olduğu Volqa və Uralətrafı regionda belə imkanlar yaranmışdı.

Hun-türklərdən sonra Avrasiyada yenə türk etnosunun ikinci böyük hərbi-siyasi gücü kimi təşəkkül tapan göytürklərin dominantlığı Böyük İpək yolunun hüdudlarını Qara dəniz və Aralıq dənizi regionlarına qədər genişləndirir. Çin mallarını Mərkəzi Asiyada və Türküstanda məşhurlaşdıran soqdiyalı tacirbaşı Maniyaxın təklifi əsasında Göy Türk imperiyasının səfiri Sizabu 571-ci ildə ilk dəfə olaraq Qərblə siyasət, diplomatiya və ticarət sahəsində danışıqlar aparmaq üçün Bizansa göndərilir [9, s.82]. Bizans səfiri Zemarx dövlətinin türklərlə siyasi və ticari münasibətlər yaratmaq missiyası ilə elə həmin marşrut üzrə türklərin yanına yollanır. Bununla da, türklər Böyük İpək yolu diplomatiyasının əsasını qoyurlar. Böyük İpək yolunun “qızıl əsri” bu zamandan başlayır. Çin ipəyi digər mallarla birgə məhz türklərin hərbi-siyasi zəmanəti altında Bizansa, buradan da Avropanın digər ölkələrinə aparılırdı.

Bu elə bir dövr idi ki, müharibə, dövlətin öz hərbi üstünlüyünü nümayiş etdirməsi ilə yanaşı, həm də köçəri və oturaq sivilizasiyalar arasında sonrakı sülh proseslərini şərtləndirirdi: “Türklər praktikada bu prinsipi tam ölçüdə reallaşdırmışdılar” [3, s. 144]. Göy Türk imperiyası Uzaq Şərqlə Aralıq dənizi regionunu birləşdirən ticarət yollarına nəzarəti VI-VIII əsrlərdə öz əllərində saxlaya bilmişdilər. O dövrün aparıcı dövlətləri – Bizans, Çin və Sasani imperiyaları Böyük İpək yolu siyasətini Göy Türk imperiyası ilə uzlaşdıraraq həyata keçirməli idilər. Türk (və ya Göy Türk) imperiyasının Avrasiyada yaratdığı geolopitik durum Soqdi tacirləri vasitəsilə Çin mallarının Avropaya çatdırılmasını mümkün edirdi. Sonradan bu imperiya Şərqi Göy Türk Xaqanlığına və Qərbi Göy Türk Xaqanlığına bölünsə də, türklər (cənub istiqamətində oğuzlar, şimal istiqamətində bulqar, xəzər və uyğurlar) həmin tarixi dövrün aparıcı sivilizasiya mərkəzləri arasında ticari-mədəni əlaqələrin əsas determinantları idilər.

Təqribən, bizim eranın 600-1000-ci illəri arasında Böyük İpək yolu Avrasiyanın gündoğanı ilə günbatanı arasında – Yaponiyadan Britaniyaya qədər

məsafədə orta əsrlər ticarətinin əsas nəqliyyat strukturu kimi təşəkkül tapır. Bu yolun üzərində yerləşən müxtəlif ölkələrin şəhərlərindəki "ticarət depoları" özünəməxsus reqlament əsasında fəaliyyət göstərir [9, s.70-71]. Böyük İpək yolu sferasına daxil olan ölkə, vilayət və şəhərlər inkişaf edir. "Avrasiya ipək ticarəti bazarının transformasiyası" [9, s.87] daha geniş və çoxtərəfli iqtisadi münasibətlərin formalaşmasına zəmin yaradır. Orta əsr şəhərlərində o zamankı beynəlxalq ticarətin tələbatına uyğun olaraq, spesifik istehsal və təsərrüfat sahələri yaranır. Beynəlxalq siyasətdə hərbi qüdrətlə yanaşı, iqtisadi potensial, ölkə əhalisinin yaşayış səviyyəsi və bu səviyyəyə, vergi ödəmə qabiliyyətinə uyğun olaraq, dövlətin maliyyə əsasları getdikcə daha ciddi amilə çevrilir. Ölkələr, şəhərlər, ticarət mərkəzləri arasında rəqabət meydanı da genişlənir. Daha qüdrətli dövlətlər Böyük İpək yolu uğrunda "böyük mübarizəyə" başlayırlar.

Türk apofeozunun üçüncü dalğasında – bu superetnosun İslam sivilizasiyasının forpostuna çıxması həmin mübarizədə Böyük İpək yolunun ticarət strategiyasında daha həssas manevr bacarıqlarını zəruri edir, eyni zamanda, burada yeni istiqamətlərə çıxış imkanları riskini artırır. Böyük İpək yolunun ərəb dünyasının içərisindən keçən hissələri tədricən türklərin nəzarəti altına alınır. Bu regionda yaranmaqda olan Türk-Səlcuq dövlətləri Ərəb Xilafətinin çoxəsrlik buzunu sındırıb, Böyük İpək yoluna qovuşan ticarət və iqtisadiyyata yeni nəfəs verirlər. Yaxın Şərqdə türklərin ərəb dominantlığına son qoyması – parçalanmış islam dünyasının yenidən birləşməsinə şərt olur. İslam Şərqinin geniş ticarət və mədəniyyət potensialına malik olan şəhərləri və bu şəhərlərin satılıq mallarını dünyanın hər yerinə daşıyan peşəkar tacirlər təbəqəsi yaranır. "Böyük İpək yolunun şərq istiqamətinə nəzarət edən səlcuq türkləri tacirlərə xüsusi zəmanətlə təhlükəsizlik xidməti göstərirlər" [9, s.106].

Avrasiyanın onlarla dövlətini, yüzlərlə xalqını özünə birləşdirən Türk-Monqol imperiyası (XIII-XV əsrlər) ağlasığmaz sürətlə bütün rəqiblərini kontinentin siyasi hegemonluğundan uzaqlaşdıraraq, Böyük İpək yolunun *"ortaq"* adlanan beynəlxalq ticarət və vergi sistemini tətbiq edərək, inzibati ədalətə zaminliyi həyata keçirirlər [5, s.201-203;9, s.116-117]. Bu, haradasa, müasir Ümumdünya Ticarət Təşkilatının öhdəlik və funksiyalarını daşıyan, beynəlxalq ticarət hüququnu ibtidai şəkildə gerçəkləşdirən fəaliyyət forması olur. Hətta müəyyən qədər insan hüquqlarının qorunması imkan verir ki, əcnəbi vətəndaşlar sərbəst şəkildə başqa dövlətlərin ərazisində işgüzar fəaliyyətlə məşğul olsunlar. Belə bir səlahiyyət diplomat və səyyahlara daha çox verilir. Ona görə də Marko Polo (1254-1324) kimi avropalı səyyahlar Asiya dövlətlərinə səyahət edə və olduqları ölkələrin həyat tərzi və mədəniyyəti, digər xalqlara münasibəti haqqında məlumat əldə edə bilirlər. Türk-Monqol imperiyasının Asiya regionundakı bir çox şəhərlərini ziyarət edən Marko Polo buradakı mədəniyyət və zənginliyin yüksək səviyyəsindən heyranlıqla bəhs edir [8;10].

Səyyahın Avropada o zamandan məşhurlaşan kitabı bu günə qədər Şərq reallıqları haqqında yazılmış klassik bestseller sayılır.

1453-cü ildə türklərin Konstantinopolu fəth edərək, Bizans imperiyasını çökdürməsi ilə Şərq və Qərb arasında siyasi və iqtisadi münasibətlərin yeni mərhələsi, özü də Türk-İslam Şərqinin dominantlığını həlledici fazaya çatdıran mərhələsi başlayır. Avrasiyanın üç nəhəng türk imperiyası – Osmanlı, Səfəvi və Moğol imperiyaları Böyük İpək yolunun *İntibah dövrünü* yaradırlar. Türklər artıq Avrasiyanın təkcə quru ərazisi üzərində deyil, həm də suları üzərində (Hind okeanından Aralıq dənizinə qədər) ticarət fəaliyyətinin dəstəyini ələ keçirirlər [5, s.204-222]. Avrasiyanın "geopolitik üçbucağı" – Osmanlı, Səfəvi və Moğol imperiyaları aralarında nə qədər ziddiyyətlər olsa da, Böyük İpək yolunu Avropa imperializminin dünyanı çulğadığı vaxta – XIX əsrə qədər onu modernləşməyə hazırlayan proseslərin magistral xətti kimi irəlilədirlər. Böyük İpək yolunun XVI-XVIII əsrləri sözün əsl mənasında klassik Şərq şəhərlərinin mükəmməl ticarət mədəniyyətinə yetişdiyi və bu mədəniyyət arsenalı üzərində iqtisadi-mədəni əlaqələrin unikal səviyyəsinin əldə edildiyi dövr olur. İstanbul, Təbriz və Dehli dünyanın hər yerindən tacirlərin axın-axın gəlib mal daşıdığı paytaxt-şəhərlər kimi şöhrətlənir. Bu yolun Çin – Mərkəzi Asiya – Qafqaz – Aralıq dənizi regionunu birləşdirən tarixi marşrutu həm erkən orta əsrlərdə, həm də bu zaman Azərbaycandan keçdiyindən, Təbriz, Ərdəbil, Bakı, Gəncə, Şəki sürətlə inkişaf edir, böyüyür, klassik Şərq memarlığının incəliklərini özünə nəqş edən karvansara kompleksləri ilə zənginləşir, beynəlxalq ticarətin özünəməxsusluqlarını mənimsəyir. Yeri gəlmişkən, bu gün də dilimizdə işlədilən "çini qablar" ifadəsi məhz – Çindən gələn qablar, Çin qabları anlamını daşıyır. Dünyanın əsas ticarət magistralı – Böyük İpək yolu bu şəhərlərin karvanlarını özünün şaxələnən nəqliyyat spektrində görür. Böyük İpək yolu Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı təmasını yaradaraq, onları yüksək estetik kamilliyə çatdıran təcrübəni bir-birindən həvəslə öyrənməyə və dünyanın da ondan bəhrələnməsinə üfüqlər açır.

Yalnız Avropa imperializmi XIX əsrin sonu – XX əsrin əvvəllərindən Böyük İpək yolunu transkontinental nəqliyyat sistemi kimi çökdürərək, dünya ticarətinin yalnız öz maraqlarına tabe olan beynəlxalq şəbəkəsini formalaşdırır. Artıq bu zamandan Qərb Şərqə "müstəmləkə əraziləri" kimi baxır və onun sərvətlərini istədiyi yolla daşıyıb aparır. Dünya ticarətində "metropoliya – periferiya" rejiminin yaratdığı disbalans vəziyyəti Birinci və İkinci Dünya müharibələri intervallarında ən dramatik gərginliyinə çatır. XX əsrin ortalarındansa beynəlxalq ticarət münasibətlərinin təkmilləşdirilməsi burada beynəlxalq ticarət hüququnun normativləri daxilində fəaliyyəti sistemləşdirir. Sovet İttifaqının dağılmasından – Avrasiyada müstəqil türk dövlətlərinin yaranmasından sonra dünya ticarətinin geniş spektrində Böyük İpək yolu ideyası təbii-tarixi prosesin arasıkəsilməzliyi kimi yenidən doğulur.

Minilliklərin sivilizasiya yaddaşını özündə yaşadan Böyük İpək yolu, həqiqətən də, bəşəriyyətin inkişafında əhəmiyyətli rol oynamışdır. Bu yol yaxın-uzaq ölkələr arasında zaman-zaman təkcə mal-əmtəə mübadiləsini deyil, həm də innovasiya və texnologiyaların, din, elm, incəsənət sahəsində əldə olunmuş nailiyyətlərin ötürülməsini təmin etmişdir. Özü də dünyanın bu ən uzunömürlü transsivilizasiya xətti yalnız Şərqdən Qərbə deyil, həm də əks istiqamətə doğru ticarət məqsədlərini həyata keçirmiş, Avropanın bir çox yeniliklərini Şərq cəmiyyətlərinə gətirmişdir: "Mədəniyyətlərarası sıx əlaqə İran, Çin, Soqdi və Türk mədəniyyəti ənənələrinin sinkretizmini təzahür etdirən orijinal incəsənət əsərlərinin yaranmasına gətirib çıxarmışdır" [3, s. 148]. Ümumiyyətlə, Böyük İpək yolu yeni dövrə qədər dünya xalqları və dövlətlərinin iqtisadi və mədəni inteqrasiyasını həyata keçirərək, onların kifayət qədər zəngin qarşılıqlı əlaqələr təcrübəsi ilə bugünkü qloballaşma hərəkatında da iştirakını motivləşdirən davamlı tarixi-mədəni prosesləri öz taleyində yaşamışdır. Böyük İpək yolu Şərqi Qərbə, Qərbi də Şərqə daxili mahiyyətinə və özünəməxsus struktur keyfiyyətlərinin kompleksinə görə dərindən tanıtmışdır.

Buna görə də qloballaşma proseslərinin zəruri aktı kimi İkinci və Üçüncü minilliyi kəsişdirən tarixi epoxada Böyük İpək yolu ideyası müasir nəqliyyat texnologiyalarının yüksək səviyyəsi bazasında yenidən bərpa edilmək imkanları əldə etməkdədir: "Yeni İpək yolu" – tarixi "Böyük İpək yolunun" bərpası olaraq, TRASEKA (Avropa – Qafqaz – Asiya Nəqliyyat Dəhlizi) layihəsi çərçivəsində həyata keçirilir. Azərbaycanın Böyük İpək yolu coğrafiyasında tarixən və bu gün mühüm əhəmiyyət daşıması nəzərə alınaraq, TRASEKA-nın Proqram Katibliyinin Bakıda yerləşdirilməsi qərara alınmışdır. TRASEKA Hökumətlərarası Komissiyasının Azərbaycan üzrə Milli Katibi Akif Mustafayevin şərhində bildirilir ki, TRASEKA proqramı – dövlətlərarası proqram qismində Qara dəniz, Qafqaz və Mərkəzi Asiya regionlarının beynəlxalq nəqliyyat sisteminin inkişafı vasitəsi ilə yeni müstəqillik qazanmış postsovet dövlətlərinin iqtisadi və siyasi inkişafına yardım etmək məqsədi ilə 1993-cü ildə Brüsseldə keçirilmiş beynəlxalq konfransda Avropa Komissiyası tərəfindən təsis edilmişdir. Bu proqramın ilk iştirakçıları Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Ermənistan və Türkmənistan olmuşlar. Sonrakı illərdə isə bu proqrama Ukrayna, Moldova, Bolqarıstan, Rumıniya və Türkiyə qoşulmuşlar. Avropa Komissiyasının texniki dəstəyi ilə TRASEKA proqramının reallaşdırılması əksər üzv ölkələrdə çoxfunksiyalı, effektiv beynəlxalq nəqliyyat sisteminin yaradılması ilə bərabər regiona investisiyaların cəlb edilməsinə səbəb olmuşdur" [2, s.26]. Layihəni həyata keçirən təşkilat 2009-cu ildən bütünlüklə üzv dövlətlər tərəfindən maliyyələşdirilir.

1998-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və Avropa Birliyinin dəstəyi

ilə Bakı şəhərində "TRASEKA – Tarixi İpək Yolunun bərpası" Beynəlxalq Konfransı keçirilmişdir. Bu Konfransın işində 12 ölkənin dövlət başçıları, 32 ölkənin nümayəndə heyəti, Avropa Birliyi Komissiyasının və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələri iştirak etmişlər. Bu Konfransın əsas nəticəsi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üçün "Beynəlxalq Nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş"in Azərbaycan Respublikası, Bolqarıstan, Gürcüstan, Ermənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə və Ukraynanın dövlət və hökumət başçıları tərəfindən imzalanması olmuşdur. Artıq bu gün Avrasiyanı birləşdirən beynəlxalq nəqliyyat layihəsinin xeyli hissəsi başa çatdırılmış, ölkədaxili və beynəlxalq yollar çəkilmiş, nəzərdə tutulan növbəti işlərə start verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TRASEKA Hökumətlərarası Komissiyasının 4-cü illik konfransının iştirakçılarına müraciətində bəyan edir: "Azərbaycan Respublikası öz müstəqilliyinin ilk illərindən beynəlxalq aləmdə geniş iqtisadi əlaqələrini qurmaq məqsədilə kommunikasiya dəhlizlərinin yaradılmasını prioritet məsələ kimi müəyyən etmişdir. Bu baxımdan Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən TRASEKA proqramı xüsusi əhəmiyyət kəsb edir. Böyük İpək yolunun qədim tarixi ənənələrinin bərpasına yönəlmiş bu proqram, bütün üzv dövlətlərin iqtisadi inkişafına xidmət edir, onların regional və regionlararası səviyyədə sıx inteqrasiyasını təmin edir. Böyük İpək Yolu keçmişdən başlasa da, gələcəyə gedən yoldur. Ümidvaram ki, bu yolda bizim strateji partnyorluğumuz xalqlarımızı firavanlığa və tərəqqiyə aparacaqdır" [1, s.4].

Müasir beynəlxalq həyatda Böyük İpək yolunun yenidən aktuallaşması dünya inkişafının tarixi qanunauyğunluğudur: bu, o deməkdir ki, yenidən Böyük Siyasətə qayıdan türk dünyasının çağdaş Avrasiyanın siyasi, iqtisadi, mədəni həyatında rolu aktuallaşır. Böyük İpək yolunun tarixi qoruyucuları olan türklər bu gün onun qurucuları missiyasında çıxış edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Prezidenti İlham Əliyevin TRASEKA Hökumətlərarası Komissiyasının 4-cü illik konfransının iştirakçılarına müraciəti // "Nəqliyyat hüququ" jurnalı, 2005, №3(4), s.4
2. Mustafayev A. Tarixi İpək Yolunun bərpası, TRASEKA-nın beynəlxalq əhəmiyyəti, bu sahədə Azərbaycanda görülən işlər və perspektivlər / Azərbaycanın dünya birliyinə inteqrasiyası: Mədəniyyətlərin İpək Yolu. Konfrans materialları. Bakı: Sabah, 2009, s.26-30

3. МамлееваЛ.А.Становление Великого шёлкового пути в системе трансцивилизационного взаимодействия народов Евразии // VitaAntiqua, 1999, № 2, с. 53-61
4. Alden J.R. Trade and Politics in Proto Elamite Iran // Carrent Anthropology. 1982, №2, vol. 25
5. Beckwith Ch.I. Empires of the Silk Road. A History of Central Eurasia from the Bronze Age to the Present. Princeton University Press, 2009
6. Golden P.B. Central Asia in World History. Oxford University Press, 2011
7. Grousset R. The Empire of the Steppes. A History of Central Asia. Rutgers University Press, 2010
8. Laurence B. Marco Polo: From Venice to Xanadu, London: Quercus, 2007
9. Liu X. The Silk Road in World History. Oxford University Press, 2010
10. Michael B. Marco Polo and the Silk Road to China. Mankato: Compass Point Books, 2002

**УДК 94(479.24)**

# МОНЕТЫ КАРА ИСКЕНДЕРА 823-841 ГГ.Х. (1420-1437 ГГ.Н.Э.)

***Акиф Кулиев, Аббас Сейидов***
*Институт археологии и этнографии НАНА*
*akifarifoglu@mail.ru*
*abbas.seyidov@gmail.com*

**Ключевые слова:** *Каракоюнлу, туркмены, огузы, Кара Юсуф, Кара Искендер, Джахан шах, Тебриз, теньга, дирхем, динар, нумизматика Азербайджана, монеты*

*Кара Искендер является третьим сыном Кара Юсуфа. После смерти отца (1420 г.) захватил власть, провозгласил себя султаном. В годы правления ему пришлось вести войну с тимуридом Шахрухом, аккоюнлинцем Кара Османом, Ширваншахом Халилуллахом I, а также со своими братьями, - сперва с Абу Саидом, а после его смерти с Джаханшахом. Кара Искендеру удалось на некоторое время восстановить границы Каракоюнлинского государства, какими они были во время правления Кара Юсуфа. Ведя постоянную войну с тимуридами, Искендер правил с перерывами с 823 г.х. (1420 г.) по 832 г.х. (1429 г.) и с 835 г.х. (1431 г.) по 841 г.х. (1437 г.).*

*В годы правления Кара Искендера монетные дворы Тебриза, Мосула, Мардина, Мараги, Нисибина, Хоя, Сулдуза, Карни, Урмии выпускали теньги и дирхемы с именем Абу Насра Искендера. Максимальный вес теньги составлял 5,50 гр., средний 4,69 гр., минимальный 3,72 гр.*

## QARA İSKƏNDƏRİN HİCRİ 823-841-Cİ İLLƏRƏ (MİLADİ 1420-1437-Cİ İLLƏRƏ) AİD SİKKƏLƏRİ

***Akif Quliyev, Abbas Seyidov***

**Açar sözlər:** *Qaraqoyunlu, türkmən, oğuz, Qara İskəndər, Cahan şah, Təbriz, təngə, dirhəm, dinar, Azərbaycan numizmatikası, sikkələr*

*Qara İskəndər Qaraqoyunlu hökmdarı Qara Yusifin üçüncü oğlu olub. Atasının ölümündən sonra (1420) hakimiyyəti ələ keçirərək, özünü sultan elan edib. Hakimiyyətdə olduğu illərdə ən çox teymuri Şahruxla, ağqoyunlu Qara Osmanla, Şirvanşah I Xəlilullahla, qardaşları Əbu-Səid və Çahanşahla müharibələr aparıb. O, hakimiyyətdə olduğu dövrlərdə atası Qara Yusif tərəfindən əsası qoyulan Qaraqoyunlu dövlətinin sərhədlərini bərpa edə bilib. Daima teymurilərlə müharibə şəraitində olan Qara İskəndər fasilələrlə hicri 823-cü ildən (miladi 1420) 832-ci (miladi 1429) ilədək və hicri 835-dən (miladi 1431) hicri 841-ədək (miladi 1437) hakimiyyətdə olub.*

*Onun hakimiyyətdə olduğu dövrlərdə Təbriz, Mosul, Mardin, Marağa, Nisibin, Xoy, Sulduz, Kərni, Urmiya şəhərlərində müntəzəm olaraq Əbu Nəsr İskəndərin adına təngə və dirhəmlər zərb edilib. Təngənin yuxarı çəkisi 5,50 qr., orta çəkisi 4,69 qr., aşağı çəkisi 3,72 qr. təşkil edib.*

## COINS KARA ISKANDER 823-841 YEARS. H. (1420-1437 YEARS AD)

***Akif Guliyev, Abbas Seyidov***

**Key words:** *Karakoyunlu, torkman, ogus, Kara Yusuf, Kara Iskender, Jahanshah, Tebriz, tenqa, dirhem, dinar, Numismatics of Azerbaijan, coins*

*Kara Iskender is the third son of Kara Yusuf (1420). After the death of his father seized power, proclaimed himself the Sultan. During the years of his reign, he had to wage war with Timurid Shahruh, Akkoyunlints Kara Osman, Shirvanshah Khalilullah I, as well as with his brothers, first with Abu Said, and after his death with Jahanshah. Kara Iskender managed for some time to restore the borders of the Karakojunlin state as they were during the rule of Kara Yusuf.*

*During the rule of Kara Iskender, the mints of Tabriz, Mosul, Mardin, Maragi, Nisibin, Khoy, Sulduz, Karni, Urmia produced tengs and dirhams with the name of Abu Nasr Iskander. The maximum weight of the shade was 5.50 grams, the average was 4.69 grams, and the minimum was 3.72 grams.*

В начале 841 г.х. (сентбярь 1437 г.) в битве недалеко от Хашт-чешма войска Кара Искендера были наголову разбиты войсками Джахан-шаха. Спасаясь бегством кара Искендер укрылся в крепости Алинджа. Войска Джахан-шаха осадили крепость. 25 шавваля 841 г.х. (20 апреля 1438 г.), в результате заговора, организованной его сыном Шах-Губадом и

женой Лейли, Кара Искендер был убит [3, 93-94; 7, 51-52; 8, т.III, 627]. Шах-Губад послал тело своего отца к Джахан-шаху, а он со всеми почестями похоронил брата в Тебризе соорудив над его могилой огромный мавзолей [4, 57; 9, 162].

В годы правления Кара Искендера монетные дворы Тебриза, Мосула, Мардина, Мараги, Нисибина, Хоя, Сулдуза, Карни, Урмии выпускали теньги и дирхемы с именем Абу Насра Искендера. Максимальный вес теньги составлял 5,50 гр., средний 4,69 гр., минимальный 3,72 гр.

В отличие от своего отца, он принял титул султана. Одновременно на монетах чеканились и другие эпитеты, такие как: Абу Наср, Абу-аль Музаффар, Бахадур, Нойон.

На основе нумизматических материалов серебряные монеты, выпущенные от имени Кара Искендера, можно разделить на шесть типов.

Первый тип. В нумизматическом фонде Музея Истории Азербайджана (МИА) хранится теньга выпущенная в Урмии. Эта монета была описана А.М.Раджабли (Инв. № 2728, вес = 4,75 гр. Д = 20 мм.) [1, 95]. Лицевая сторона: Внутри восьми лепестковой картуши, охваченной линейным и точечным ободком, трехстрочная арабская надпись: «Аль-султан, аль-азам. Абу-аль Музаффар Искендер ибн…». Над первой строкой дано место чеканки: «Урмия». Оборотная сторона: Внутри линейного круга, трехстрочная арабская надпись: «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». Между второй и третьей строкой выгравировано слово: «Слава Аллаху». С четырех сторон от надписи имена четырех халифов-рашиди: «Абу Бекр, Омар, Осман, Али».

Второй тип. В нумизматическом фонде Государственного Эрмитажа имеется теньга, выпушенная в Нисибине (Инв. №2 С 44а/538, вес = 3,72 гр., д = 24 мм). Лицевая сторона: Внутри двухлинейной, пятиконечной звезды, помещена трехстрочная арабская надпись: «Аль-султан, аль-азам / Абу-аль – Музаффар Искендер-бахадур/ - нойон, да продлит бог царствование его». Над первой строкой выбито место чеканки: - «Нисибин». Легенда охвачена линейным ободком. Оборотная сторона: Внутри линейного ободка, трехстрочная арабская надпись: «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». Над первой строкой выгравирована тамга в виде переплетенного квадрата. Между строками выбита арабская надпись: - «аль-мулька-лиллах» - (царство принадлежит Аллаху) и «аль-хамд-лиллах» - (хвала Аллаху). Вокруг надписи выгравированы имена четырех халифов рашиди.

Аналогичная теньга находится в нумизматическом фонде Государственного Исторического Музея Российской Федерации (Инв. № 547108, вес = 4,55 гр., д = 23-24 мм.).

Три теньги того же типа были изданы Ахмедом Товхидом [6, 456-457, № 934-937]. Первая монета, выпущена в 823 г.х. (1420 г.) в Нисибине в честь победы над аккоюнлинцем Кара Османом Юлуком (вес = 4,9 гр., д = 25 мм). Две другие монеты, выпущенные в Мараге и Ахлате отличаются от первой, вес которых представляет 4,92 гр. и 5,52 гр., а диаметр 25 мм и 24 мм.

Третий тип. В нумизматическом фонде Государственного Исторического Музея Российской Федерации хранится теньга (Инв. № 547116, вес = 4,46 гр., д = 21-22 мм.). Лицевая сторона: Внутри двух линейного ободка (внешний точечный), шестиугольная фигура, охваченная переплетенной рамкой. В шестиугольнике с двумя линиями дана трехстрочная арабская надпись: «Аль-султан, аль-адиль /Абу Наср Искендер/, да продлит бог царствование его». Под последней строкой выгравировано место чеканки: - «чеканен в Хое». Оборотная сторона: Внутри трехлинейного круга (внешний точечный) расположена трехстрочная арабская надпись: «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». С четырех сторон от надписи имена четырех халифов рашиди: «Абу Бекр, Омар, Осман, Али».

Аналогичные теньги, чеканенные в Тебризе описаны С.Лен-Пулем и М.А.Сейфеддини [5, т.VII, 3, № 4; 2, к. II, 185].

Четвертый тип. В нумизматическом фонде Государственного Исторического Музея Российской Федерации хранится теньга, отчеканенная в Тебризе (Инв. № 547114, вес = 4,4 гр., д = 27 мм.). Лицевая сторона: Внутри двухлинейного шестиугольника, охваченного переплетенной рамкой, выбита трехстрочная арабская надпись: «Аль-султан, аль-адиль, /Абу Наср Искендер/, да продлит бог царствование его». Под последней строкой выгравирована место чеканки: «чеканен в Тебризе». Легенда и шестиугольник охвачен линейным и точечным ободком. Оборотная сторона: В центре трехлинейного круга (внешний точечный) выгравирована тамга в виде переплетенного сердца. Вокруг тамги в виде квадрата дана куфическая надпись: «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». С четырех сторон читается имена четырех халифов рашиди.

Того же типа теньга хранится в нумизматическом фонде Государственного Эрмитажа в Санкт-Петербурге (Инв. № 2d/281/., вес = 4,30 гр., д = 23 мм.). Эта монета имеет ушку.

Аналогичная монета, выпущенная в Тебризе была издана Ахмедом Товхидом (вес = 5,264 гр., д = 27 мм) [6, 456, № 935].

Одновременно с теньгами, монетные дворы Каракоюнлинского государства продолжали выпуск серебряных дирхемов.

Пятый тип. В нумизматическом фонде Государственного Исторического Музея Российской Федерации хранится двойной дирхем, отчеканенный в 826 г.х. (1423 г.) (Инв. № 547121, вес = 1,24 гр., д = 19-20 мм.). Лицевая сторона: Внутри малого круга выбито слово: - «Аллах». Вокруг малого круга в круговую чеканено: - «Абу Наср – бахадур – нойон, в 826 году». Все вместе охвачено тройным ободком (средний точечный). Оборотная сторона: Внутри тройного ободка (средний точечный) дана трехстрочная арабская надпись: «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». С четырех сторон от надписи выгравированы имена халифов рашиди.

Шестой тип. В нумизматическом фонде Государственного Исторического Музея Российской Федерации находится дирхем, чеканенный в Тебризе (Инв. № 547120, вес = 0,88 гр., д = 19 мм.). Лицевая сторона: Внутри фигурной рамки, составленный шестью дугами – трехстрочная арабская надпись: - «Аль – султан, аль-адиль /Абу Наср Искендер/, да продлит Аллах царствование его, чеканен в Тебризе». Легенда охвачена тройным ободком (средний точечный). Оборотная сторона: Внутри фигурной рамки из шести дуг расположена трехстрочная арабская надпись: «Нет бога кроме Аллаха, Мухаммед посланник Аллаха». Вокруг надписи выгравированы имена четырех халифов. Все вместе охвачено тройным ободком (средний точечный).

На основе нумизматических данных и фактического материала можно твердо сказать, что монеты Кара Искендера выпускались по монетной системе последнего Джелаиридского султана Гияс ад-Дина Ахмеда. Максимальный вес дирхемов составлял 1,065 гр., средний 0,83 гр., минимальный 0,5 гр. [2, к.II, 157].

## ЛИТЕРАТУРА


1. Раджабли А.М. Нумизматика Азербайджана. Баку: Элм и Хаят, 1998, 232 с.
2. Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XII-XV вв. к.II. Баку: Элм, 1981, с.244.
3. Ябу Бякр Тещрани. Китаби-Дийарбякриййя. Бакы: Елм, 1998, 336 с.
4. Ибращимов Ъ. Азярбайъанын ХВ яср тарихиня даир очеркляр. Бакы: 1958. В.И.Ленин адына АДПУ-нун няшриййаты, 1958, 210 с.
5. Lane-Pool St. Cataloque of Oriental Coins in the British museum. London: I, 1875.
6. احمد توحید. مسکوکات قدیمی، اسلامبیا کاتولوگ، استانبول، 1321.

7. حسن روملو، احسن التواریخ./ Рукописный фонд Инс. Вост. НАН Азерб. Республики.
8. خان دمیر غیاث الدین، همام الدین الحسینی، حبیب السیر، جلد سیم، 1030 هجری. / Инстит. Рукописей Азерб. Республики.
Инв. D-226/11512
9. عربشاه احمد ابن محمد، « زندگانی شگفت آور تیمور»، تهران، 1339، ص 352.

















**УДК 94(479.24)+902**

# СТОЯНКА МАРАЛ НА ГОРЕ БЕЮКДАШ

***Малахат Фараджева***
*Гала -Государственный Историко-Этнографический Заповедник*
*malahat@mail.ru*

**Ключевые слова:** *петроглифыГобустана, стоянка Марал, Беюкдаш, датировка петроглифов.*

*Гобустан – насыщенный археологический комплекс, в котором сохранились тысячи наскальных изображений, стоянки, поселения, курганы и погребальные памятники разных исторических периодов. На горе Беюкдаш зафиксировано большое количество стоянок, пещер и убежищ.Одной из этих стоянок является стоянка Марал, которая представляет особый научный интерес для изучения археологического комплекса Гобустан (Рис.1).*

# BÖYÜKDAŞ DAĞINDA MARAL DÜŞƏRGƏSİ

***Məlahət Fərəcova***

**Açar sözlər:** *Qobustan petroqlifləri, Maral düşərgəsi, Böyükdaş, petroqliflərinin tarixi.*

*Qobustanda çox sayda qədim insan dayanacaqları, mağara və düşərgələr aşkar olunmuşdur. Bu düşərgələrdən biri Qobustan arxeoloji kompleksinin öyrənilməsi üçün xüsusi elmi maraq kəsb edən, Böyükdaş dağında yerləşən Maral düşərgəsidir. Son illərdə Qobustanın müxtəlif mağara və dayanacaqlarındakı mədəni təbəqələrdən 40 – dan çox nümunə , həmçinin Maral düşərgəsindən AMS – dövr müəyyənləşdirmə və izotop analizləri üçün nümunələr (sümük materiallar) götürülmüşdür. Xəzər dənizinin transqressiya və reqressiyaları haqqında geoxronoloji məlumatların toplanılması, Pleistosen və Holocen faunasının soyu tükənən nümayəndələrinin qalıqlarına tətbiq edilmiş radiokarbon analizlərinin nəticələri Maral düşərgəsinin arxeoloji sahəsini yenidən qurmağa imkan verdi. Beləliklə, təxminən 1000-1200 il bundan əvvəl Böyükdaş dağının yaxınlığında ceyranların yaşadığı ehtimal*

*oluna bilər (Gazellasubgutturoza Guld). Bu dövrdə Böyük dağının aşağı səkisi Xəzər dənizinin suları ilə yuyulurdu.*

## MARAL SHELTER ON BOYUKDASH MOUNTAIN

***Malahat Farajova***

**Key words:** *petroglyphs of Qobustan, Maral shelter, Boyukdash, the history of petroglyphs*

*A lot of settlements, caves, shelters and settlements were found in Qobustan. One of these camps is Maral camp located in Boyukdashmountain which has a special scientific interest for studying Qobustan archeological complex. Recently, more than 40 examples were taken from cultural layers of caves and shelters of Qobustan, as well as examples (bone materials) from the Maral camp for AMS - period identification and isotope analysis. Collecting geochronological data on transgressions and regressions of the Caspian Sea, the results of C14 analysis applied to the remains of extinct species of Pleistocene and Holocene fauna, allowed to rebuild the archeological site of Maral shelter. Thus, it can be assumed that gazelles lived around Boyukdash mountain about 1000-1200 years ago (Gazellasubgutturoza Guld). In this period, the lower slope of the Boyukdash Mountain was washed off with the water of the Caspian Sea.*

Материалы и методы. Во время археологических раскопок на стоянке Маралобнаружены скребки, резцы, грузила из речного камня и кремня, костяные украшения и кости вымерших животных (джейранов, домашней овцы, рога оленя и др.), которые датируются приблизительно 1 тыс.н.э.Раскопки на стоянке проводились археологами Дж.Рустамов и Ф.Мурадовой. В настоящее время собранный археологический материал находится в фондах Гобустанского Национального историко-художественного заповедника. На стенах данного убежища также зафиксированы наскальные изображения оленя и коз, которые датируются приблизительно тем же временем, что и обнаруженные материалы.

Касаясь вопроса датировки гобустанских петроглифов следет отметить, что данная темаявляется одной из сложных проблем, которая неоднократно поднималась в работах первых исследователей (И.Джафарзаде, 1945; 1956-1973, 1999; Дж.Рустамов, Ф.Мурадова 1965-1986, 1990, 2000, 2003). Касаясь их абсолютного возраста, одни

исследователи пытались найти близкие аналогии на наскальных объектах других территорий, зачастую очень отдаленных (Формозов, 1969, 1980, 1987; Э.Анати, 2001). Вопросам датировки петроглифов Азербайджана было посвящено много публикаций (И.Джафарзаде, Дж.Рустамов, Ф.Мурадова, Г.Исмаилзаде, В.Алиев, Н.Мусеибли, М.Фараджева).

Результаты исследования.В настоящее время с различных культурных уровней пещер и стоянок Гобустана взяты и посланы на датирование более 40 проб. Таким образом исследования последних лет позволили несколько в ином свете рассмотреть принцип датировки наскальных изображений Гобустана. Несмотря на то, что мы имеем радиоуглеродные датировки с культурных уровней стоянок Гобустана и с их помощью приблизительно можем определить даты некоторых петроглифов,считаетсятакже необходимым привлечь геолого-географические материалы, в частности, геохронологические данные о трансгрессиях и регрессиях Каспийского моря и материалы о возрасте останков вымерших представителей верхнеплейстоценовой фауны.

Согласно радиоуглеродной датировке 4-2 тыс.лет назад (ВР) в Каспийском море наступает регрессия [1, с.144], а 17 веков назад происходит крупная трансгрессия из-за резкого потепления, вызвавшего таяние материковых льдов и вечной мерзлоты, сверхполоводье в долинах рек заставило уровень Каспия подняться настолько, что вода каскадом хлынула на низлежащие земли [2, с.20-24].

Lakin imperiyaların maksimal böyüməsi – onların ölümünün də səbəblərini yetişdirir. Onlar hətta bəzən o qədər böyüyürlər ki, dinozavr kimi başlarının gücü bədənlərini idarə etməyə çatmır. Metropoliya ilə (mərkəzlə) periferiya (ucqarlar) arasında çat əmələ gəlir. Tədricən deqradasiyaya uğrayan nəhəng idarəetmə sisteminin öhdəsindən gəlmək mümkün olmur. Mərkəzi totalitar aparat onun getdikcə müstəqilləşməyə can atan “hissələrini” nə qədər bir yerə cəm etməyə çalışsa da, dezinteqrasiya prosesləri qarşısıalınmaz olur. Başlıca olaraq, mərkəzdənqaçma səbəblərindən zəifləyən imperiya bəzən o qədər taqətsizləşir ki, dostunu düşmənindən ayırd edə bilmir, müdafiəsiz qalaraq, bir çox hallarda digər güclənməkdə olan dövlətlərin əlində tikə-tikə parçalanır. İmperiya ruhunun düşkünləşməsi onun heterogen cəmiyyətini dekadens ölgünlüyünə doğru aparır. Amma bəzən milli-siyasi təməlin möhkəmliyi, mərkəzi dövlət potensialının itirilməməsi, tənəzzülə doğru hərəkətin vaxtında dərk edilməsi və rasional ölçülər götürülməsi imperiyanın bu süqutdan daha az ziyanla çıxmasına yol açır (məsələn, Böyük Britaniya, Osmanlı və Rusiya imperiyalarının süqutu vəziyyətlərində).

Eyni zaman kəsiyində onlarla dövlət yanaşı yaşaya bilirlərsə də, yalnız bir neçə imperiyanın bir-birinə çağdaş olması mümkündür. Çünki imperiyalar dövlətlərdən daha dərin ziddiyyətlərlə üz-üzə gəlir və daha çox bir-birinə dözümsüz, “əsəbi” yanaşırlar. Onların toqquşması planet miqyasında hərbi-siyasi zəlzələlərə, iqtisadi böhranlara və fəlakətli müharibələrə, dövlətlərin bir siyasi qütbdən digər siyasi qütbə doğru dreyfinə səbəb olur. İmperiyalararası güc balansı beynəlxalq həyatda nisbi sabitliyi gərgin bir situasiyada, tarıma çəkilmiş bir vəziyyətdə saxlayır.

İmperiyalar öz təntənəsinin zirvəsində çox böyük ərazilər fəth edir. İlk böyük imperiyaların yaranışından indiyə qədər mövcud olmuş təqribən iki min beş yüz illik tarixdə onların hökmranlığının miqyası torpaq fatehliyi ilə yanaşı, həm də beynəlxalq siyasətin mərkəzində dayanmaq, onu yönəltmək imkanları ilə ölçülür. Daha çox və zəngin torpaqlar isə daha güclü iqtisadiyyat, daha güclü iqtisadiyyat isə daha qüdrətli ordu, daha qüdrətli oldu isə daha ötkəm və nüfuzlu siyasət deməkdir. Əhəməni imperiyası – 8 milyon kv.km. (e.ə. 480-ci il), Roma imperiyası – 6 milyon 500 min kv.km. (b.e. 117-ci il), Hun imperiyası – 4 milyon kv.km. (453-cü il), Göy Türk imperiyası – 14 milyon kv.km. (572-ci il), Üməyyə xilafəti – 11 milyon kv.km. (720-ci il), Abbasi xilafəti – 11 milyon kv. km (750-ci il), Türk-Monqol imperiyası – 24 milyon kv.km. (1309-

cu il), Çin Yuan imperiyası –11 milyon kv.km. (1320-ci il), Osmanlı imperiyası – 5 milyon 200 min kv.km. (1683-cü il), Çin Mançu-Qing imperiyası – 15 milyon kv.km. (1800-cü il), İspan imperiyası – 14 milyon kv.km. (1800-cü il), Portuqaliya imperiyası – 10 milyon 400 min kv.km. (1815-ci il), Rusiya imperiyası – 23 milyon kv.km. (1905-ci il), İkinci Fransa Müstəmləkə imperiyası – 15 milyon kv.km. (1920-ci il), Britaniya imperiyası – 34 milyon kv.km. (1920-ci il) torpağa sahib olmuşdur. Sonuncu yüzilliyə doğru onların bir çoxu qlobal miqyasda üz-üzə gəlmiş, müharibələr etmiş, dağılmış və yenidən toparlanmağa çalışmış, yeni dövlətləri tarix səhnəsinə gətirmiş, bütün hallarda dünya siyasətinin baş meydanından çəkilməmək üçün amansız mübarizə aparmışlar.

Dövlətlərdən imperiyaların doğulması – bir çox daxili və xarici amillərlə bağlı olan bu mürəkkəb proses ulusal-siyasi sistemin təkamülündə onu dominantlığa çatdıran həlledici mərhələdir, bu sistemin daha geniş coğrafi-siyasi məkanda özünün təhlükəsizliyini etibarlı şəkildə təmin etmək məqsədlərini gerçəkləşdirməsidir. Əgər bir ulus, xalq və millət olaraq, tarixən formalaşmış hər hansı bir cəmiyyət – soy və dil birliyinə malik olan toplum güzəşt tanımayan bu amansız mübarizə meydanında həmin məqsədləri həyata keçirməyi bacarmasa, ondan daha güclülərin əlində məhv olmağa, ən yaxşı halda, onlara boyun əyməyə, itaət etməyə, öz taleyi və iradəsi üzərində hakimlikdən imtina etməyə məhkumdur.

Türklərin azadlıq ruhu – onları daim belə əsarətdən saqınmağa, qüdrətli və yenilməz olmağa səsləyib. Buna görə də onların 3000 illik tarixi – həm də dövlətlərini İmperiya qüdrətinə çatdırmaları tarixidir. Əgər biz Avrasiya kontinentinin qlobal siyasi özünüdərkinin başlanğıc mərhələsinə baxsaq, görərik ki, elə o zamandan türksoylu xalqlar burada imperiyalararası güc balansını yaratmağa qadir olmuşlar. Belə ki, milada qədərki və miladdan sonrakı ilk əsrlərdə (təqribən dörd yüz il) Çin Han imperiyası Asiya üzərində hökmranlığa can atıb. Aralıq dənizi hövzəsindən Şərqə doğru istilalarını getdikcə gücləndirən Roma imperiyasının da həm cənubdan, həm də şimaldan Asiyanın mərkəzinə istiqamətlənməsi qaçılmaz olacaqdı. Amma Çin və Roma imperiyaları tarixdə heç zaman üz-üzə gəlmədilər. Avrasiyanın Şərqi ilə Qərbinin bu qlobal toqquşmasına yalnız hun-türk qüdrəti mane oldu: Hun imperiyası şərq istiqamətində Çin, qərb istiqamətində isə Roma imperiyası ilə döyüşərək, onların heç birinin Avrasiyanın Mütləq Hökmranı olmasına imkan vermədi. Türklər Şərqdə Çini, Qərbdə Romanı məğlub etdilər. Bununla da, Pax Turcica (türk dünyasının universal hakimiyyəti) – Pax Sinica (çinli dünyasının universal hakimiyyəti) və Pax Romana (roman dünyasının universal hakimiyyəti) qarşısında əsil Avrasiya iradəsinin nə olduğunu nümayiş etdirdi. Bundan sonra daha heç kimin Avrasiyada mütləq hökmranlığına imkan verilmədi. Qarşıdakı iki min ildə bu böyük məkanda dövlət və imperiyalarını

...

qurub genişləndirən türklər və onların yaratdığı birliklər oldu. "Dünya tarixində türklər" monoqrafiyasının müəllifi, professor K.V.Findlinin qeyd etdiyi kimi, bizim eranın ilk əsrlərindən başlayan bu prosesin nəticəsi olaraq, miladın ilk minilliyinin ortalarında "İç Asiyanın türkləşməsi", "Pan-Turcica mədəni kompleksinin möhkəmlənməsi" dönməz xarakter daşıyırdı [9, s.37-43].

Əlbəttə, hun-türklər çinlilərlə müqayisədə sayca xeyli az (300 min nəfər) idilər. Han imperiyası dövründə çinlilərin sayı 56,5 milyon idi (b.e. II əsr). Min il ərzində türklərin sayı azalıb-çoxalaraq cəmi 600 minə çatmışdı [7, s.537]. Buna görə də hun-türklər çinlilərə qarşı 1:20 nisbətində döyüşürdülər. Çinlilər onlara qarşı təkcə ordudan yox, həm də "tələ-diplomatiyadan" istifadə edir, onları öz zənginlikləri ilə şirnikləndirib tərəflərinə çəkməyə çalışırdılar. Hun-türklər romalılara qarşı da azsaylı, lakin mütəşəkkil və intizamlı, döyüşkən və yenilməz ordu ilə vuruşurdular. 451-452-ci illərdə Roma imperiyasının birləşmiş ordularına qarşı Şərqi və Mərkəzi Avropa cinahlarından həmlə edən hun-türklər o zaman üçün müharibə sənətinin ən mükəmməl strategiyası ilə döyüş açmışdılar. Bu müharibədə təkcə iki ordu deyil, geniş mənada avropalı və asiyalılar (çünki hər iki ordunun tərkibində bu ərazidə yaşayan çoxsaylı xalqların döyüşçü qüvvələri vardı), personal mənada isə iki istedadlı sərkərdə – romalı Aetsi və hun Attila üz-üzə gəlmişdi. Katalaun düzənliyində baş verən ilk qanlı müharibədə tərəflərdən heç biri qalib gələ bilməsə də, strateji planda bu müharibə prosesinin aqibətini düşünən və ona hazırlaşan Attila geri çəkildi. Bunun hələ başlanğıc olduğunu anlayaraq riskə getməyən Aetsi də onu təqib etmədi. Bir ildən sonra yenidən alovlanan müharibədə Hun imperiyasının qoşunları qalib gəldi. Onlar metropoliyaya – İtaliyaya daxil oldular və Roma imperiyasının ən güclü qalasını – Akvileyi ələ keçirdilər. Məğlub olmuş Aetsinin artıq müqavimət göstərməyə hərbi gücü qalmamışdı. Romalılar sülh xahiş etdilər və Attilanın İtaliyadan çıxması müqabilində böyük ödənc təklifini irəli sürdülər. Avropanın qəlbini fəth etmiş Attila bu təklifi qəbul etdi. 453-cü ildə – öz qalibiyyətinin zirvəsində Burqundiya gözəli İldiko ilə izdivac quran və sirli bir şəkildə (çox ehtimala görə, burnundan qanaxmasının başlaması və bunu müşayiətçilərinə bildirməməsi səbəbindən) toy gecəsi ölən Attilanın zəfəri Avropanın taleyində həlledici iz qoydu: avropalılar anladılar ki, Asiyaya doğru hərəkət etsələr, hansı keçilməz sədlə üz-üzə gələ bilərlər.

Hun imperiyasının Roma imperiyasına qalib gəlməsindən düz yüz il sonra – 552-ci ildə həmin imperiyanın etnik və mənəvi dayaqları üzərində daha böyük əzmkarlıq gücünə və dövlətçilik qabiliyyətinə malik olan, – Mərkəzi Asiyanın Türk Dayağı – Göy Türk imperiyası (bəzi mənbələrdə elə sadəcə "Türk imperiyası") zühur etdi.

Özünün soy başlanğıcını Aşina kökünə bağlayan göytürklərin (və ya göktürkütlər) Tu-u adlı liderinin iki oğlu – Bumın və İstemi xaqanlar Göy Türk imperiyasının əsasını qoymuşlar [10, s.80-140; 6, s.]. Avrasiyanın Yapon

dənizindən Xəzər dənizinə qədər uzanan bu ən qüdrətli türk imperiyası 552-745-ci illər arasında mövcud olmuş (hakimiyyətinin zirvə çağında ərazisi – 14 milyon kv.km.!), sanki Böyük Hun ənənəsini (Xatırlayaq – Şərqi və Qərbi Hun imperiyası) davam etdirərək, Böyük Türk Qardaşlarının – Bumın xaqanın hökmdarlığı ilə Şərqi Göy Türk Xaqanlığına (552-640-cı illər) və İstemi xaqanın hökmdarlığı ilə Qərbi Göy Türk Xaqanlığına (552-660-cı illər) budaqlanmışdır. Xüsusilə İstemi xaqan hun-türk varisliyini özünəməxsus birləşdirici siyasi-ideoloji platformada davam etdirməyə səy göstərmiş, imkan verməmişdir ki, Avrasiyanın türk superetnosu içəridən çatlasın və onun "süxurlarına" yad-dağıdıcı elementlər dolsun. Şərqi Türk Xaqanlığının siyasəti və ordusu – Çin imperiyasına qarşı, Qərbi Göy Türk Xaqanlığının siyasəti və ordusu isə – Sasani imperiyasına, Xəzər və Qara dəniz bölgəsindən gözlənilən təhlükələrə qarşı daim ayıq dayanmışdır. Türklərin hərbi fatehlik əzmi bundadır: əgər onların böyük torpaqları fəth etmək uğrunda apardıqları hərbi yürüşlər siyasi-diplomatik səylərlə başa çatdırılmasaydı, onlar bu ərazilərdə davamlı şəkildə duruş gətirə bilməz, istinad-torpaqlarını da əldən verərdilər. Türklərin hərbi fatehliyinin siyasi fatehliklə uzlaşması – onların mükəmməl imperiyaçılıq qabiliyyətinin əsas şərti olub. Belə bir qabiliyyətlə Göy Türk imperiyası qonşu ölkələrlə və hətta uzaq məmləkətlərlə öz məqsədlərinə uyğun mükəmməl münasibətlər qurmuşdu. Sasani və Bizans imperiyaları ilə diplomatik əlaqələr mövcud geosiyasi prosesləri idarə etmək üçün ona çox lazım idi [9, s.39].

Pax Turcica varisliyi Mərkəzi Asiyada sonrakı əsrlərdə Uyğur-Türk (745-840-cı illər) və Türk-Monqol imperiyalarının (1230-1310-cu illər) həyatında davam etdirilir. Lakin Pax Turcica Asiyanın qərbinə – Avropa ilə Asiyanın bitişdiyi həlledici geopolitik məkana doğru hərəkətində daha böyük nailiyyətlər qazanır. Türk – İslam İttifaqı ilə Pax Turcica – özünün Pax Turanica və Pax Ottomanica modifikasiyalarında türk superetnosunun imperiya həyatının yeni erasını başlayır. Artıq XI əsrdə Böyük Səlcuq Sultanlığı – islam dünyasının hakim imperiyası olur. 1094-cü ildə cənub-qərbi Asiyadakı geopolitik durumu əks etdirən xəritədən də görürük ki, Böyük Səlcuq Sultanlığı şərqdə – Hindistan sərhədlərindən başlayan Qəznəvi Sultanlığından qərbdə Konstantinopola qədər, şimalda – Aral dənizindən Ərəbistan yarımadasına qədər bir ərazini tutmuşdu [10, s.156].

Türklər – islamı, islam Şərqi isə – türk hökmranlığını qəbul edirdi. Türklər Din və Torpağı eyni vaxtda əldə edirdilər. Torpaq üzərində Hakimiyyət – Dinə, Din isə – Torpaq üzərində Hakimiyyətə dayaq olurdu. R.Qrussenin "çöl imperiyaları" adlandırdığı [5] səltənətlərin varisləri – türklər Avrasiyanın bu qaynar nöqtəsində – geopolitik maraqların daha sərt toqquşduğu məkanda bir-biri ilə etnik və siyasi mənada bağlı olan güclü dövlətlər yaradır və bu dövlətləri imperiya səviyyəsinə qaldırmağı bacarırdılar.

...

Türk-Monqol imperiyası Çingiz xanın öndərliyi ilə 1230-1255-ci illər arasında Koreya yarımadasından Aralıq dənizinə qədər, Uraldan Hind çayına qədər Avrasiyanın onlarla dövlətini, yüzlərlə xalqını öz içərisinə almışdı [10, s.156, 278-279; 5]. Təbii ki, VII əsrdən Yaxın Şərqdə hökmranlığı ələ keçirmiş Ərəb-islam xilafəti bununla barışmayacaqdı. Ancaq o, bu böyük qüvvəyə qarşı nə qədər müqavimət göstərsə də, önündə duruş gətirə bilmir. Ərəb tarixçiləri, salnaməçiləri türk-monqol hərbi yürüşlərini "o zamana qədər baş vermiş fəlakətlərin ən dəhşətlisi" kimi qələmə alırlar. Qəribədir ki, bu mənbələrə istinad edən Avropa müəllifləri də, demək olar ki, eyni qənaətlərə gəlir, "türklərin pis iqtisadiyyatının əvvəllər çox inkişaf etmiş olan İran və Mesopotamiya mədəniyyətlərini çox qüvvətli bir şəkildə zərərə uğratdığını", bu "kültür məmləkətlərinin türk hökmdarlarının əlində bir oyuncaq halına gəldiyini" yazırlar [3, s.198-199].Əlbəttə, Brokelman sonrakı qənaətlərində bununla ziddiyyət təşkil edən mövqeyini ortaya qoyur, türk siyasi dominantlığının bu epoxada artıq tənəzzülə meyllənməyə başlayan islamı xilas etdiyini, onun "sağ əlinə çevrildiyini" bildirir [(3, s.212-281]. Doğrudan da belədir. Türklərin hərbi-siyasi istedadı Asiya dövlətlərinin əksəriyyətini bir imperiya halına gətirsə də, reallıqda onların bir konfederasiyası şəklində mövcud olur. Türklər iranlı və mesopotamiyalıların mədəniyyəti ilə ayaqlaşan maddi-mənəvi mədəniyyətlərini və onlarınkından da üstün olan siyasi idarəetmə mədəniyyətlərini ortaya qoyurlar. Türklərin tolerantlığı onlara imkan verir ki, "türk və monqol dilləri genetik cəhətdən bağlılığa malik olmasa da", onlar mədəniyyətlərinin qarşılıqlı təması müstəvisində – konfederativ consensusda – uzun bir dövr ərzində imperiya hökmranlığını apara bilirlər [9, s.77-89]. Tarixçi və siyasətçilər indiyə qədər heyrətə gəlirlər ki, necə olub ki, hər birinin sayı təqribən 700 000 olan türklər və monqollar sayı onlarınkından qat-qat artıq olan, möhkəm dövlət əsaslarını yaratmış xalqlara qalib gələrək, onlar üzərində fövqəlhakimiyyətə yüksələ bilmişlər?! Bu sualın, yəqin ki, bir məntiqli cavabı var: yalnız türklərin doğma və əcnəbi uluslar arasında fövqəladə dərəcədə güclü konsolidasiya yaratmaq qabiliyyəti nəticəsində bu mümkün olub.

Fransız tarixçisi, Fransa Akademiyasının üzvü, Asiya tarixi üzrə dünya miqyasında məşhur əsərlərin müəllifi  R.Qrussenin şərhinə görə, Çingiz xanın Avrasiya fatehliyi ənənəsini davam etdirən Teymur Ləng "monqol deyil, türk idi" və imperiyası – Teymurilər və ya "Türk-Monqol xaqanlığı" da türk dövlətçiliyi gələnəkləri üzərində qərarlaşırdı: "Bu Xaqanlıq reallıqda bir Türk Konfederasiyası idi" [10, s.409]. – Teymurləngin imperiyası Mərkəzi Asiyada bir zamanlar böyük rol oynamış bir superetnosun yaratdığı bir birlik idi. R.Qrusse bizim üçün maraq kəsb edən bir məqama da toxunaraq göstərir ki, Əmir TeymurQafqaz yürüşündə Azərbaycana xüsusi önəm verir və bütün Qafqazı və İranı fəth etmək üçün bu ölkəyə çıxış nöqtəsi kimi baxır, "1386-1387-ci illərin qışında Azərbaycanın Qarabağ vilayətində qışlayır" və buradan

bütün istiqamətlər üzrə hərbi fəaliyyətləri davam etdirirdi [10, s.437]. XV əsrdə Teymurilər imperiyası getdikcə bir-birindən daha az asılı olan Xaqanlıqlar şəklində mövcud olur. Qızıl Ordanın timsalında bu imperiya Xəzər dənizi və Qara dənizin şimalında Litva və Moskvaya qədərki torpaqları tutaraq, Avrasiyanın yeni qüdrətli səltənətinə bünövrə qoyur. Slavyan, türk (onun tərkibində qıpçaq və bulqar qoluna mənsub olan etnoslar) və monqol xalqlarının konsolidasiyası Qızıl Orda imperiyası daxilində xeyli möhkəmlənir. Rusiya imperiyasının zühuru və Fransa inqilabı ərəfəsində (XVIII əsr) Çingiz və Teymur xaqan varislərinin bu regionda qurduğu səltənətlər parçalanıb xırdalanaraq tarix səhnəsində görünməz olur.

Dünyanın modernləşməyə qədərki siyasi tarixində türk köklü imperiyaların daim tərəqqiyə və təkmilləşməyə doğru təkamülü onları həmin tarixin yaradıcı qüvvəsinə çevirir. K.V.Findlinin fikrincə, “təqribən 1400 – 1800-cü illər arasında Asiyanın yerli (yəni Asiyaya sonradan ayaq açacaq Avropa imperializmindən fərqli olaraq) imperiyayaradıcı qüvvələri olan türklər” bu kontinentin inkişaf tarixində və dəyişən regionlarında bir neçə epoxal mərhələni adlayırlar: belə ki, onlar – həm ilkin Asiya dövlətlərinin sadə konsolidasiya quruluşunu, həm də islam dövlətlərinin dini-ideoloji və vergiyə əsaslanan mürəkkəb quruluşunu özlərində ehtiva etməyi bacarırlar; ən diqqətəlayiqi isə odur ki, onlar “çöl imperiyalarından” “kəndli imperiyalarına”, “kəndli imperiyalarından” isə “barıt imperiyalarına” çevrilə bilirlər. Yəni onların hərbi qüvvələri odlu silahla (barıt və artilleriya ilə) silahlanaraq, öz dövrünün daha müasir və təkmil arsenalına yiyələnə bilir. K.V.Findlinin paradoksal qənaətinə görə, hərbi texnologiya sahəsində bu inqilabi əhəmiyyət daşıyan dönüş – Amerika Birləşmiş Ştatlarının atomla silahlanaraq “güclü nüvə dövlətinə” çevrilməsi kimi bir prosesdir [9, s.93].

Dünya tarixi üzrə keçilən normativ dərsliklərdə [12] və müvafiq tədqiqat əsərlərində bu gün türk dünyasının qürur duyacağı bir xəritədən geniş istifadə edilir: Avropa, Asiya və Afrika kontinentlərinin bütün qədim sivilizasiyalarının yarandığı regionları çevrələyən və XV-XVI əsrlərdə dünya əhalisinin çox böyük hissəsinin yaşadığı üç əzəmətli Türk – Osmanlı (1299-1922), Səfəvi (1501-1736) və Böyük Moğol-Babur(1526-1857) imperiyaları bir-birinə söykənib. – Bu, Türk Fatehliyinin zəfər qazandığı və müasir türk dünyasının qlobal siyasi məkanda hansı tarixi potensiala malik olduğunu göstərən ən yüksək məqamdır. Amma həmin tarixi epoxanın real mənzərəsində mütləq toxunulan, hətta müəyyən məqsədlərlə qabardılan bir məqam da var: Osmanlı və Səfəvi imperiyalarının müharibələri və bundan yaxın-uzaq dövlətlərin sui-istifadə etməsi. Həmin dövrün tarixi-siyasi təhlili bu həqiqəti meydana çıxarır ki, oğuz boyundan törəmiş və XVI əsrin əvvəllərində dil və mədəniyyətləri arasında hələ heç bir fərq yaranmayan iki türk fövqəldövlətinin döyüş meydanlarında üz-üzə gəlməsi ən azı onların özlərini regional gərginliyin

episentrinə çevirmələri və yürütdükləri beynəlxalq siyasətin istiqamətini genişlənməyə deyil, daralmağa yönəltmələri baxımından reqressiv və uğursuz idi. İndi hamıya bəllidir ki, əgər onlar türk dünyasının daxili siyasətinin bütövlüyünü və təhlükəsizliyini nəzərə alsaydılar, bu nöqtədən beynəlxalq siyasətin tamamilə yeni bir tendensiyası – XIX əsrdən Avropa dominantlığına, deməli, dünya imperializminin Asiya xalqlarının əksəriyyətini müstəmləkəyə çevirməsinə imkan verilməyəcək bir xətti dərinləşə biləcəkdi. Fikrimizcə, məhz bu zirvə və dönüş məqamında həlledici addım atılmalı idi. Lakin orta əsrlərin feodal müharibələrinin "cadugər çevrəsindən" çıxa bilməyən siyasi-hərbi elitası bu perspektivi hələ seçib ayırd edə bilmirdi.

Ancaq bütün bunlara baxmayaraq, üç türk imperiyasının – Osmanlı, Səfəvi və Böyük Moğolların Asiya hökmranlığı dövrün tarazlı geopolitik strukturunun bərqərar olmasında böyük tarixi əhəmiyyət daşıyırdı. Böyük Moğollar Hindistan yarımadasından Uzaq Şərqi Asiyaya qədər uzanan regionun, xüsusilə Çinlə münasibətlərin, Səfəvilər islam Şərqinin, Osmanlılar isə Avropa və Afrika ilə münasibətlərin əsas istiqamətlərini müəyyən edirdi. Azərbaycan türklərinin Qafqaz və İran regionunda dominant siyasi qüvvəyə çevrilməsində və burada milli mənşəyə malik olan Azərbaycan dövlətinin (Azərbaycan Atabəylərinin, Qaraqoyunlu və Ağqoyunluların tarixi-siyasi nailiyyətləri üzərində) yaradılmasında Səfəvi imperiyasının həlledici rolu danılmazdır. Böyük Moğol imperiyasının yaradıcısı Babur (yeri gəlmişkən onun Səfəvi imperiyası ilə yaxşı əlaqələri vardı) ata tərəfdən Əmir Teymurun, ana tərəfdən Çingiz xanın törəməsi idi. Böyük Moğol hökmdarı Əkbərin (1556 – 1605) elan etdiyi "Din-i-İlahi" siyasəti çoxmillətli Hindistanda və bu səltənətə daxil olan digər bölgələrdə zəruri konsolidasiyanı uğurla təmin edirdi. Azərbaycanda Şah İsmayıl Xətainin islam ideologiyasına (konkret olaraq, şiə doktrinasına) əsaslanan mahiyyətcə milli siyasəti, Hindistanda Babur və Əkbərin dini universallıq siyasəti türk fütuhatının uzaqgörənliyi idi.

Akademik Rustan Rəhmanəliyev türklərin bu fatehliyini belə mənalandırır: "Türklər üç kontinentdə – Pekin, Dehli, İsfahan, Dəməşq Bağdad, Qahirə, Konstantinopol (İstanbul) və Əlcəzairdə hakimiyyət taclarını götürərək, əlbəttə, onları itirməmək üçün hərəkətə keçməli idilər. Qeyd etmək lazımdır ki, fəth edilmiş torpaqlarda, hər şeydən əvvəl, o zamanadək görünməmiş çiçəklənmə müşahidə olunurdu – elə Tabğaç hakimiyyəti altında olan Çindəki kimi, Səlcuq hakimiyyəti altında olan İrandakı kimi, Məmluk hakimiyyəti altında olan Misirdəki kimi, Böyük Moğol hakimiyyəti altında olan Hindistandakı kimi. O ki,qaldı Osmanlı imperiyasına, – o əvvəl islamın qılıncı, sonra isə qalxanı olan dünyanın əzəmətli türk hökmranlığı idi" [8, s.10]. Elə Səlcuq dövründən başlayaraq, bu imperiyanın qurucuları avropalıların Səlib (Xaç) yürüşlərinə qarşı əzmkarlıqla dayanırdılar. Geniş mənada davamlı xristian və islam müharibələrində islam ölkələrini xristian işğallarından qoruyan

məhz türklər idi. Katolik Papasının vəd və tələbləri ilə (əslində, hərbi-siyasi məqsədlərlə) Avropa ölkələrindən toplanmış, xristianların “müqəddəs torpaqlarına” 1095-1270-ci illər arasında 9 dəfə hücum çəkən döyüşçü-xaçlılar dönə-dönə islamın “türk sipərinə” dəyərək geri qayıdır, məğlub olurdular. Ona görə də türklər Səlib müharibələrini birbaşa təşviq və təşkil edən Bizans imperiyasını birdəfəlik çökdürmüşdülər: 29 may 1453-cü ildə Fateh Sultan Mehmetin başçılığı ilə Bizansın – Şərqi Roma imperiyasının paytaxtı Konstantinopol Osmanlı ordusu tərəfindən alınmışdı. Bununla da Xaçlıların davamlı basqınlarına son qoyulmuşdu. Bu zəfər – hun-türklərin Romanı almasından (453-cü il) düz min il sonra (1453-cü il) Osmanlı oğuz-türklərin həlledici qələbəsi, Avropaya qarşı türk öndərliyində Asiya qüdrətinin təsdiqi idi. Bundan sonra avropalıların bir məqsədi olacaqdı: Osmanlı imperiyasının Avropanın içərilərinə doğru böyüməsinin qarşısını almaq. Elə 1453 Zəfər İlində planetdə yaşayan türk xalqlarının ümumi sayı – dünya əhalisinin onda birini təşkil edirdi. Əhali potensialının bu şəkildə artması da türk nüfuzunun yüksəlməsinin, həmin potensialın dövlət və cəmiyyət quruculuğunda konsentrasiya olmasının mühüm amili idi.

Mövcud olduğu bütün zamanlarda islamın dayağı sayılan Osmanlı imperiyası Qanuni Sultan Süleyman dövründən həm də Xilafətin mərkəzinə çevrildi. Yer üzünün bütün müsəlmanları türk hökmdarı Qanuni Sultan Süleymanın Xəlifəliyini qəbul etdilər. O dövrün sənədlərində türk fatehliyi bu şəkildə öz əksini tapıb: “Bu zamandan etibarən, Süleyman bin Səlim xan bin Bayazid xan dinimizi uca mərtəbəyə qaldıraraq, bütün müsəlman ölkələrinə hökmranlıq edir. Heç şübhə yoxdur ki, o, belə bir ali vəkalətlə öz dövrünün sultanıdır... Ərəblərlə birgə bütün Ərəbistan, bütün türklər, kürdlər, farslar, ərəb İraqı, Bağdad, Diyar-Bəkr, bütün Qərb, Əngərüs onun əlindədir. Bütün müsəlmanlar onun rəhbərliyini qəbul edir, çünki o, həqiqətən də, Peyğəmbərin fateh Xəlifəsidir” [11, s.182].

Bu tarixi epoxada (XV – XVIII əsrlər) aralarındakı rəqabət məqamları ilə birlikdə, türk imperiyalarının dünyada formalaşdırdığı sosial-siyasi sistem beynəlxalq sistemin təşkiledici öncinahı idi. XVI əsrin əvvəllərində – Qanuni Sultan Süleymanın hakimiyyəti illərində Osmanlı imperiyası öz ərazisini bir neçə milyon kvadratkilometr artırmışdı [1, s.54]. Osmanlı imperiyası “bütün türk tarixində o ana qədər rast gəlinməyən bir qüdrətə yüksəlmişdi. Osmanlı dövləti iqtisadi və hərbi gücü baxımından – dəniz qüvvələri də daxil olmaqla – dünyanın bütün qalan dövlətlərinin birgə gücü səviyyəsinə yüksəlmişdi” [4, s.203]. Belə bir yüksəlişi müasir dövrümüzdə ABŞ-ın dünyadakı mövqe üstünləşməsi ilə müqayisə etmək olar.

Dünya tarixində yeniləşmə (modernləşmə) dövrünün başlaması ərəfəsində qüdrətli türk imperiyalarının çökməsi, milli dövlətlərə, hətta xanlıqlara parçalanması bir çox tarixi-siyasi səbəblərlə şərtlənir. Yəqin ki, bu

...
səbəblərin başında – həmin imperiyaların zamanın modernləşmə tələbləri ilə (halbuki onlar miladın ikinci minilliyinin başlanğıcından buna qadir olmuşdular) ayaqlaşa bilməmələri dayanır. Avropanı qüvvətləndirən amillər Asiyanı zəiflədən amillərlə tən gəlir. Avropa dövlətləri və cəmiyyətlərinin sosial, iqtisadi, siyasi və texnoloji həyatını inqilabi formada dəyişən mütərəqqi hərəkat və təşəbbüslər Asiya timsalında tətbiq edilmədi. Feodal üsul-idarəsinin, monarxiyanın saxlanılması türk imperiyalarında dövlətin dayaqlarının qorunması kimi başa düşülürdü. Hətta bu imperiyalar xırda dövlətlərə, xanlıqlara parçalananda da, monarxiya idarəçiliyi, sülalə hakimiyyəti toxunulmaz qalırdı. Bütün dövlət və cəmiyyətin qatı mühafizəkar bir sistemin caynağında qalması, təbii iki, onu labüd tənəzzülə doğru aparırdı. Vaxtilə böyük Mirzə Fətəli Axundzadə də bu amilləriislam Şərqi dövlətlərinin çökməsinin əsas səbəbi kimi anlatmışdı.

Yeniləşən Avropa ilə köhnəliyindən əl çəkməyən Asiyanın – Qərblə Şərqin uzun əsrləri əhatə edən rəqabəti, təbii ki, ikincinin məğlubiyyəti ilə nəticələndi. Qanunauyğundur ki, Asiyada üç böyük türk imperiyasının çökməsi Avropa imperiya dövlətlərinin güclənməsi ilə eyni vaxta düşür. Səfəvi imperiyası daxili çəkişmələr səbəbindən xanlıqlara parçalandı və rəsmən öz mövcudluğuna son qoydu. Bununla da 1828-ci ildə Azərbaycanın İran və Rusiya imperiyası arasında bölünməsinə şərait yarandı. Göründüyü kimi, bir imperiyanın parçalanması ilə onun “hissələrinin” başqa imperiyalar tərəfindən udulması çox yaxın tarixi zamanda baş verir.

Tədricən dəniz hökmranlığını ələ keçirən Böyük Britaniya imperiyasının qüvvələri 1764-cü ildə Hindistan yarımadasına soxularaq Baksar müharibəsində qalib gəldilər.Rusiya imperiyası Qafqazı və Orta Asiyanı istila etdikdən bir qədər sonra, 1858-ci ildə isə Böyük Britaniya imperiyası bütün Hindistanı zəbt etdi: Böyük Moğol imperiyasına da son qoyuldu. Yer üzündə türk dünyasının yalnız bir imperiyası, özü də içəridən laxlayan, əvvəlki cahanşümul iradəsini göstərə bilməyən bir imperiyası qalırdı – Osmanlı.

Osmanlı imperiyasının Avropadan çıxarılması prosesi Birinci Dünya müharibəsinin sonuna qədər davam edir: “Osmanlı imperiyasının zəifləməsi ilə Rusiya imperiyasının güclənməsi Avrasiyada qüvvələr balansını əhəmiyyətli dərəcədə dəyişir. Atlantik okeanına çıxışı olan Qərbi Avropa ölkələrində XV əsrdən başlamış ekspansiya sonrakı yüzilliklərdə böyük geopolitik nəticələrə gətirib çıxarır. Elm, texnika və kapitalistləşmə istiqamətində tərəqqi edən Avropa tədricən dünya imperializminin mərkəzinə çevrilir. Planetin qərb və şərq yarımkürələrində Avropanın imperiya müstəmləkələri yaranır. Napoleonun "Vahid Avropa" yaratmaq səyləri Qərb imperialist siyasətini Avropanı "yer kürəsinin hökmranı" etmək səylərinə stimullaşdırır... Fransa, Böyük Britaniya və Rusiya imperiyalarının qüvvətlənməsi sürəcində – XVII–XVIII əsrlərdən başlayaraq XX əsrin əvvəllərinədək – Şərq sivilizasiyasının son böyük

imperiyası – Osmanlı dövləti sahib olduğu torpaqları tamamilə əldən çıxarır, yalnız müasir Türkiyənin ərazisini xilas etmək mümkün olur” [2, s.48]. Bütövləşməyə doğru gedən Avropanın önündə parçalanmağa doğru gedən Asiyanın dirçəlməsi üçün hələ xeyli vaxt lazım gələcəkdi.

Lakin yenə də bu dönüş prosesinin dan ulduzunu ilk görən türk – Mustafa Kamal Atatürk oldu. O, zamanında dərk etdi ki, feodal monarxiyası üzərində qərar tutan bir imperiya nə qədər qüdrətli olursa-olsun, dünya dövlətlərinin yeni quruluş layihələrinə uyğun deyil. Buna görə də Birinci Dünya müharibəsində atatürkçülərin mücadiləsi – Osmanlı imperiyası xanədanlığını deyil, onun nüvəsini – Türkiyəni və türk millətini xilas etmək amalına bağlanmışdı. Dağılma prosesi hələ 1792-ci ildən başlayan Osmanlı imperiyasını nə qədər millətçilik, fatehlik şüarları ilə süsləsələr də, onun sökülən sütunlarının şaqqıltısı dünyanın hər yerindən eşidilirdi. 700 il davam edən bu ən uzunömürlü və son türk imperiyasının siyasi həyatı 1922-ci ildə başa çatdı: 29 oktyabr 1923-cü ildə türk dünyasının yeganə müstəqil dövləti – Türkiyə Cümhuriyyəti yarandı. Sovet İttifaqının mövcud olduğu 70 il ərzində olduğu kimi, XX əsrin sonlarında da türk respublikalarının suverenlik hərəkatına ümid çırağı yandıran və onların müstəqilliyini ilk tanıyan bu ulu türk dövləti oldu. Lakin hələ Birinci Dünya müharibəsində Böyük Britaniya, Fransa və Rusiyanın “Antanta” hərbi-siyasi blokuna qarşı ölüm-dirim savaşında Çanakqala zəfəri (1915-ci il) qazanmış, özləri nə qədər çətinlik içərisində olsalar da, Azərbaycan Demokratik Cümhuriyyətinin yardımına yetişmiş türklər dünya tarixində dönüş yaratmağı, yer üzündəki qardaşlarının birliyinə ən ağır günlərdə belə təməl qoymağı bacaran bir ulus olduqlarını sübut etdilər.

## ƏDƏBİYYAT

1. Musayev O., Osmanlı D., Cəfərov A. Osmanlı Sultanları. Bakı: Çaşıoğlu, 2008
2. Ulusel R. Qloballaşma və Türk Sivilizasiyası. Bakı: Çaşıoğlu, 2005
3. Brockelmann C. İslam Ulusları və Devletleri Tarihi. Türkceye çevirən N.Çağatay. Ankara: Türk Tarihi Kurumu Basımevi, 2002
4. Öztuna Y. Yavuz Sultan Selim. İstanbul: Babıali Kültür Yayıncılığı, 2006
5. ГруссеР. Чингисхан: ПокорительВселенной. М.: Молодая гвардия, 2008
6. Гумилев Л. Древние турки. История великого народа – от возникновения до гибели. М.: Астрель, 2010
7. Гумилев Л. История народа хунну. Хунны в Китае. Хунны в Азии и Европе. М.: Эксмо, 2008

8. Рахманалиев Р. Империя тюрков. Великая цивилизация. Тюркские народы в мировой истории с X в. до н.э. по XX в. н.э. М.: Рипол Классик, 2009
9. Findley C.V. The Turks in World History. Oxford University Press, 2005
10. Grousset R. The Empire of the Steppes. A History of Central Asia. Rutgers University Press, 2010
11. Özcan A. The Ottomans and the Caliphate // The Great Ottoman-Turkish Civilization. In 3 volumes, v.III. Ankara: Yeni Türkiye, 2000, pp.181-191
12. World History. Combined Edition. J. Upshur, J. Terry, J.Holoka, R.Goff, B.Lowry, USA: West Publishing Company, St. Paul, New York, Los Angeles, San Francisco, 1991

**UOT 39**

# MÜASİR AİLƏ-MƏİŞƏT MÜNASİBƏTLƏRİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

(Şirvan bölgəsinin materialları əsasında)

***Nailə H. Ciddi***
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu*
*naile.ciddi@yandex.ru*

**Açar sözlər:** *Şirvan, ailə, nikah, böyük ailə, kiçik ailə*

*Məqalə Şirvan bölgəsinin müasir ailə-məişət münasibətlərinin tədqiqinə həsr olunub. Bəhs edilən bölgədə ədəbiyyat və çöl etnoqrafik materiallarının köməyi ilə ailənin formaları, nikaha girmə qaydaları, ailənin strukturu və s. məsələlər təhlil olunur. Bundan başqa, məqalədə ailə-məişət münasibətlərində nəzərə çarpan ənənəviliklə müasirliyin vəhdəti, qadınların müasir ailədə statusu, valideyn-övlad və ər-arvad münasibətlərinin müasir vəziyyəti ilə bağlı problemin bəzi aspektlərinə də toxunulur.*

## О НЕКОТОРЫХ АСПЕКТАХ СОВРЕМЕННЫХ СЕМЕЙНО-БЫТОВЫХ ОТНОШЕНИЯХ

(по материалам Ширванского региона)

***Наиля Г. Джидди***

**Ключевые слова:** *Ширван, семья, быт, бракосочетания, большая и малая семья*

*Статья посвящена исследованию современных семейно-бытовых отношений. С привлечением письменных источников и полевого этнографического материала анализированы формы семьи, методы заключения браков структура семьи и т. д. В статье затронуты некоторые аспекты традиционных и современных семейно-бытовых отношений. Отношения супругов, статус женщины в современной семье и родительские отношения.*

## ON SOME ISSUES OF CONTEMPORARY FAMILY RELATIONS
(based on materials of Shirvan Region)

***Naila H. Jiddi***

**Key words:** *Shirvan, family, marriage, extended family, nuclear family*

*The article is dedicated to the study of contemporary family relations in the Shirvan region. Forms of family, rules of marriage, family structure, and so on issues have been analyzed in this article with the aid of scientific literature and ethnographic materials in the mentioned area. In addition, some aspects of the problems which is related to the unity of modernity and tradition which is noticed in family-household relations, the status of women in the modern family, the current state of parent-child and spouse relations are mentioned in this article.*

Məlum olduğu kimi, ailə bəşər cəmiyyətinin ilkin özəklərindən birini təşkil edir. Ailələr nikah münasibətləri əsasında və qan qohumluğu prinsipi əsasında formalaşmaqla, qarşılıqlı cavabdehlik, məsuliyyət hissi və qarşılıqlı köməklik münasibətlərini özündə birləşdirir [1, s.297].

Azərbaycan ərazisində eneolit dövründən yaranmağa başlayan ailə-məişət münasibətləri müasir dövrümüzə qədər uzun bir inkişaf yolu keçmişdir. Bu haqda orta əsrlərə aid qaynaqlarda və XIX-XX əsrlərdə yazılmış mənbə və ədəbiyyatda kifayət qədər məlumatlar vardır [2; 3; 4; 5].

İndiyə qədər aparılan etnoqrafik tədqiqatlar zamanı ailənin quruluşu, tərkibi, ailədaxili münasibətlər, kəbin və toyla bağlı adətlər, ənənələr, qarışıq nikahlar və s. bu kimi məsələlər araşdırılmış, ailənin formaları, strukturu, ailə məişətində adət-ənənələrin yaşama səbəbləri və yeni elementlərin formalaşması, bu prosesin inkişafına təsir göstərən sosial-iqtisadi amillər hərtərəfli təhlil edilmişdir. Həmin məlumatlardan aydın olur ki, bütün Azərbaycanda olduğu kimi, XX əsrin 20-ci illərinədək Şirvan bölgəsində də ailənin iki əsas forması – böyük və kiçik ailələr mövcud olmuşdur. Universal tarixi hadisə kimi qavranılan böyük ailələr tarixi ədəbiyyatda qəbilə ailəsi, bölünməyən, mürəkkəb, birləşmiş ailə, qarışıq, toplu ailə, ailə icması, ev icması kimi müxtəlif adlarla məlumdur. Azərbaycanın ayrı-ayrı bölgələrində isə ona yerli şəraitə uyğun "külfətli ailə", "bir çətən", "böyük ailə", "güclü ailə", "bərəkətli ailə", "ağır külfət", "kələ külfət", "yola xızon" və s. cür adlandırılırdı. Şamaxıda ona "qada" və ya "lələ" deyilmişdir [7, s.8].

Böyük ailələrin meydana gəlməsi və mövcudluğu istehsal münasibətlərinin inkişaf dərəcəsi və cəmiyyətin quruluşu ilə izah olunur. Aparılan

etnoqrafik araşdırmalar sübut etmişdir ki, əksər dünya xalqlarında, o cümlədən azərbaycanlılarda böyük ailələr əsasən iki yolla - böyük ailələrin nisbətən kiçik ailələrə parçalanması və kiçik monoqam ailələrin böyük ailələrə çevrilməsi nəticəsində yaranmışdır. Lakin hər iki halda böyük ailələrin iqtisadi əsasını kollektiv istehsal və mənimsəmə təşkil edirdi [7, s.7]. Böyük ailələr və xüsusilə onlardan ayrılmış kiçik ailələr məhəlli və ya patronomik prinsiplər əsasında formalaşırdı.

XIX əsr mənbələrinin təhlili göstərir ki, Şirvan əyalətində vahid təsərrüfata malik olan bir sıra böyük ailələr var idi. Təkcə Göyçay qəzasının Ximran kəndində 639 nəfəri birləşdirən 33 ailənin yaşadığı xəbər verilir. Burada da orta hesabla hər bir ailəyə 19 nəfərin düşdüyünü görürük ki, bu da böyük ailələrin mövcudluğunu sübut edir [6, s.6].

Şamaxı və ətraf kəndlərində də ən azı 15-20 nəfəri birləşdirən, 3 nəsli əhatə edən böyük ailələr mövcud olmuşdur. Belə ailələr valideynləri, oğulları, qızları və nəvə-nəticələri əhatə edirdi. Yaş və cinsi mənsubiyyətlərindən asılı olaraq ailə üzvləri arasında əmək bölgüsü aparılırdı. Kişilər adətən əkinçilik və maldarlıq, qadınlar isə ev təsərrüfatı ilə məşğul olurdular. Ailə mülkiyyəti (torpaq sahələri, mal-qara və s.) əmlak nəsildən-nəslə keçir, mübahisəli məsələlər adi hüquq normaları və şəriət əsasında həll olunurdu.

Patriarxal icma quruluşunun məhsulu olan böyük ailələrin Azərbaycanda tənəzzülə uğraması XIX əsrin ikinci yarısına aid edilir ki, bu da ilk növbədə kapitalist münasibətlərinin inkişafı, əmtəə istehsalı və xüsusi mülkiyyət meyllərinin güclənməsi ilə bağlı idi. Lakin bu, heç də böyük ailələrin tamamilə aradan çıxması demək deyildi. Çünki etnoqrafik və tarixi materialların təhlili göstərir ki, böyük patriarxal ailələr XX əsrin əvvəllərinə, hətta sonrakı dövrlərdə də mövcud idi. Bunun da əsas səbəbi natural təsərrüfatın davam etməsi, qapalı həyat tərzi, istehsal münasibətlərinin aşağı səviyyəsi, torpaqdan icmalıqla istifadə qaydaları və s. idi.

XX əsrin əvvəllərindən başlayaraq isə bütün sahələrdə olduğu kimi, azərbaycanlıların ailə-nikah münasibətlərində də nəzərə çarpacaq dəyişikliklər baş verdi: qanunvericilik aktları ilə nikaha daxil olanların hüquq bərabərliyi yarandı, təkkəbinlilik əsas nikah formasına çevrildi; nikahın şəriət yolu ilə kəsilməsi etibarsız elan edilməklə, azyaşlı qızların ərə verilməsi, qızların zorla qaçırılması, çoxarvadlılıq və siqə nikah adədləri məişətdən çıxmağa başladı; çadranın ləğv edilməsi və savadsızlığın əsas şərti oldu və bu qadının ictimai həyata cəlb olunması ilə möhkəmləndi [4, s.338].

1991-ci ildən, yəni Azərbaycan yenidən öz dövlət müstəqilliyinə qovuşduqdan sonra ölkənin hər yerində olduğu kimi, Şamaxıda da ailə və ailə məişətində mütərəqqi dəyişikliklər baş verdi və həmin dəyişikliklər bütövlükdə ailədaxili münasibətləri, ailə məişətini, ailənin mədəni həyatın və s. istiqamətləri əhatə etdi.

Hazırda Şirvan bölgəsində ailənin əsas formasını ər-arvad və onların uşaqlarından ibarət kiçik - nuklear ailələr və ya iki nəsilli ailələr təşkil edir. Üç nəsilli ailələr ata-ana, oğul və onun uşaqlarından ibarət olur. Bəzi hallarda iki evli oğulun valideynlərlə bir mənzildə müvəqqəti yaşamasına da təsadüf olunur. Bu zaman oğullardan biri müstəqil təsərrüfat vahidi kimi qalır. Etnoqrafik tədqiqatlar zamanı tərəfimizdən Şamaxıda dörd nəsilli 12 ailə qeydə alınmışdır.

Bununla belə, sorğulardan məlum olur ki, müasir dövrdə ailə quran gənclər valideynlərindən ayrı yaşamağa daha çox meyl edirlər. Bunun səbəbləri isə ilk növbədə sosial-iqtisadi amillərlə bağlıdır.

Say etibarilə 3-4 uşaqlı ailələr nisbi çoxluq təşkil edir. Sonrakı yerlərdə iki, beş, bir və s. saylı uşaqlı ailələr gəlir. Ailələrdə uşaqların sayının getdikcə azalması isə ilk növbədə qadınların ictimai əməyə daha çox qatılması və artıq qeyd olunduğu kimi, sosial-iqtisadi amillərlə bağlıdır.

2003-cü ildə Şamaxıda cəmi 79 nəfər uşaqsız ailə qeydə alınmış və həmin ailələrin evlilik müddəti 3-16 il arasında olmuşdur. Uşaqsız ailələrdə övladlığa uşaq götürülməsi hallarına isə demək olar ki, təsadüf edilməmişdir. Çünki bu, həm ailələrin özləri tərəfindən, həm də ictimai fikirdə rəğbətlə qarşılanmır. Hətta bu barədə maraqlı bir atalar sözü də məlumdur: "Yad balasından ocaq yandıran olmaz".

Etnoqrafik tədqiqatlar göstərir ki, bir-üç saylı uşaqlı ailələrə daha çox ziyalılar arasında təsadüf olunur. Belə ailələrdə beşdən yuxarı uşaqlara çox nadir hallarda rast gəlinir.

Ailənin strukturu və say tərkibi tədqiq edilərkən, ailədaxili münasibətlər də diqqətdən kənarda qala bilməz. Xatırladaq ki, ailədə ər-arvad münasibətlərinin, ailə başçısı məsələsinin və valideyn-uşaq münasibətlərinin əsasını tarixən əmlak, xüsusi mülkiyyət və bundan doğan hüquqi münasibətlər, həmçinin ailədaxili münasibətlərdə dəyişikliyə daha az məruz qalmış dünyabaxış təşkil etmişdir. Qeyd olunan şərtlərin ailədaxili münasibətlərə birbaşa təsirini həmin sahələrin klassik tədqiqatçıları vaxtilə öz əsərlərində hərtərəfli şərh etmişlər.

Məlum olduğu kimi, uzaq keçmişdən bu günə qədər Azərbaycanda ailənin başçısı kişi sayılmışdır. Bütün təsərrüfat və ailənin mülkiyyəti ona tabe olmuşdur. Bununla belə, oğul evləndirmə, qız köçürmə və s. bu kimi mühüm ailə tədbirlərində hökmən qadının, ailənin digər üzvlərinin, həmçinin yaxın qohum-əqrabanın məsləhətləri nəzərə alınmışdır.

Ailədaxili münasibətlər çərçivəsində bir sıra davranış formaları, etiket-davranış normaları, xüsusilə də yaşınma adəti yaranıb formalaşmışdır ki, onların da bir çoxu günümüzə qədər gəlib çatmışdır. Bu cəhətdən Şirvan bölgəsi, xüsusilə də onun uzaq dağ kəndlərinin maraqlı deyimləri olub. Məsələn, kişi öz arvadmı çox vaxt adı ilə deyil, "ay qız", "ay arvad" və s. ifadələrlə çağırardı.

Kənar adamların yanında kişi arvadının adını çəkməz, onu “uşaqların anası”, “əhli-əyal”, “arvad-uşaq” və s. adlarla təqdim edir. Çünki tarixən formalaşmış adət-ənənəyə görə, arvadın, qızın adını yad adam yanında çəkmək qəbahət sayılardı. Kənar adamların, o cümlədən ərin kişi qohumlarının yanında qadının üzünü örtməsi, yəni yaşınması da bu qəbildəndir.

Aparılan etnoqrafik müşahidələr göstərir ki, hazırda bölgədə kişinin ailəyə başçılığı daha çox təcrübə və ənənələrə uyğun böyüyə hörmət ruhunda qurulmaqdadır. Bununla belə, kişilərin üstün mövqeyi qalmaqda davam edir. Məsələn, bölgədə aparılan sorğular zamanı ailələrin təqribən 90%-də ailənin başçısı kişi, 7-8%-də həm kişi, həm də qadın, 2-3%-də isə qadınların olduğu müəyyən edilmişdir. Lakin əvvəlki dövrlərdən fərqli olaraq bu hal, patriarxal münasibətlərin, iqtisadi amillərin göstəricisi olmayıb, qarşılıqlı hörmət və milli adətlərimizin qanunauyğun yekunu kimi ortaya çıxır. Yəni, müasir Azərbaycan ailəsində qadın hüquqsuzluğundan danışmaq sadəcə mümkün deyil. Çünki hazırda bir çox ailələrin büdcəsi demək olar ki, evin qadının sərəncamındadır; kişi ilə bərabər o, həmin büdcədən istədiyi kimi ailənin məsrəflərinə xərcləyir. Bu isə ailədə qadının rolunun və nüfuzunun artdığını sübut edən əsas göstəricilərdən biridir. Ailəyə aid olan bütün məsələlərdə evin xanımı ilə hökmən məsləhətləşilir, ailənin bütün məxariclərində onun rəyi nəzərə alınır. Bundan başqa, hazırda bütün ailələrdə ər və arvad bir-birinə adları ilə müraciət edirlər.

Lakin etnoqrafik müşahidələr onu da göstərir ki, hələ də ev işlərinin əsas ağırlığı, o cümlədən uşaqların tərbiyəsi, ev təsərrüfatının idarə olunması və s. qadınların üzərinə düşür. Bir çox hallarda kişilər bu və ya digər işi “qadın işi” hesab edərək, onları görməkdən boyun qaçırırlar. Bununla belə, bir çox ailələrdə, xüsusən də ziyalı ailələrində ər, o cümlədən, ailənin oğlan uşaqları ev işlərində və uşaqların tərbiyəsində evin qadınına kömək edirlər.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, ölkəmizin hər yerində olduğu kimi, Şirvanda da ailədaxili münasibətlərin əsasını səmimiyyət, qarşılıqlı anlaşma və mehribançılıq təşkil edir. Valideynlər, övladlarına qız, yaxud oğlan, böyük və ya kiçik olmasından asılı olmayaraq, eyni səmimi valideyn münasibəti göstərirlər. Müstəqil ailə həyatı quran övladlarla valideynlər arasında səmimi qarşılıqlı hörmət prinsipləri hökm sürür. Ailə həyatı quran oğul lazım gəldikdə valideynlərinə bu və ya digər formada yardım göstərir, tez-tez onlara baş çəkir və qayğıları ilə maraqlanır.

Əgər keçmişdə qız ərə getdikdən sonra, ailəsi və valideynləri ilə əlaqəsi demək olar ki, kəsilir və ya zəifləyirdisə, hazırda bu cəhət aradan çıxmışdır. Gəlin köçmüş qız tez-tez əri və uşaqları ilə valideynlərlə əlaqə saxlayır.

Keçmiş ailə-məişət adətlərinə görə, kürəkən toy gününə qədər nəinki qızla görüşə bilməzdi, hətta qəbul olunmuş adətlərə görə, qızın valideynlərilə görüşdən də çəkinərdi (qeyd etmək lazımdır ki, indi də Şirvanın bəzi kəndlərində belə

hallara təsadüf olunur). Lakin hazırda həmin adətlər aradan qalxmışdır. Yəni, evlənməmişdən qabaq bir-birini daha yaxşı tanımaq məqsədilə oğlanlar və qızlar görüşürlər. Ümumiyyətlə, müasir dövrdə mühafizəkar qohumluq əlaqələri müəyyən mənada zəifləmiş və yeni məna və mahiyyət kəsb etməkdədir.

Keçmişdə əmlak hüququ ailədaxili və qohumluq münasibətlərini tənzimləyən əsas göstərici idi. Burada xüsusi çərçivəyə salınmış müəyyən adətlər və şəriət qaydaları həlledici rol oynayırdı. Həmin adətlərə görə, ailə üzvlərinin hamısı bərabər əmlak hüququna malik deyildi. Oğlan uşaqlarına, xüsusilə də, böyük oğula varislik prinsipinə əsasən daha çox əmlak payı çatırdı [7, s.9].

Müasir iqtisadi şəraitdə isə ailə üzvlərinin əmlak hüquqları adətlərlə bərabər, qanunvericilik aktları əsasında nizama salınır. Etnoqrafik müşahidələr göstərir ki, valideynlər oğul evlənidirərkən və qız köçürərkən onlara zəruri olan məişət əşyalarını cehiz şəklində hədiyyə edir. Yeni ailə quran gənclərə onların yaxın qohumları, dostları və iş yoldaşları tərəfindən maddi yardım göstərilməsi halları da müşahidə olunmaqdadır.

Ailənin bütün əmlakı ailə üzvlərinin mülkiyyəti hesab edilir. Kişi vəfat edərkən həmin əmlak üzərində mülkiyyət hüququ digər ailə üzvlərinə - mərhumun uşaqlarına, digər hallarda arvadına çatır. Bütün bunlar qanunvericilik aktlarına və Azərbaycan Respublikasının yeni “Ailə məcəlləsi”nin müvafiq müddəalarına uyğun həyata keçirilir. Elə bu səbəbdən də ailə əmlakının bölgüsü zamanı mübahisələr nadir hallarda baş verir [7, s.9].

Bundan əlavə, qadınlara münasibətin kökündən dəyişməsi və “ailə başçısı” statusunun tamamilə yeni məna və məzmun kəsb etməsi ailənin formalaşmasında və demoqrafik göstəricilərin inkişafında ən mühüm amillərdən biri kimi çıxış edir.

Müasir dövrdə qadınların ailədə və cəmiyyətdə ictimai fəallığı durmadan artır. Onlar sosial-iqtisadi həyatda və təsərrüfat quruculuğu sahəsində yaxından iştirak edirlər. Təkcə onu demək kifayətdir ki, bu gün Şirvan qadınlarının böyük əksəriyyəti ictimai işlərdə və dövlət qulluğu sahələrində çalışırlar. Orta məktəblərdə, ayrı-ayrı mədəni-maarif və tərbiyə müəssisələrində çalışanların əksəriyyəti qadınlardan ibarətdir. Qadınlar uşaqların təlim-tərbiyəsində, yeni nəslin həyata hazırlanmasında da ciddi fəallıq nümayiş etdirirlər.

Ümumiyyətlə, ədəbiyyat və çöl-etnoqrafik materiallarının təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, bu gün Azərbaycanın hər bir bölgəsində olduğu kimi, Şirvanda da ailə-məişət münasibətləri əsrlərin dərinliklərindən süzülüb gələn sağlam adət-ənənələrlə bərabər, müstəqil dövlətimizin ailə məcəlləsinin müddəaları, eləcə də ailə mülkiyyəti məsələlərini və ailə üzvlərinin hüquq və vəzifələrini tənzimləyən qanunvericilik aktları ilə tənzimlənir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Etnoqrafiyası (3 cilddə), II c. Bakı: Şərq-Qərb, 2007.
2. Kitabi-Dədə Qorqud. Bakı: Azərnəşr, 1962.
3. Tusi N. Əxlaqi-nasiri. Bakı: Elm, 1989.
4. Qeybullayev Q.Ə. Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri). I və II hissələr. Bakı: Elm, 1994.
5. Керимов Э. Очерки этнографии Азербайджана и русско-азербайджанской этнографической связи. Б., Элм, 1985.
6. Quliyev H.A. Məişətimizdə adət və ənənələr. Bakı: Azərnəşr, 1976.
7. Quliyev H.A. Azərbaycanda ailə məişətinin bəzi məsələləri. Bakı: Elm, 1986.

**UOT 32**

# AZƏRBAYCANDA SEPARATİZMƏ VƏ TERRORA QARŞI MÜBARİZƏNİN MƏRHƏLƏLƏRİ (1813 - 1920)

***Elçin Cabbarov***
***AR Prezidentinin İşlər İdarəsi***
*veledoqlu.e@gmail.com*

Birinci məqalə

**Açar sözlər:** *terror, «yumşaq qüvvə», «sərt qüvvə», traybalizm, probabilizm, ermənilik*

*Məqalədə Azərbaycan xalqının öz müqəddəratı uğrunda mübarizə apardığı dövrdə cərəyan edən ictimai-siyasi-hərbi işlərin fonunda erməni etnik terrorunun bəzi xarakterik xüsusiyyətləri tədqiq edilir, regionda sovetlər hakimiyyətə gələnədək həmin terrorun və ona qarşı mübarizənin mərhələləri sistemləşdirilir. Erməniçi tərəfin o illərdə həm rusofob, həm də rusofil mövqedə durmasının seperatizm və terrora qarşı mübarizədə Azərbaycana yaratdığı ictimai-siyasi maneələrin xarakteri araşdırılır.*

# ЭТАПЫ БОРЬБЫ ПРОТИВ СЕПАРАТИЗМА И ТЕРРОРА В АЗЕРБАЙДЖАНЕ (1813 – 1920)

***Элчин Джаббаров***

Перваястатья

**Ключевые слова:** *террор, «мягкая сила», «жесткая сила», трайбализм, пробабилизм, армянства.*

*В статье рассматриваются некоторые характерные черты армянского этнического террора и сеператизма, нафонесоциально-политических и военных дел в период борьбыАзербайджана за самоопределение. В этотпериодармянскаясторонназанимала одновременнои русофилсческие, и русофобские позиции. Это создало существенные общественно-политические препятствия в борьбе с сеператизмом и террором в Азербайджане. Исследуется характер барьеров, созданных армянской стороной в те годы, систематизируются этапы этой борьбы.*

# STAGES OF THE STRUGGLE AGAINST SEPARATISM AND TERRORISM IN AZERBAIJAN (1813 - 1920)

***Elchin Jabbarov***

First article

**Key words:** *terror, «soft power»,«hard power», tribalism, probabilism, the armenianism*

*The publication discusses some of the characteristics of Armenian ethnic terrorism and separatism, against the background of socio-political and military affairs during the struggle of Azerbaijan for self-determination. During this period, the Armenian side simultaneously both Russophilic and Russophobic positions at the same time. This created significant social and political obstacles in the fight against separatism and terror in Azerbaijan. The nature of the barriers created by the Armenian side in those years is investigated, the stages of this struggle are systematized.*

Azərbaycan xalqının müstəmləkə zülmündən azad olub, öz müqəddəratını təyin etmək yolunda apardığı mübarizə onun separatizm və terrora qarşı mücadilə tarixi ilə sıx bağlıdır. Separatizm və terror problemi Cənubi Qafqaz regionunda hərbi-siyasi qüvvələr nisbətinin kəskin dəyişdiyi XVII əsrin ortalarından XVIII əsrin axırlarına doğru uzandıqca daha da sərtləşmişdir;XIX əsrdə«erməni amili»ninçar Rusiyasının cənub-şərq geosiyasətində hərbi-strateji əhəmiyyət qazanması iləregionda separatizm və terrora bağlı problemlərdə yeni etnik-dini iz qabarmağa başlamışdır.[1]

Azərbaycana qarşı erməni terror təhdidlərinin hazırlığınınilk sistemli əlamətlərinə XVII əsrdən rast gəlinir. Hazırlıq işlərinin ideya mənbəyi və kordinatorluğu din üzərindən aparılırdı [**2**].Əvvəlki illərdən başlayaraq katolik missionerlərin ermənilərin yaşadıqları ərazilərə ayaq açmaları, onları Roma Papasının təsiri altına salmaq planları xristian Avropası tərəfindən qəyyumluq tədbirləri ilə dəstəklənirdi. Dövrün nüfuzlu dövlət başçıları hətta İran şahına və

[1] ***«Biz (gənc türklər adından xitab edir. – E.C.), qəti əminik ki, türk – erməni düşmənçiliyinin məsuliyyəti Rusiyanın (çar Rusiyasını nəzərdə tutur. – E.C.) siyasətinin üzərinə düşür. Altmış il bundan əvvəl, daha dəqiq desək, 1877 – 78-ci il rus – türk müharibəsinin başlamasından on il əvvəl bu iki xalq arasında dini məzmunda hər hansı qarşıdurma haqqında söhbət belə yox idi.»[1].***

Osmanlı sultanına qayğılı məktublar yazaraq, ermənilərin Avropa dövlətləri tərəfindən himayəyə götürüldüyünə işarə edirdilər. Beləliklə, qriqoryan kilsəsinin dəstəyi və İsrail Orinin separatçı-yalvarıcı fəaliyyəti ilə regionda erməni amili ciddiləşdirilməyə başlanılmışdı **[3]**. Region üzrə strateji tərəf-daşınmüəyyən ləşdirilməsində dini mənsubiyyətdən əlavə, erməni etnopsixologiyasındakı traybalizm və probabilizm elementləri, siyasi müştəri olmaq xarakteri dəAvropa və latın şərqinin strateji tərəfdaş seçimində qərar qəbul etməsində mühüm rol oynamışdır [**4**].

1813 və 1828-ci illərin Gülüstan və Türkmənçay müqavilələrindən sonra Rusiya İmperiyasının cənub hüdudlarına yaxın xarici regionlarda yaşayan ermənilərin Azərbaycan, Gürcüstan ərazilərində yerləşdirilməsi və onların toplum halında məskunlaşması üçün çar dəftərxanası xüsusi qayğı göstərməyə başlamışdı. Digər tərəfdən, rus çarının Qafqaz siyasəti və Xəzər dənizinə sahib olmaq ehtirası Rusiya – İran, Rusiya – Türkiyə, Rusiya – İngiltərə münasibətlərində ictimai-siyasi rəqabətivə hərb sindromunu daha da gücləndirmişdi. Bu kontekstdə o da aydın olur ki, erməni xarakterindəki etnopsixoloji elementlərcəmiyyətətəhdid formatlarına da müəyyən "yeniliklər" gətirə bilmişdir.

Köçürülən xristian ermənilərin hesabına regionda əhalinin demoqrafik - dini tərkibi xeyli dəyişmişdir. Gəlmələrin arasına qanun-qaydalara tabe olmayan ünsürlərin də sızması region üçün əlavə problem yaratmışdı. Bu amil Azərbaycan coğrafiyasının kriminogen mühitinə mənfi təsir göstərmişdi. Yerli idarəçilik orqanlarının gəlmələrə münasibətdə loyal davranışları və dövlətin onlara maliyyə güzəştləri və digər sosial imtiyazlar yaratması gəlmə kasıb əhali arasından çox sürətlə yeni etnik burjua təbəqəsinin yaranmasına əlverişli dəstək olmuşdur. Avropadan Rusiyaya, oradan da Qafqaza ayaq açan ictimai-siyasi düşüncələr, yəhudiliyin öz dövlətlərini qurmaq ehtirası, balkanlarda sürətlə leqallaşan milli muxtariyyətarzuları qriqoryan kilsəsinə və etnik ermənilərə təsirsiz qalmırdı.Beləliklə, gəlmələrin düşüncəsində mərkəzdən qaçma qənaətləri də baş qaldırırdı. Belə bir mühit imperiyanın mərkəzi hissələrində ictimai-siyasianarxiyanı genişləndirirdi, ucqarlarda isə quldurluq, yolkəsənlik, etnik-dini zəmində münaqişələrə müxtəlif səbəblər yaradırdı. İctimai-siyasi situasiyaya daha operativ uyğunlaşan ermənilik etnik separatizmi təşkilatlandır məqsədinə başlamış, gizli partiyalar və onların hərbiləşmiş qolunu yaradaraq silahlı hədə və hücumların tətbiqinə rəvac vermişdir[**5**]. Paralel olaraq nəşriyyat-çap işini də genişləndirərək beynəlxalq miqyasda xüsusi etnik-dini mənsubluq– ermənilik fikrinin remissiyasına başlanılmışdır. Gedişatilk olaraq terrorun oxşarları üçün xeyli səbəblər yaratmışdı. Terrorun oxşarlarının ölkədaxili ictimai-siyasi vəziyyətə, hətta monarxiyanın əsaslarına təsir göstərmək potensialını anlayan ermənilik öncəliklə Azərbaycan ictimai-siyasi mühitində hegemonluğa nail olmaq üçün terrorun oxşarlar sisteminə aid

üsulların tətbiqini genişləndirmiş, bunu həm özünü müdafiə, həm də hakim dairəyə təsir göstərərək öz iradələrinə uyğun qərarlar qazanmağa təbliğ-təşviq istiqamətində realizə etməyə başlamışdır.Durum erməniçi ictimaiyyətdə həm ruspərəst, həm də rusa nifrət fikirlərini yaratmışdı. Buna görə də erməni təhdidlərinin mahiyyəti tədricən etnik-dini istiqamətdə möhkəmlənməyə meyllənmişdir. Beləliklə, terrorun oxşarlarından qazanılan təcrübədən bu üsulundaha böyük potensiala malik olması diqqəti cəlb etməyə başlamışdır. Cənubi Qafqaza istiqamətlənmiş beynəlxalq geostrateji siyasət də bunları dərk edərək, Azərbaycan coğrafiyasında antirus və antitürk fəaliyyətinidaha çox erməni terroru ilə həyata keçirməyin münasibliyini qətiləşdirmişdir. Bu problemin ilk əlaməti odur ki, erməniliyinideya-siyasi mahiyyəti “böyük Ermənistan” uğrunda kökləndikdən sonra, bu yolda heç bir dəhşətli üsuldan çəkinməmək, qəddarlığa haqq qazandırmaq üçün patoloji sinizmlətürkfobivə antimüsəlman təbliğatı genişləndirilmişdir. Beləliklə də, müsəlman və türklərin xeyli üstünlük təşkil etdikləri regiona – Azərbaycana qarşı erməni separatizmi və terroru totallaşaraqözünü ifadəyə başlamışdır[**6**].

Ümumiyyətlə, Azərbaycan xalqının öz müqəddəratını həll etmək yolunda qarşılaşdığı çətinliklər və onlara qarşı mübarizə, əsasən, iki kompleks formatda özünü büruzə vermişdir:

***a.*** “YUMŞAQ QÜVVƏ”;***b***. “SƏRT QÜVVƏ”.

Azərbaycan bu terror üsullarına qarşı bir neçə mərhələdə və adekvat üsullarla mübarizə aparmışdır.

Onun mücadilə tarixi qətiliklə göstərir ki, Azərbaycana qarşı tətbiq olunan erməni terroru əvvəlcədən planlaşdırılmış və strateji xarakter daşımışdır. Bu nəzər nöqtəsiniregionun digər tərəfi: gürcü – erməni münasibətlərinin də azərbaycanlı – erməni münasibətlərinin ssenarisi ilə cərəyan etməsi faktı təsdiq edə bilər: erməni siyasi elitası Gürcüstana qarşı da yuxarıda qeyd edilən kompleks formatda fəaliyyətdə olmuşdur: öncə yumşaq qüvvənin elementləri ilə qəddar, eqoist, antidemokratik Gürcüstan obrazı yaradılmış, çıxılmaz vəziyyətə düşmüş ermənilərə heç bir kömək göstərməyən din qardaşı gürcünün insanlıqdan və Xristianlıqdan kənar siması portretləşdirilmiş, beləliklə, silah gücünə, o cümlədən terror ilə erməni həyatını yaxşılaşdırmaq variantına erməni ədalətinin təntənəsi məntiqi aşılanmışdır [7].

Digər tərəfdən, erməniçi qüvvələrin Azərbaycanla yanaşı, Gürcüstana qarşı da ictimai-siyasi təhdidlərini paralel olaraq həm yumşaq, həm də sərt güc terroru iləaparması göstərir ki, erməni terroru özünümüdafiə düşüncəsinin məhsulu deyil, bu üsul hərtərəfli işlənib hazırlanmış və yaxşı təşkilatlanmış bir mərkəzdən idarə edilməklə, strateji maraqlara xidmət göstərən vəhşətli əməlolmuşdur. Bunun reallaşdırılması üçün Azərbaycana qarşı təhdidlər türkfobi və islamofobi fonunda, Gürcüstana qarşı isə buradakı ermənilərə guya yarıtmaz münasibətdən yaranan etirazlar fonunda aparılırdı.Üçüncü amil kimi

isə göstərmək olar ki, Azərbaycanda olduğu kimi, Gürcüstanda da erməni tərəfi ərazi məsələsini tarixi, ictimai-siyasi aidiyyət prinsipi ilə deyil, erməni kökənli insanların sayını süni şəkildə artıraraq miqdar çoxluğunun məntiqi əsasında həllinə üstünlük vermişlər[7, s.9 – 19]. Beləliklə, aydın olur ki, həmin dövrdə İngiltərənin Yaxın Şərq siyasətinin və Denikinin Qafqaza dair hərbi-siyasi planlarının cazibə dairəsinə əsir düşmüş erməni elitası Azərbaycana və Gürcüstana münasibətdə ilhaq siyasətini etnik terror istiqamətində eyni üsullarla icra edirdi. Ümumiyyətlə, XIX əsrin axırları, XX əsrin əvvəllərindən erməniçi dairədə çox sürətlə təşkilatlanma prosesi gedir, müxtəlif şəhərlərdə yeni yaradılan təşkilatların yerli komitələri yaradılır, təbliğat-təşviqat, həmçinin qeyri-leqal silahlı dəstələr formalaşdırmaq üçün kasıb ermənilər muzd hesabına budəstələrə cəlb olunurdular. Bu işin təbliğində və təşkilində tələbələrdən, xüsusilə də din adamlarından daha geniş istifadə edilirdi. Həmin proses çərçivəsində müxtəlif formalarda pul yığmaq kampaniyası aparılırdı: kasıblardan 20 kopeek (20 qəpik, dövrünə görə az məbləğ deyildi), varlılardan isə varidatlarına uyğun həcmdə pul toplanılırdı˙ [2] Kilsələrdə hər ayindən sonra müxtəlif tədbirlər keçirmək bəhanəsi ilə ianələr yığılır və s. Həmin vaxtlar hər muzdlu erməni silahlısının gününə 50 kopeek verirdilər. Pul verməyənlər gizli təşkilatın qərarı ilə öldürülürdülər. Silahlıları Bakının Qurd qapısı adlanan ərazisindəki dərədə hərbi təlim keçdikdən sonra dəstə-dəstə bölüb, Türkiyə ərazisinə silahlı təxribata göndərirdilər.

Beləliklə, XX əsrdə Azərbaycan xalqının öz müqəddəratını həll etmək uğrunda erməni seperatizmi və etnik terroruna qarşı mücadiləsinin mərhələlərini belə sistemləşdirmək olar:

***Birinci mərhələ:*** 1813 – 1903-ci illər. Bu dövrdə erməniliyin əsas məqsədi erməni özəlliyi barədə ictimai rəy yaratmaq və “tarixi torpaqlarda” (Ərzurum yaylası və Zəngəzur-Qarabağ zolağını, buna yaxın bölgələri nəzərdə tutaraq) əhalinin tərkibini erməniləşdirmək, həmçinin ermənilərin toplum halında məskunlaşmasını təmin etmək istiqamətində aparılmışdır. Separatizm və terror bu istiqamətin realizə üsulları idi. Ermənilik bu formatda həm Azərbaycan coğrafiyasında (çar üsul-idarəsinə qarşı), həm də qonşu Osmanlı Türkiyəsi ərazisində fəaliyyət göstərirdi. Ermənilik terrorun müxtəlif üsulları ilə Türkiyə ərazisində xüsusi amansızlıqlar törətməklə sultandan muxtariyyət qazanmaq davasını milli mərama çevirmişdilər. Bu dövrdə erməniliyi etnik terrora təhrik edən çar I Nikolayın Osmanlı İmperiyasının ünvanına səsləndirdiyi “Avropanın xəstə adamının” (Osmanlı Türkiyəsi. – E.C.) parçalanması fikri və Şərq məsələsinin həllində erməni amilindən faydalanmaq (antitürkiyə istiqamətində) fikirləri idi; bir müddət sonra isə qarşı tərəfə “Bizə

---

[2] ***1904/06-cı illərdə Rusiya imperiyasında adi fəhlə günəmuzd 0,25 – 1,20 rub. alırdı. İmperiyanın iqtisadiyyatının dirçəlişi illərində (1913 - 1914) isə Bakı quberniyasında orta əməkhaqqı 383 rub. idi [8].***

ermənilərsiz Ermənistan lazımdır" ifadəsi[Rusiya imperiyasının Xarici işlər naziri (1895 – 1896) Lobanov-Rostovski səsləndirmişdir. – E.C.][3] məlum olduqdan sonra isəermənilik etnik terrora (bu dəfə antirusiya istiqamətində) haqq qazandırmaq ruhunda milli azadlıq barədə tüğyan edən siyasi ixtişaşlara qoşulmağa başlamışdır.

Bu mərhələdəki erməni terrorunun digər əsas qızışdırıcı səbəbi isə II Nikolayın 12 iyun 1903-cü ildə təsdiqlədiyiƏsasnamə olmuşdur(«Rusiyadakı erməni-qriqoryan kilsəsinin mülkiyyətinin idarə olunmasının hökumət qurumlarının ixtiyarında mərkəzləşdirilməsi və yuxarıda adı çəkilən kilsənin məktəblərinin fəaliyyətini təmin edən vəsait və əmlakın Xalq Təhsil Nazirliyinin ixtiyarına verilməsi haqqında nazirlər kabinetinin əlahəzrət tərəfindən təsdiq olunmuş Əsasnaməsi»). Həmin dövlət sənədinin təyinatını saxtalaşdıraraq, erməni kilsəsinin bütün mülkiyyətinin dövlətin xeyrinə müsadirə olunması kimi təbliğ edən ermənilik birbaşa çar monarxiyasına qarşı, həmçinin regionun avtoxton xalqlarını çardan narazı salmaq üçün separatizm, terror və silahlı təxribat üsulları ilə təzyiq etmək formatına keçmişdir.

Bu mərhələdə erməni terroruna qarşı birgə mübarizə ruhunda hətta qısamüddətli çar Rusiyası – Osmanlı Türkiyəsi "ittifaqı" ilə də xarakterikdir[**9**].

***İkinci mərhələ:*** 1903 – 1906-ci illər. Bu dövrdə erməni terroru, əsasən, imperiyanın cənub sərhədlərində, xüsusilə də Azərbaycanda ictimai-siyasi hegemonluğa nail olmaq məqsədi daşımışdır. Terror, erməni partiya və təşkilatlarının milli dövlət siyasəti aparmaq funksiyalarına sərt güc vasitəsilə dəstək vermək vəzifəsini öz üzərinə götürmüşdür. Azərbaycanda terrorla mübarizənin bu mərhələsində belə bir xarakterik detal müşahidə olunurdu: erməni terror aktlarından sonra, rusiyalı inqilabçıların mübarizə üslubuna uyğun olaraqəhali arasında intibahnamələr, müraciətlər, vərəqələr yayaraq, çar mütləqiyyəti ifşa edilir, öz terrorçuluqlarına mənəvi haqq qazandırırdılar. Hətta erməni yas mərasimlərində də antimonarxiyaçı siyasi şüarlar (Rədd olsun mütləqiyyət! Yaşasın Federativ Demokratik Respublika) səsləndirilirdi. Çar gizli polisi etnik erməni terrorunun fəaliyyətində rusiyalı inqilabçıların təsirindən, həmçinin rusiyalı sosial-demokratlar və sosialistlərin erməniçi qüvvəni öz tərəflərinə çəkmək niyyətindən daha da rahatsızlaşmışdı.Rusiyadakı antimonarxiyaçı təşkilatların Erməni Özünümüdafiə Mərkəzi Komitəsinə dəstəyi çar gizli polisinə məlum olduqdan sonra isə çar idarə üsulu taktikasını dəyişmiş və erməniliyi inqilabi hərəkatdan uzaqlaşdırmaq üçün onlara muxtariyyət vəd edərək öz tərəfinə çəkmək istiqamətində fəaliyyətə başalmışdır. Beləliklə, 1905-ci ilin əvvəllərindəerməni terror təşkilatlarının Bakıdavə

[3] ***Sovet-rus generalı Albert Makaşov isə DQ münaqişəsinin qızğın çağında belə bir etiraf etmişdir: «Ermənistanın Rusiyaya meyl etməsi yaxşıdır. Pis odur ki, orada ancaq ermənilər yaşayır.» Bu, XX əsrin sonu, XXI əsrin əvvəlləri erməni dövlət terroruna başqa bucaq altında xarakterizə edir.***

bölgələrdə törətdiyi kütləvi milli qırğın[4]erməni terrorunun həm siyasi, həm də hərbi potensialını və xarakterini göstərmişdir. Bütün bunlar çar üsul-idarəsinin diqqətindən yayınmamış və o, bir neçə ay sonra – 1 avqust 1905-ci ildə erməni kilsəsinin əmlakı barədəki Əsasnamənin hüquqi qüvvəsini dayandırmış, onunla münasibətlərin əvvəlki formasına qayıdılmışdır. Beləliklə, çar, erməni kilsəsinə münasibətdə siyasətini dəyişdikdən sonra, erməniçi tərəf də dövlətə qarşı terrorçuluğun forma və məzmununda dəyişiklik etməyə başlamışdır[5].

İmperiyanı bürüyən qarışıqlıqdan qurtulmaq üçün, çar, 17 oktyabr 1905-ci ildə ölkədə dövlət idarəçiliyi üsulunun təkmilləşdirilməsi haqqında Ali Manifest (Oktyabr manifesti) imzalamağa məcbur olmuşdu. Bu rəsmi sənəd ictimai-siyasi həyat üçün müəyyən azadlıqlar verirdi *(vicdan azadlığı, söz azadlığı, yığıncaq azadlığı, ittifaq yaratmaq azadlığı, şəxsiyyətin toxunulmazlığı)*. Erməni elitası bu manifestdən bəhrələnərək həm "yumşaq qüvvə", həm də "sərt qüvvə" vasitəsilə muxtariyyət arzularını reallaşdırmağa, Azərbaycan elitası isə bu manifestdən bəhrələnərək özünü müdafiə və öz gələcəyini müəyyənləşdirmək haqqında maarifçilik fəaliyyətini gücləndirmişdir. Azərbaycandilli nəşriyyatçılıq yaranmış, dünyəvi təhsilə meyl artmış, milli-mənəvi dəyərlərinmüdafiəsi məqsədi ilə öncəliklə erməni yumşaq qüvvə terroruna qarşı mütəşəkkil mübarizə aparmaq fikri qətiləşmişdir. Bu dalğada sərt gücün formalaşdırılması zərurəti də baş qaldırmağa başlamışdı.

Azərbaycan ictimaiyyətində, xüsusilə də onun milli ziyalıları arasında erməni terroruna qarşı sərtlik göstərilməsi mövqeyinin müəyyənləşdirilməsində, erməni separatizmi və terrorunamünasibətdə çar üsul-idarəsinin zəiflik nümayiş etdirməsinin böyük təsiri olmuşdur. Bu səbəbdən də Azərbaycan elitasında erməni terroruna qarşı "öz gücümüzlə" mübarizə aparmaq əqidəsi daha da güclənmiş və çox keçməmişdir ki, "Difai" gizli mübarizə təşkilatı (1905) formalaşdırılmış və erməni terroruna qarşı təşkilatlanmış halda mübarizəyə rəvac verilmişdir. Bu təşkilatınfəaliyyəti nəticəsində Azərbaycanda erməni terroruna ciddi zərbə vurulmuş, onun səngiməsinə nail olunmuşdur.

***Üçüncü mərhələ:***1906 – 1918-ci illər. Bu mərhələ aşağıdakı xüsusiyyətləri ilə fərqlənir:

---

[4]***1905-ci ilin fevral ayının 6-da Parapet bağında (Fəvvarələr meydanı. – E.C.), erməni kilsəsinin yaxınlığında güllə ilə Sabunçu kəndindən olan Babayev soyadlı dövrünün hörmətli bir şəxsi qətlə yetirilmişdir. Bu atəş səsi erməni terrorçularının Bakıda qırğın salması üçün işarə olmuşdur[10].***

[5] ***Q.Frenkel 12.09.1906-cı il tarixli № 685 məktubunda zati-aliləri Nikolay Nikolaeviç Maksimova məktubunda aydınlaşdırırdı ki, erməni mübarizəsinin mahiyyəti dəyişməkdədir.Yəni XIX əsrin 90-cı illərində üsul-idarəyə qarşı terror, güc tətbiq etməklə mübarizə aparırdılarsa, hazırda daşnaklarla rus inqilabçılarının birlikdə hökumətə qarşı çıxışları üçün səbəblər ayrı-ayrılıda müxtəlif olsa da, məqsəd və üsulları eynidir və bu eynilik faktiki olaraq onlar arasında əlaqə, rabitə yaratmışdır [11].***

***a.*** İctimai-siyasi problemi həll etmək üçün erməni tərəfinin monarxiya tərəfdarları və bolşeviklər qismində qəyyum (İngiltərə, sonra isə ABŞ da bu siyahıya daxil olmuşdur) axtarışı, üçüncü tərəfin səssiz razılığı ilə terror taktikasını intensivləşdirmək;

***b.*** Erməni tərəfi hiss edirdi ki, çar dövlət idarəçiləribölgədə gedən antimonarxiya hərəkatını zəiflətmək üçün erməni siyasi-hərbi potensialındanfaydalanmağa çalışırlar;

***d.*** Çar dövlət idarəçilərivə digər qəyyum dövlətlər isə dərk edirdilər ki, onların buniyyətini erməni tərəfi anlamışdır.

Göründüyü kimi, erməni muxtariyyəti məsələsi siyasi oyun üçün ciddi əminlik amili idi. Buna görə də hər iki tərəf siyasi müştəriliyidaha israrla gündəmdə saxlayır, siyasi alverinAzərbaycan coğrafiyası üzərindəreallaşması üçün qarşılıqlı surətdə qayğı göstərirdi. Beləliklə, bu mərhələdə erməni tərəfinin həm rusofil, həm də rusofob mövqedə durması[6] Azərbaycan üçün terrora qarşı mübarizədədaha çevik olmağı diktə edirdi.Bunu “Difai”nin və onun müxtəlif şöbələrinin, davamçılarının ("Müsəlman Xeyriyyə Cəmiyyəti", "Qarabağ Birlik Məclisi", azərbaycanlıların Tiflisdə yaratdıqları "Müdafiə" partiyası və b.) fəaliyyətlərində maarifçilik və silah güçünə müdafiə olunmaq taktikasından da görmək mümkündür.

Beynəlxalq vəziyyətin mürəkkəbləşməsi, millətlərin öz müqəddəratını həll etmək siyasətinin aktuallaşması ümumdünya gərginliyi yaratmışdı. Hadisələr Birinci Dünya müharibəsinə gətirib çıxardı. Bu müharibənin iştirakçısı olan iri dövlətlər regionda çaxnaşma salır, təfriqə törədərək, düşmən cəbhəni zəiflətmək üçün milli-dini qarşıdurmalardan istıfadə edir, azərbaycanlılar yaşayan şəhər və kəndlərdə erməni terrorunun genişlənməsinə imkanlar yaradırdılar. Bu taktikadan Osmanlı Türkiyəsinə və İrana qarşı da istifadə olunurdu. Ermənilikbu siyasi oyunlarda özünün “vacibliyini” dərk etdiyindən,daha

---

[6] ***Tiflis Quberniya jandarm idarəsinin rəisi polkovnik Pastryulinin illər sonra yazdığı bir məxfi məktub (3 dekabr1916-cı il, №4176 )bu fikri təsdiq edə bilər. Həmin məktubda açıqlanırdı ki,Türkiyə ilə müharibə başlayarkən, erməni könüllüləri rus ordusuna qoşularaq muxtariyyət həvəsi ilə döyüşürdülər. Ancaq il yarımdan sonra Qafqaz Ordusunun ali komandanı erməni drujinaları əvəzinə, erməni batalyonlarının yaradılması və onlara komandirliyin rus zabitlərinə həvalə edilməsi göstərişini verdikdən sonra həmin batalyonlara erməni marağı azalmışdır. Bu, erməni milli məsələsinə dəyən ilk zərbə idi. Sonralar terror qaragüruhunun başçısı Andronik etiraf edirdi ki, «bununla mənim 30 il apardığım muxtariyyət mübarizəm süquta uğramışdır. » İkinci zərbə isə Ali Baş Komandanlıq Qərargahı rəisinin Əmri (5 iyun 1916-cı il, №739)olmuşdur. Həmin əmrə əsasən Birinci Dünya müharibəsiçərçivəsində hərb yolu ilə regionda işğal olunmuş ərazilərin inzibati idarəçiliyi ermənilərə deyil, rus hərbçilərinə tapşırılmışdı. Bu əmr isə erməni tərəfinin torpaq arzularını tamam alt-üst etmişdir. Və onlar əsas diqqəti Azərbaycan torpaqlarına çevirmiş, bu coğrafiyada daha da möhkəmlənmək üçün yerli xalqa qarşı terror təhdidini daha da qızışdırmışlar.***

radikal mövqe tutmuşdu. Həmin dövrdə erməni radikallığının fəallaşmasında onun etnopsixologiyasından qaynaqlanan elementlər də mühüm rol oynamışdır.

Birinci Dünya müharibəsindən sonra yeni dünya nizamından razı olmayan dövlətlərdən biri Rusiya idisə, xalqlardan biri ermənilər idi. Buna görə də müharibənin sonunda «erməni məsələsi»nin öz istəklərincə həll olunmadığını duyan ermənilik terror ilə **qisasçılıq və revanşizmə** meyllənmiş, azərbaycanlılara qarşı terror taktikasını daha qəddar formada davam etdirməyə başlamışdılar. Belə bir antihumanist mövqenin formalaşmasındagörünən ABŞ Prezidenti VudroVilsonunBirinci Dünya müharibəsindən sonra yeni dünya nizamı barədəki 14 maddəlik müddəaları (8 yanvar 1918) və həmin ilin mart ayının 3-də bağlanmış Brest müqaviləsinin mahiyyətindəki hərbi-siyasi təzyiq qarşısında "güzəştə getmək" reallığı idi. Beləliklə, az müddət sonra erməni terroru həmin sənədlərə özəl siyasi müştəri bəhanəsi iləyanaşaraq, azərbaycanlılara qarşı hərbi-siyasi təzyiqi daha da sərtləşdirmiş və mart (1918) soyqırımınıtörətmişdir.

Ümumiyyətlə, 1917-ci ildə Rusiyada oktyabr çevrilişi, ondan üç il sonra Cənubi Qafqazda sovet hökumətləri zorla iqtidara gəldikdən sonra da traybalizm və probabilizmə məxsus xüsusiyyətlər erməni etnik terroruna yeni forma və məzmun aşılamışdır; belə ki, terror aktları, əsasən, **siyasi təxribat** müstəvisinə keçirilərək "yumşaq qüvvə" ilə təhdidlərə başlanmış, "sərt qüvvənin" tətbiqi üçün ictimai mühitdə səbəblər formalaşdırılmışdır. Bunu həm AXC-nin qurucularına, həm də türk hərbçilərinə, diplomatlarına qarşı törədilən terror hadisələrinin əsasında görmək mümkündür. Etnik erməni terroru özünün növbəti mərhələsinə keçid ərəfəsindəolmuşdur.

## ƏDƏBİYYAT

1. «Записки Джемаль-паши». Перевод с англ. Б.Т.Руденко с предисловием Сим. Такоева. Тифлис, Издание Заккрайкома РКП (б), 1923, с.197.

2.Daha geniş məlumat üçün bax: Мехтиев Р. Григорианская церковь как инструмент шпионажа против Сефевидского государства. Б.: «Шарг-Гарб», 2018.

3. Yaqub M. Mahmudov, Kərim K. Şükürov. Azərbaycan:Beynəlxalq münsibətlər və diplomatiya tarixi. 1639 – 1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Dörd cilddə, I cild. B.: 2009, c.138; həmçinin, bax: Эзов Г. А. Сношения Петра Великого с армянским народом. СПб, 1898г, s. XIII – XVII; Начало сношений Эчмиадзинского патриаршего престола с русским правительством. Историческое исследование по неизданным документам. Тифлис, 1901.

4. Cabbarov E. Etnik terrorun etnopsixoloji tərkibinə dair // «Tarix, insan və cəmiyyət» №2, 2018, s.83-88.
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi. F. 276, T.8, İş 8; 37a; 330.
6.ARPİİSSA. Fond 276, Təsvir 8, İş 30, s. 1 - 32.
7. Vadaçkoriya Ş. Gürcüstan siyasi fikrində gürcü – erməni münasibətləri məsələləri. 1918 – 1920. B.: "MBM", 2006.
8.Волков В.В. Заработная плата русских рабочих в конце XIX - начале XX в. /Вопросы истории, № 10, 2018, с.67 – 89.
9. ARPİİSSA. F.276, T. 8, İş 61.
10. Bax: ARPİİSSA. F.456, T. 10, İş 114; *həmçinin:* Всеподданньщий отчет о произведенной в 1905 году, по Высочайшему повелению, сенатором Кузминским ревизии города Баку и Бакинской губернии.
11. ARPİİSSA. F276, T. 8, İş 200.

**UOT 001+32**

# DÜNYA ELMİNƏ İNTEQRASİYA ELM SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

***Aytac Həsənova***
*AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutu*
*aytac.asgerzadeh@gmail.com*

**Açar sözlər:** *elm, Azərbaycan, təhsil, integrasiya, elm siyasəti*

*İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlətin sosial-iqtisadi qüdrəti, müdafiə qabiliyyəti və milli təhlükəsizliyi, cəmiyyətin mədəni-mənəvi tərəqqisi və xalqın rifahı müxtəlif amillərlə yanaşı, həm də elmin inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir. Elm və texnologiyanın inkişafının, qabaqcıl innovasiya sisteminin nəzəri, metodoloji və tətbiqi elmi əsaslar üzərində formalaşdırılması müasir dünyada sivil inkişaf yolunu müəyyənləşdirmiş hər bir ölkə kimi Azərbaycan Respublikasının da dövlət siyasətinin strateji məqsədlərindəndir.*

*Ən qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanda elmin zəngin tarixi və ənənələri var. Bu mənada xalqımızın həm tarixi ənənələri, həm də ölkəmizin yüksəliş yolunda olması elmin inkişafının sürətləndirilməsi istiqamətində mühüm addımların atılması və ürəkaçan nəticələrin əldə olunması ilə müşahidə edilir. Son illərdə dövlət siyasətinin əsas prioritetlərindən biri olan elm sahəsində ardıcıl işlər davam etdirilib, elmi-texniki potensialın qorunub saxlanılması, cəmiyyətin inkişafında elmin fəal iştirakının təmin olunması, yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Prezident İlham Əliyev bildirib ki, elmin inkişafı ümumi inkişaf templəri ilə uzlaşmalı, elm, təhsil, iqtisadiyyat birliyi yaradılmalı, bunun üçün prioritetlər düzgün seçilməli və onun üzərində işlər aparılmalıdır: "Bizim üçün elmin inkişafı ilə bağlı əsas məsələ prioritetlərin düzgün seçilməsidir. Bütün dövrlərdə alimlərimiz Azərbaycanın müxtəlif istiqamətlərdə inkişafına dəyərli töhfələrini veriblər. İndiki şəraitdə, müstəqilliyimizin inkişafı və möhkəmlənməsi şəraitində elmi potensialın güclənməsinə böyük ehtiyac var".*

# INTEGRATION INTO WORLD SCIENCE AS AN INTEGRAL PART OF SCIENCE POLICY

***Aytaj Hasanova***

**Key words:** *science, education, integration, scientific policy of Azerbaijan*

*Experience of developed countries shows that socio-economic power, defense capability and national security of the state, cultural and moral progress of the society and well-being of the people are directly related to the level of development of science as well as various factors. The development of science and technology, the advanced innovation system on theoretical, methodological and applied scientific basis is one of the strategic goals of the state policy of the Republic of Azerbaijan as every country determining the path of civilized development in the modern world.*

*Azerbaijan, one of the oldest civilizational centers, has rich history and traditions. In this sense, the historical traditions of our people, as well as the way our country is on the rise, are accompanied by significant steps towards accelerating the development of science and achieving heartwarming results. In recent years, consistent work has been carried out in the field of science, one of the main priorities of the state policy. Relevant measures have been taken in the direction of preserving scientific and technical potential, ensuring active participation of science in the development of society, training of highly qualified personnel. President Ilham Aliyev said that the development of science must compete with the common development trends, create a science, education, economy, and priorities should be properly chosen and done. "The key issue for science development is the right choice of priorities. At all times, our scientists have made a valuable contribution to the development of Azerbaijan in different directions. Nowadays, there is a great need for strengthening the scientific potential in the conditions of our independence and development. "*

# ИНТЕГРАЦИЯ В МИРОВУЮ НАУКУ КАК НЕОТЪЕМЛЕМУЮ ЧАСТЬ НАУЧНОЙ ПОЛИТИКИ

***Айтадж Гасанова***

**Ключевые слова:** *науки, образования, науки, политики интеграции Азербайджана*

*Опыт развитых стран показывает, что социально-экономическая мощь, обороноспособность и национальная безопасность государства, культурный и нравственный прогресс общества и благосостояние людей напрямую связаны с уровнем развития науки, а также с различными факторами. Развитие науки и техники, передовая инновационная система на теоретической, методологической и прикладной научной основе является одной из стратегических целей государственной политики Азербайджанской Республики как каждой страны, определяющей путь цивилизованного развития в современном мире.*

*Азербайджан, один из старейших цивилизационных центров, имеет богатую историю и традиции. В этом смысле исторические традиции нашего народа, а также то, как наша страна находится на подъеме, сопровождаются значительными шагами в направлении ускорения развития науки и достижения теплых результатов. В последние годы последовательная работа была проведена в области науки, что является одним из основных приоритетов государственной политики. Были приняты соответствующие меры в направлении сохранения научно-технического потенциала, обеспечения активного участия науки в развитии общества, подготовки высококвалифицированных кадров. Президент Ильхам Алиев сказал, что развитие науки должно конкурировать с общими тенденциями развития, создавать науку, образование, экономику и приоритеты должны быть надлежащим образом подобраны и сделаны ». Ключевой вопрос развития науки - правильный выбор приоритетов. В наши дни наши ученые внесли ценный вклад в развитие Азербайджана по разным направлениям. В настоящее время существует большая потребность в укреплении научного потенциала в условиях нашей независимости и развития ».*

Azərbaycan elmi həmişə dünya elminin tərkib hissəsi olub. Ümumiyyətlə, elm vahiddir, bəşəridir və altenativi yoxdur. Yəni insan təfəkkürü bir elm yaradıb, onun nəzəri-metodoloji və dünyagörüşü meyarları qədimdən formalaşıb. Bu elmə alternativ elm yaratmaq mümkün deyildir. O halda qeyri-

elmdən, psevdoelmdən danışa bilərik. Lakin hər bir ölkədə elmi fəaliyyətin təşkili və onun bir struktur-funksional sistem olaraq başqa ölkələrdəki elmi sistemlərlə qarşılıqlı əlaqəsi tarixi məzmun kəsb etməkdədir. Məhz həmin aspektdə tədqiqatçılar konkret ölkənin elminin dünya elmi ilə qarşılıqlı münasibətləri məsələsini qoyub, onun fəlsəfi-sosioloji yaxud elmi-metodoloji təhlilini apara bilərlər. Bu cür aradşrımanın faydası vardır. Məsələnin bu tərəfinə bir neçə məqamın işığında diqqət yetirmək olar.

Birincisi, müasir elmi idrak çox maraqlı keyfiyyət dəiyişkilərinə uğrayır. Bəşəriyyət getdikcə daha böyük ölçüdə mürəkkəb təbiətli obyektləri öyrənməli olur. Buraya nano səviyyədə mövcud olan obyektlərdən tutmuş nəhəng kosmik sistemlərə qədər geniş çeşidli strukturlar daxildir. Hazırkı mərhələdə elm bu cür müxtəlifiyi vahid bucaq altında, inteqrativ xarakterli nəzəri-metodoloji konstruktlar çərçivəsində öyrənməyə məhkumdur. Bu səbəbdəndir ki, indi tədqiqatçılar "mürəkkəblik paradiqması", "dialoq epistemologiyası" və ya "postqeyri-klassik epistemologiya" kimi yeni terminlər işlədirlər. Deməli, elmin tarixi təkamülünün substantiv özəlliyi dünya elminin də vahid sistem olması tələbini qarşıya qoyur. Burada hələ L.Flekin işlətdiyi "kollektiv düşüncə tərzi" yaxud "kollektiv elmi təfəkkür" anlayışını xatırlamağın faydası vardır. L.Flek elmin kollektiv şüuri fəaliyyətin nəticəsi oluğu tezisini irəli sürür. Yəni hər bir elm bütövlükdə götürdükdə fərdi deyil, kollektiv təfəkkürün məhsuludur. Bu, ayrı-ayrı elmi yaradıcılıq kollektivlərində konkret məzmun kəsb edir. Həmin səbəbdəndir ki, istənilən elmi fakt tarixi xarakterlidir, o, konkret kollketiv təfəkkürdə yaranır və sonra tədricən təkamülə uğrayır (1, s. 7-8).

İkincisi, biz L.Flekin bu yanaşmasını qloballaşma dövründə btövlükdə elmi fəaliyyətin təşkili məsələsinə reduksiya edə bilərik. Belə ki, hazırda ayrı-ayrı ölkələrdəki elmi yaradıcı kollektivlərdən çox, müxtəlif ölkələri təmsil edən tədqiqatçıların yaratdığı yaradıcılıq kollketivləri üstünlük təşkil edir. Təsadüfi deyildir ki, son illər Nobel mükafatları müxtəlif xalqların təmsilçilərinə, lakin onların çalışdığı bir kollektivdəki fəaliyyətlərində əldə etdikləri nəticələrə görə verilir. Bu mənada artıq elm "milliliyi itirib", o, daha ümumbəşəri və bu mənada universal fəaliyyət mexanizmlərinə malik olub. Dünyanın müxtəlif guşələrindən olan alimlər vahid komandada çalışa bilirlər və bu cür fəaliyyət son dərəcə faydalı olur. Nümunə kimi bozon mikrohissəciyini laboratoriyada kəşf edən elmi kollektivi göstərə bilərik. Hələ 1964-cü ildə ingilis fiziki P.Hiqqs bozon hissəciyinin mövcudluğu barədə hipoteza irəli sürmüşdü. Lakin 2012-ci ilə kimi bu hisssəciyi müşahidə etmək mümkün olmamışdı. Bu işin öhdəsindən Avropa Nüvə Tədqiqatları Mərkəzi (CERN - Conseil Européen pour la Recherche Nucléaire (fr.)) gələ bildi. CERN-nin yaranma tarixçəsi də bizim araşdırdığımız problem konteksində maraqlıdır.

Bu təşkilatın əsasını 1952-ci ildə Avropanın 11 ölkəsi qoyub. 2009-cu ildə isə artıq bu təşkilatı 20 ölkə maliyyələşdirirdi (Almaniya, Fransa, İtaliya,

Böyük Britaniya, İspaniya, Hollandiya, İsveçrə, Polşa, Belçika, İsveç, Norveç, Avstriya, Yunanıstan, Danimarka, Finlandiya, Çexiya, Portuqaliya, Macarıstan, Slovakiya, Bolqarıstan). Hazırda assosiativ üzvləri (Türkiyə, Ukrayna, Serbiya) və müşahidəçi stasusu olanlarla (Avropa Komissiyası, Hindistan, ABŞ, Rusiya, Kanada, Çin, YUNESKO və Dubna Birləşmiş Nüvə Tədqiqatları İnstitutu) birgə iştirakçı dövlətlərin sayı 21-dir. Onu vurğulayaq ki, Dubna Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun özündə 18 ölkənin tədiqatçılarını birləşdirir. Həmin ölkələr sırasında Azərbaycan da vardır. Digərləri Rusiya, Belorus, Bolqarıstan, Vyetnam, Gürcüstan, Qazaxıstan, Koreya Xalq Respublikası, Kuba, Moldova, Monqolustan, Polşa, Rumıniya, Slovakiya, Özbəkistan, Ukrayna, Çexiya və Ermənistandır.

Göründüyü kimi, faktiki olaraq CREN çoxlu sayda ölkənin alimlərini konkret tədqiqat proqramları üzrə birləşdirən böyük bir yaradıcılıq şəbəkəsidir. Onun daimi əməkdaşlarının sayı 3 mindir. 2012-ci ildə bozonun kəşfində isə 80 (!) ölkənin alimləri iştirak ediblər. Onların sayı 6,5 mindən çox olub (2). CERN bundan başqa, 2014-cü ildə yeni tetrakvark və 2015-ci ildə pentakvark hissəciyini kəşf edib.

Beləliklə, CREN faktiki olaraq dnyanın btn regionlarından olan təqdiqatçıları birləşdirib, vahid proqram zrə onların fəaliyyətini təşkil edən nəhəng beynəlxalq tədqiqat mərkəzidir. Bu, yalnız CREN üçün xarakterik olan özəllik deyil. İndi əksər elmi araşdırmalar çoxlu sayda alimin cəlb edilməsi ilə həyata keçə bilir. Bir sözlə, sözün həqiqi mənasında elmi araşdırmaların təşkili beynəlmiləlø məzmun kəsb etməkdədir.

Bütün bunlar başqa bir məqamı da aktual edir. Biz müxtəlif ölkələrin alimlərini birləşdirən vahid layihələr üzrə çalışmağın artıq normaya çevrilməsi adekvat universal elmi yanaşmaların işlənib hazırlanmasını tələb edir. Bunu üçüncü faktor adlandıra bilərik. Bura alimlərin ünsiyyətdə ola bilməsini təmin edən ortaq dilin mövcudluğundan tutmuş, nəzəri-metodoloji xarakterli müxtəlif elmi üsulların hazırlanması daxildir. Yəni elmi fəaliyyətin kommunikativ aspekti ilə ontoloji xüsusiyyətlərinin vəhdətinə nail olmaq gərəkdir. Bu isə elmlərarası əlaqələrin elmi fəaliyyətin təşkilində ön plana çıxdığını təsdiqləyən faktordur. Həmin bağlılıqda masir elmdə müşahidə edilən fənlərarası, çoxfənni, transfənni yanaşmalar və NBİCS konvergent texnologiyalar diqqət mərkəzinə gəlmiş olur. Bunların hər biri müxtəlif elm sahələrinin tədqiqatçılarının birgə elmi fəaliyyətini təşkil etmək zərurətini ortaya qoyur. Bir nümunədə yuxarıda ifadə etdiyimiz tezisin önəmi əyani olaraq aydın olur.

İndiana Universitetinin professoru Keti Bornerin rəhbərliyi ilə bir qrup alim 1977-2000-ci illərdə elmi jurnallarda dərc edilən məqalələrin klaster üsulla analizini aparıb (bax: 3). O cümlədən, müəlliflər bir neçə min elmi jurnallarda dərc edilən 1 milyondan çox məqalələr (1977-2000-ci illər) əsasında mövzuca bir-birinə yaxın jurnalları qarşılıqlı istinadlara görə klaster analizin köməyi ilə

qruplaşdırıblar. Nəticədə bir sxemdə müasir elmin bütöv mənzərəsi alınıb (3, s. 26-43). Orada çox maralı məqamlardan biri ondan ibarətdir ki, beynəlxalq tədqiqat qrupu fənlərarası mövzulara həsr edilmiş məqalələri ayrıca araşdırıblar. Gəldikləri nəticələri bir qrafikdə ifadə ediblər:




**Figure 1. NIA total grant awards and average grant amounts by year.**

Bu qrafikdən göründüyü kimi, 1977-2000-ci illərdə dünya üzrə fənləraarası tədqiqatlara ayrılan qrantların həcmi yüksələn xətlə inkişaf edib. Əgər 1977-ci ildə bu rəqəm 100 milyon dollardan aşağı idisə, 2000-ci ildə o, artıq 600 milyon ABŞ dolları həcminə yaxın olub. Yəni 23 ildə fənlərarası tədqiqatlara həsr edilmiş məqalələrə ayrılan xərclər 6 dəfə artıb! Bu tendensiya digər məsələlərlə yanaşı, elm adamları arasında kommunikasiya aspektində nəy ifadə edir?

Hər şeydən öncə, müxtəlif elm sahələrində çalışan insanların bir-biri ilə intensiv ünsiyyətdə olması, bilikləri dünya miqyasında paylaşmaq zərurəti qarşısında qaldıqlarını göstərir. 1 milyondan çox məqaləni bir qrup tədqiqatçı birgə araşdıra bilirsə, bu bütövlükdə nəzəri-metodoloji səviyyədə də dünya elmində inteqrativ tendensiyanın getdikcə daha çox önəm kəsb etməsini göstərir.

Yuxarıda vurğulanan məqamlar Azərbaycanda elmin dünya elminə inteqrsiyası məsələsinin dövlətin elm siyasətinin tərkib hissəsi olmasının aktuallığını konkret ifadə edirlər. Ölkə rəhbərliyi bu istiqamətdə sistemli, ardıcıl

və dəqiq işlənmiş mexanizm üzrə proqramları qətiyyətlə həyata keçirir. Burada mühüm məqamlardan biri Azərbaycan rəhbərliyinin elmlə təhsilin sıx qarşılıqlı əlaqədə dünya elmi və thəsli strukturlarına inteqrasiyası xəttini həyata keçirməsindən ibarətdir. Çünki məlumdur ki, masir dövrdə mürəkkəb və kompleks xarakterli elmi proqramları ancaq yüksək təhsilli, hazırlıqlı, müasir təsəvvürlərə malik sramdırmaçılar həyata keçirə bilərlər. Deməli, təhsillə elmi praktiki aspektdə bir-birindən ayırmaq müassir tələblərə cavab verməmək demək olardı. Azərbaycanda məsələnin bu tərəfinə çox ciddi diqqət yetirilir və dövlət təhsillə elmdə islahatları paralel surətdə, bir-biri ilə sıx əlaqədə aparmaqdadır.

Bu kontekstdə Heydər Əliyev Fondu, AMEA, Ali Təhsil Məktəbləri, Bilik Fondu, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu, Gənclər Fondu kimi ququrmların da fəaliyyətini xüsusi qeyd etmək gərəkdir. Onlar dövlət başçısının məyyən etdiyi elm və təhsil siyasətinin həyata keçirilməsi mexanizmləri kimi səmərəli fəaliyyət göstərirlər. Bunun nəticəsidir ki, tarixi baxımdan qısa bir müddətdə Azərbaycanın elm və təhsil ocaqları, ayrı-ayrı təcrbəli alimlər və gənc tədqiqatçılar sürətlə dünya elmi dairləri ilə sıx təmsalarda olurlar. Bu proses çoxşaxəli və konkret layihələr zrə getdiyindən birbaşa dövlətin elm siyasətinin tərkib hissəsi olaraq özünü göstərməkdədir. Konkret faktlara müraciət edək.

Azərbaycanın paytaxtı 2014-c ildə “Bakı Elm Festivalı -2014” adlı tədbirə ev sahibliyi etdi. Bu prosesə ölkənin gənc tədqiqatçıları da cəlb edildi. Burada önəmli məqamlar ondan ibarətdir ki, birincisi, Bakı sivilizasiyalar, dinlər, mədəniyyətlər arasında dialoqun təşkilinin regionda mərkəzi olmaqla yanaşı, elmi fəaliyyətin də aparıcı məkanlarından birinə çevrilib, ikincisi, gənclərin bu kimi tədbirlərə cəlb edilməsi yeni səviyyəyə yksəlib. Onu vurğulayaq ki, adıçəkilən festivalı AMEA, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Bakı şəhər İcra Hakimiyyəti təşkil etmişdi. Tədbirdə 100-ə yaxın elmi məruzlərə dinlənilmişdi ki, bu da Azərbaycan elminin dünyada tanınması baxımından əhəmiyyət kəsb edir (4).

2016-cı ilin oktyabrında Gəncədə “XXI əsrdə dünya elminin inteqrasiya prosesləri” mövzusunda gənc alim və mütəxəssislərin 4 günlük Beynəlxalq Forumu keçirildi (5). Forumda iştirak üçün 25 ölkənin 530 gənc alim və mütəxəssisləri müraciət etmişdi. Onlardan 350-yə yaxın gənc tədqiqatçının əsəri qoyulan tələblərə cavab vermiş və qəbul olunmuşdu. Foruma 12 ölkədən 26 gənc alim və mütəxəssis dəvət olunmuşdu. Bu tədbir də dövlətin elm siyasəti çərçivəsində təşkil edilmişdi. Forumda iştirak edən gənc alimlər Azərbaycan elminin nailiyyətləri ilə tanış olmaqla yanaşı, etdikləri məruzələrlə digər ölkələrdə elmi fəaliyyətlə əlaqədar maraqlı informasiyalar veriblər. Bu kimi tədbirlər qarşılıqlı informasiya mübadiləsi üçün vacib məkanlardır.

Bunlarla yanaşı, Azərbaycan alimlərinin dünyanın aparıcı elmi nəşrləri ilə əməkdaşlığı dövlətin elm siyasətinin olduqca əhəmiyyətli məqamını təşkil etməkdədir. Həmin istiqamətdə bir sıra nailiyyətlər əldə edilib. Onların təsdiqi kimi 2016-cı ildə Bakıda "Web of Science" mükafatları-2016"nın təqdim edilməsi mərasimini göstərə bilərik (7). Tədbiri Elmin İnkişafı Fondu və "Thomson Reuters" şirkəti təşkil etmişdilər. Bu kimi tədbirlərin qarşısında duran əsas vəzifələrdən birinin ölkə Prezidentinin Azərbaycanı regionun elm mərkəzinə çevirməyə nail olmaqdan ibarət olduğu ayrıca vurğulanıb. Tədbirdə AMEA ilə "Thomson Reuters" şirkətinin əməkdaşlığı, alimlərimizin məqalələrinin impakt faktorlu beynəlxalq jurnallarda dərc olunması və bu yazılara istinadların ildən-ilə çoxalması da qeyd edilib.Bu proses ölkədə nəşr olunan beynəlxalq elmi jurnalların sayının artmasına müsbət təsir edir. "Thomson Reuters"i təmsil edən nümayəndə isə Azərbaycanın elm adamlarının "Thomson Reuters"in resurslarına yol tapmasının onlar üçün çox vacib olduğuna və bu resursların Azərbaycan elminə müxtəlif istiqamətlərdə xidmət edəcəyinə diqqət yönəldib. Tədbirdə xüsusi vurğulanıb ki, artıq Azərbaycan alimlərinin elmi məqalələrinə 1500-dən çox istinad vardır. Bu rəqəm təbii ki, günbəgün dəyişir. Qəbul olunmuş elmi meyarlara görə, bu, Azərbaycan elminin dünya elm sisteminə sürətli inteqrasiyasının göstəricisidir.

Həmin tədbirdə elan edildi ki, "Thomson Reuters" şirkəti və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elmin inkişafına görə" ən yüksək mükafatına "Ən yaxşı tədqiqat universiteti" nominasiyasına Bakı Dövlət Universiteti layiq görülüb. "Ən yaxşı tədqiqat institutu" nominasiyasında isə AMEA-nın Fizika İnstitutuna üstünlük verilib. "Ən yaxşı elmi jurnal" nominasiyasında Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, AMEA-nın və BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun "Tətbiq və hesablama riyaziyyatı" jurnalı birinci olub. Həmin tədbir çərçivəsində "Azərbaycanın elmi jurnalları: beynəlxalq səviyyəyə doğru irəliləyiş" mövzusunda seminar-təlimin keçirilməsi də dünya elminə inteqrasiya aspektində vacib məqamdır.

Dünyanın aparıcı elmi təşkilatları ilə əməkdaşlıqda informasiya mübadiləsinin çevik təşkili faktoru da dünya elminə inteqrasiya prosesində mühüm yer tutur. Dövlət başçısı problemin bu aspekti ilə bağlı əhəmiyyətli fikirlər bildirib və həmin istiqamətdə konkret tapşırıqlarını verir. Bu bağlılıqda AzScienceNet Elm-Kompüter Şəbəkəsinin (EKŞ) fəaliyyətinin gücləndirilməsi əhəmiyyət daşıyır. Məhz bu səbəbdən 2016-cı ili dekabrın 14-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclasında EKŞ-in fəaliyyətinin gücləndirilməsi haqqında məsələnin müzakirə edilməsi dövlət başçısının həyata keçirdiyi elm siyasətinin reallaşması çərçivəsində maraqlı addım idi (7). İclasda çıxış edən AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev dövlətin yeritdiyi elm siyasətində dünya elminə daha effektiv inteqrasiya üçün elmin

informasiya təminatının gücləndirilməsinin xüsusi yer tutduğunu vurğulayıb. Bu bağlılıqda elmi fəaliyyət sahəsində İKT-nin tətbiqi və elektron elmin formalaşdırılması da mühüm vəzifələr sırasındadır. "Bu vəzifələrə uyğun olaraq, AzScienceNet dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri qurur və AMEA-nın alim və mütəxəssislərinin dünyanın elm və təhsil şəbəkələrinin təqdim etdiyi imkanlardan yararlanmasına şərait yaradır. Alimlər öz tədqiqatlarında böyük həcmli verilənlərdən birgə istifadə edir, irimiqyaslı elmi layihələr həyata keçirir, qabaqcıl şəbəkə texnologiyası və xidmətlərindən faydalanırlar" (7).

Bundan başqa, EKŞ Akademiyanın elmi müəssisə və təşkilatlarına yüksək səviyyəli internet xidmətləri göstərir. Bu, Azərbaycan elminin dünya elminə inteqrasiyasını təmin etmə prosesində olduqca vacib bir faktordur. Yəni faktiki olaraq AzScienceNet Elm-Kompüter Şəbəkəsi elm və təhsil şəbəkələri üzrə milli operator funksiyasını yerinə yetirir.

Deməli, EKŞ üç aspektdə əhəmiyyət daşıyan və vacib funksiya yerinə yetirən elmi qurumdur: birincisi, Azərbaycan elminin informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə etməklə inkişaf etdirilməsi, ikincisi, Azərbaycan elminin dünya elminə inteqrasiyası, üçüncüsü, vahid milli elmi onlayn infrastrukturun və informasiya fəzasının yaradılması. Bütün bunları nəzərə alaraq, AMEA Rəyasət Heyəti AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu tərəfindən AzScienceNet EKŞ-in fəaliyyətinin gücləndirilməsinə dair tədbirlər planının hazırlanması, şəbəkənin maddi-texniki bazasının, e-poçt xidməti fəaliyyətinin, İnternet-monitorinq və İnternet-analitikası işlərinin gücləndirilməsi ilə bağlı qərar qəbul edib (7). Orada ayrıca vurğulanır ki, "EaPConnect" layihəsi çərçivəsində Azərbaycan elminin dünya elminə inteqrasiyasını sürətləndirmək məqsədi ilə AzScienceNet EKŞ-in müvafiq beynəlxalq qurumlarla əlaqələri" gücləndirilsin. Bununla da AMEA Rəyasət Heyəti Azərbaycan elminin dünya elminə inteqrasiyası istiqamətində mühüm addımlardan birini atmış oldu.

Ölkə rəhbərliyinin elm siyasətinin həyata keçirilməsi çərçivəsində vacib sayıla biləcək hadisələrdən biri də 2017-ci il dekabrın 15-də Azərbaycan Milli Elmlər Akademiyasında AMEA, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan gənc alimlərinin I qurultayının keçirilməsi oldu. Tədbirdə çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirib ki, qurultay Prezident İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına əsasən təşkil olunub. Yəni bu tədbir birbaşa dövlət başçısının elm siyasətinin məqsədlərinə xidmət edir. Konkret olaraq, qurultay intellektual gəncliklə bağlı Proqramda nəzərdə tutulan vəzifələrin icrasına töhfə vermək məqsədi ilə təşkil edilib (8). Çünki müasir dövrün sosial-siyasi reallıqları, dünyanın yeni çağırışları hər bir ölkənin intellektual gəncliyi

qarşısında bir sıra mühüm vəzifələr qoyur. Həmin vəzifələr Prezidentin həyata keçirdiyi elm siyasətində dəqiq müəyyənləşdirilib. Onlar həm Azərbaycan gəncliyinin elmi fəaliyyətdə daha fəal iştirakını təmin etməyə, həm də Azərbaycan elminin dünya elminə sürətli inteqrasiyasına xidmət etməkdədir. Buna görədir ki, ölkədə və xaricdə yaşayan gənc Azərbaycan alimlərinin elmi fəaliyyəti müasir tələblər səviyyəsində koordinasiya edilməlidir. Azərbaycanlı gənclər daha geniş miqyasda elmi fəaliyyətə cəlb olunmalıdırlar. Akademik Akif Əlizadə vurğulayıb ki, biliklər cəmiyyətinin qurulmasında gənclərin rolunun artırılması istiqamətində bir sıra işlər görülüb. Bu sırada son illər AMEA-nın 100-ə yaxın gənc aliminin dünyanın nüfuzlu elmi mərkəzlərinə ezam olunması xsusi yer tutur. Həmin istiqamətdə proses davam edir.

AMEA prezidenti nitqində bizi maraqlandıran problem kontekstində çox maraqlı fikirlər irəli sürüb. Kademik Akif Əlizadə deyib: "Gənclərimiz Dubna şəhərindəki Birləşmiş Nüvə Tədqiqatları İnstitutu, Cenevrədə yerləşən Avropa Nüvə Tədqiqatları Təşkilatı (CERN) və digər beynəlxalq elmi mərkəzlərdə aparılan qlobal elmi layihələrdə yaxından iştirak edir. Molekulyar biologiya və biotexnologiyalar sahəsində gənc alimlərin apardığı tədqiqatlar nəticəsində Azərbaycanda ilk dəfə olaraq xüsusi bitkilərdə fitoplazma patogeni aşkar olunub, dünya elmi üçün dörd yeni genotip müəyyən edilib. Akademiyanın gənc alimlərinin yaxından iştirakı ilə yeni sinif unikal funksional materiallar – topoloji izolyatorlar sintez olunub, Avropa Birliyi ölkələri və Yaponiyanın elmi müəssisələri ilə birlikdə tədqiq edilib" (8).

Bunlar bizim yuxarıda vurğuladığımız əsas məqamlar kontekstində tam yerinə düşən fikirlərdir. Konkret desək, aydın görünür ki, Azərbaycan rəhbərliyinin həyata keçirdiyi elm siyasətində Azərbaycan elminin dünya elminə inteqrasiyası mühüm yer tutur və bu vacib siyasətin reallaşması istiqamətində sistemli addımlar atılır. Həmin sırada Gənclər və İdman Nazirliyinin "İstedadların hazırlığı laboratoriyası" layihəsinin və milli "İdeya var!" müsabiqəsini də ayrıca qeyd etmək olar.

Qeyd edilən çərçivədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin XXI əsrin milli təhsil quruculuğunun "yol xəritəsi" sayılan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq həyata keçirilən layihələrin də əhəmiyyəti böyükdür. 2014-cü ildə SABAH qruplarının yaradılması, "Sabahın alimləri" respublika müsabiqəsinin keçirilməsi, respublika və beynəlxalq fənn olimpiadalarının təşkili, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemilə tədrisin təşkili Qaydaları"na dəyişikliklər edilməsi və tələbələrə uzunmüddətli güzəştli kreditlər verilməsi dövlətin elm və təhsil siyasətinin strateji maraqlarına cavab verən addımlardır. İndi orta ümumtəhsil məktəblərində Kiçik Akademiyalar fəaliyyətə başlayıb. Onlar alimlərlə əlaqələrin yaradılmasında, şagirdlərə tədqiqat aparmaq, elmi nəticələri ümumiləşdirmək və onları təqdim

etmək bacarıqlarının aşılanmasında, şagirdlər üçün konfrans və müsabiqələrin təşkil edilməsində xüsusi əhəmiyyətə malikdirlər.

Bunların fonunda Təhsil Nazirliyinin Avropa Komissiyası, AMEA və bir sıra ali təhsil müəssisələrinin iştirakı ilə həyata keçirilən "Nizami" layihəsi və 2017-ci ildə "Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi qaydası"nın təsdiq olunması elmlə təhsilin inteqrasiyası prosesində ciddi rol oynadığı aydın hiss edilir.

Gənc alimlərin I Qurultayında təhsil nazirinin müavini Ceyhun Bayramovun üzərində dayandığı bir fikir yuxarıda ifadə olunan tezislərin işığında aktual görünür. C.Bayramov çıxışnda vurğulayıb: "Bu işdə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən aktual elmi araşdırmalara vəsaitin ayrılması, ali təhsil müəssisələrinin və elmi təşkilatların maddi-texniki bazasının gücləndirilməsi, elmi məqalə və elmi jurnalların keyfiyyətinin təmin edilməsi, informasiya kommunikasiya resurslarından istifadənin genişləndirilməsi davamlı inkişafa xidmət edir" (8).

Beləliklə, Prezident İlham Əliyevin həyata keçirdiyi elm siyasətinin tərkibi kimi Azərbaycan elminin dünya elminə inteqrasiyası prosesi mühüm yer tutur. Bununla bağlı bir sıra dövlət orqanları sistemli, düşünlümüş və ardıcıl olaraq proqramlar reallaşdırırlar. Onlar kompleks halında dövlət başçısının elm və təhsil sahəsində çalışanlar qarşısında qoyduğu məqsədlərə çatmaq istiqamətində əhəmiyyət daşıyırlar. Şübhə yoxdur ki, Azərbaycan digər sahələrdə olduğu kimi, elm və təhsil sferasında da böyük uğurlar qazanmaqda davam edəcək.

## ƏDƏBİYYAT

1. Azərbaycanın gənc alimlərinin birinci qurultayı keçirilib/ AZƏRTAC, 15.12.2017//https://azertag.az/xeber/Azerbaycanin_genc_alimlerinin_birinci_qurultayi_kechirilib_VIDEO-1121332
2. AzScienceNet Elm-Kompüter Şəbəkəsinin fəaliyyəti gücləndirilir/AMEA İnformasiya Texnologiyaları İnstitutu, 15.12.2016//http://ict.az/az/news/ 1975/
3. Bakı Elm Festivalı/ http://elmfestivali.az/az/content/101
4. Borner K. et al. Mapping the Structure and Evolution of Science. Knowledge in Service to Health : Leveraging Knowledge for Modern Science Management . http :// grants . nih. gov / grants / km / oerrm / oer _ km _ events / borner. Pdf
5. Elmin İnkişafı Fondu və "Thomson Reuters" şirkəti "Web of Science" mükafatları-2016"nı təqdim edib/AZƏRTAC, 08.11.2016//https://

azertag. az/xeber/ Elmin_Inkisafi_Fondu_ve_Thomson_Reuters_sirketi_Web_of_ Science_mukafatlari_2016ni_teqdim_edib-1008761)
6. CERN/https://home.cern
7. Gəncədə "XXI əsrdə dünya elminin inteqrasiya prosesləri" mövzusunda gənc alim və mütəxəssislərin Beynəlxalq Forumu/ http://pf.gdu.edu.az/?p= 1407.
8. Флек Л. Возникновение и развитие научного факта: Введение в теорию стиля мышления и мыслительного коллектива. Составл., предисл., перевод с англ., нем., польского яз., общая ред. Поруса В. Н. М.: Идея-Пресс, Дом интеллектуальной книги, 1999, 220 с.

**UOT 94(479.24)**

# SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ VƏ AZƏRBAYCAN (XVI-XVIII əsrin birinci yarısı)

***Abbas Seyidov, Gülər Qafqazlı***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*abbas.seyidov@gmail.com*

**Açar sözlər:** *Azərbaycan, Səfəvi dövləti, Osmanlı dövləti, Səfəvi-Osmanlı müharibələri, təsərrüfat həyatı*

*Məqalədə 1514-cü il avqustun 23-də Səfəvilərlə Osmanlılar arasında baş verən Çaldıran döyüşündən sonra 200 ildən artıq fasilələrlə baş vermiş müharibələrdən bəhs olunur. Bu müharibələrin getdiyi əsas torpaqlar Azərbaycan əraziləri idi. Saysız-hesabsız döyüşlərin getdiyi və tapdaq altında qalan Azərbaycan torpaqları yüz illərlə inildədi, iqtisadiyyat çökdü, insanlar ya könüllü şəkildə, ya da məcburi olaraq öz ata-baba torpaqlarını tərk etmək məcburiyyətində qaldılar. Aclıq, səfalət hökm sürdü. Bu müharibələr Azərbaycan tarixində acı həqiqətlər kimi qaldı. Bunun ən ağır sonluğu isə 1736-cı ildə dövrünün ən böyük imperiyalarından olan Səfəvilər dövlətinin tarixə qovuşması oldu.*

## СЕФЕВИДО-ОСМАНСКИЕ ВОЙНЫ И АЗЕРБАЙДЖАН (XVI век и первая половина XVIII века)

***Аббас Сеидов, Гюляр Кавказлы***

**Ключевые слова:** *Азербайджан, Сефевидское государство, Османская империя, Сефевидо-Оманские войны, хозяйственная жизнь.*

*В статье говориться о войнах переодически возниксшие в течение 200 лет после Чалдыранской битвы 23-го августа 1514-го года между Сефевидоми и Османской империи. Эти войны происходили в основном на Азербайджанской территории. Азербайджанские земли на которых шли бесконечные войны стали причиной распада экономики, и проживающие в этих территориях население или добровольно, или вынужденно покидали свои родные края. Среди населения царила голод и нищета. Эти войны*

*остались в истории Азербайджана как горькая правда. Самым тяжелым концом этого периода стало исчезновение Сефевидского государства в 1736-ом году.*

## SAFAVID-OTTOMAN WARS AND AZERBAIJAN (16th and the first half of 18th century)

***Abbas Seyidov, Gular Gafgazlı***

**Key words:** *Azerbaijan, the Safavid state, the Ottoman Empire, Safavid-Ottoman wars, economic life*

*The article deals with the wars that have taken place over 200 years after the Chaldiran battle between the Safavids and the Ottoman Empire on August, 23, 1514. These wars took place mainly on the territory of Azerbaijan. Lands of Azerbaijan where endless wars tookplace caused the collapse of the economy, and the people living in these territories either voluntarily or in voluntarily left their omelands. Hunger and pover tyreigned among the population. These wars remained in the history of Azerbaijan as bitter truth. The most difficult end of this period was the disappearance of the Safavid state in 1736.*

1501-ci ilin payızı... İsmayıl ağqoyunlu Əlvənd Mirzə üzərində parlaq qələbə qazanır və təntənəli şəkildə Təbrizə daxil olub, özünü şah elan edir. Beləliklə, sosial-iqtisadi cəhətdən daha da inkişaf etmiş, əhalinin etnik və mədəni birliyə malik çoxluğunu təşkil edən Azərbaycan türklərinin yaşadığı ərazidə mərkəzi Təbriz olan Səfəvilər dövlətinin əsası qoyulur.

Şah İsmayıl Səfəvi Vətən tarixində çox parlaq simalardan biri olub. O, və onun davamçıları əllərində qılınc doğma Vətəninin, xalqının taleyini dəyişərək, onları qarışıq cəmiyyətdən öz dövrünün nəhəng imperiyasına, sayılıb-seçilən millətinə yüksəltdi [1, c.4].

Şah İsmayıl 1503-cü ilin iyununda Həmədan yaxınlığında, Almaqulağı adlanan yerdə ağqoyunlu Murad üzərində qələbə qazanaraq İran və Əcəm İraqının bir hissəsinə sahib oldu. Elə həmin ildə Qum, Kəşan, İsfahan tutuldu. 1504-cü ildə Gülxəndan, Firuzğux, Ust qalaları, 1505-ci ildə Yəzd və Kirman təslim oldu. 1506-1508-ci illərdə Bağdad şəhəri də daxil olmaqla Diyarbəkr, Xilat, Bitlis, Ərciş və Ərəb İraqı, 1508-ci ildə bütün İran (Xorasan istisna olmaqla) İsmayılın tabeçiliyinə keçdi [2, s.421-422].

1510-cu il dekabrın 1-də Şah İsmayılın qızılbaş qoşunu ilə Özbək xanı Şeybani arasında Mərv yaxınlığında gedən döyüşdə ikincinin məğlubiyyətindən

və Xorasanın ələ keçirilməsindən sonra Səfəvilər imperiyasının sərhədləri şərqdə Mərkəzi Asiyada Amu-Dəryadan - qərbdə Anadoluda Fərat çayına qədər geniş əraziləri əhatə edirdi.

Artıq bu müvəffəqiyyətlər Səfəviləri Osmanlı dövləti ilə münasibətlərin kəskinləşməsinə aparırdı. Bu isə böyük türk dünyasının ən böyük acısı, düşmənlərin isə gözlədiyi sevinci idi. 1514-cü il avqustun 23-də Səfəvilərlə Osmanlılar arasında baş verən Çaldıran döyüşü özündən sonra 200 ildən artıq fasilələrlə baş verəcək müharibələrin əsasını qoydu. Bu müharibələrin getdiyi əsas torpaqlar Azərbaycan əraziləri idi. Saysız hesabsız qoşunların, onların atlarının tapdağı altında Azərbaycan torpaqları yüz illərlə inildədi, iqtisadiyyat çökdü, insanlar ya könüllü şəkildə, ya da məcburi şəkildə öz ata-baba torpaqlarını tərk etmək məcburiyyətində qaldılar. Aclıq, səfalət hökm sürdü. Amansız xəstəliklərin ardı-arası kəsilmədi. Bu müharibələr Azərbaycan tarixində acı həqiqətlər kimi qaldı.

Çaldıran döyüşündən sonra 1531-1532-ci illərdə Fil paşanın başçılığı ilə Azərbaycan üzərinə osmanlıların yeni hücumu başladı. 1534, 1535, 1548, 1554-cü illərdə Osmanlı Sultanı I Süleymanın Azərbaycana yürüşləri oldu. 1552-1553-cü illərdə Səfəvi şahı I Təhmasib Osmanlı torpağına hücum edib, böyük qənimətlə qayıtdı. Bu mərhələ 1555-ci ildə Amasya sülh müqaviləsi ilə başa çatsa da, sülhü uzun müddət qorumaq mümkün olmadı.

1578-1590-cı illərdə Osmanlı və Krım türklərinin hücumları nəticəsində Azərbaycanda, xüsusən də Şirvan ərazisində çoxlu dağıntılar, talan və qarətlər baş verdi. 1586-1589-cu illərdə demək olar ki, bütün Azərbaycan torpaqları osmanlılar tərəfindən işğal edildi. Bu işğal da 1590-cı ilin 21 martında İstanbul sülh müqaviləsi ilə yekunlaşdı [3, s.68-76].

Müharibənin yeni dalğası 14 sentyabr 1603-cü ildə I Şah Abbasın Azərbaycan torpaqlarını işğaldan azad etməsi cəhdləri ilə başladı. 1605-ci ilə qədər bir neçə uğurlu əməliyyat keçirən I Şah Abbas həmin ilin mayında Osmanlı sərkərdəsi Sinan paşanın böyük ordu ilə gəldiyini eşidib, İrəvandan Naxçıvana və Təbrizə qədər yerləşən ərazilərdə insanları köçürdü və ərzaq ehtiyatlarını məhv etdi. Sinan paşanın qoşunları 7 noyabrda Sufiyan yaxınlığında darmadağın edildi. 1606-cı ildə Gəncə, 1607-ci ildə Dərbənd, Bakı, Şamaxı osmanlılardan azad olundu [4, s.250-251].

1610-1611-ci illərdə osmanlılar yenidən Murad paşanın rəhbərliyi altında Təbrizə qədər irəliləyib, şəhəri tutdular. 1612-ci il noyabrın 20-də İstanbulda Səfəvilərlə Osmanlılar arasında yeni sülh müqaviləsi imzalandı.

1616-1617-ci illərdə Qara Mehmet paşanın başçılığı ilə Osmanlı və Krım xanı Cani bəy Gərayın qoşunları yenidən Azərbaycan ərazisinə daxil oldu. Gəncə, Naxçıvan, Culfa şəhərləri yenidən talandı. I Şah Abbasın əmri ilə Təbriz və Ərdəbil şəhərlərinin əhalisi köçürüldü. Bu mərhələ də Səfəvilərin qələbəsi ilə

başa çatdı və 26 sentyabr 1618-ci ildə Mərənddə sülh müqaviləsi imzalandı [3, s.92-93].

1624-cü ildə I Şah Abbasın Bağdad üzərinə yürüşü ilə Səfəvi-Osmanlı müharibəsi yenidən alovlandı və 1631-ci ilə qədər davam etdi. Tərəflərdən gah birinin, gah da digərinin üstünlüyü davam edirdi. Müvəqqəti nisbi sakitlikdən sonra 1634-cü ildə IV Sultan Murad Azərbaycana yürüş etdi. İrəvan, Təbriz şəhərləri təslim oldu. 1635-də hər iki şəhər gərgin döyüşlərdən sonra geri qaytarıldı.

1638-1639-cu illərdə hərbi əməliyyatlar Bağdad və ətrafında davam etdirildi. Bunun sonucu kimi, 1639-cu ilin mayında Qəsri-Şirində sülh müqaviləsi ilə bu mərhələ də belə başa çatdı.

1722-1728-ci illərdə rusların Xəzəryanı vilayətləri ələ keçirməsi Osmanlı qoşunlarının yeni hücum dalğasının başlamasına səbəb oldu. 1723-cü ildə Osmanlı ordusu Kartli, Kaxetiya, Naxçıvan, İrəvan, Gəncə və bir qədər sonra bütün Azərbaycan ərazisini işğal etdi. 1724-cü il iyulun 12-də İstanbulda Rusiya ilə Osmanlı dövləti arasında müqavilə imzalandı. Bakı, Dərbənd, Gilan, Mazandaran və s. Xəzəryanı ərazilər Rusiyaya verildi, digər Azərbaycan torpaqları-daha doğrusu Səfəvi dövlətinin şimal-qərb torpaqları və Gürcüstan Osmanlı Türkiyəsinin təsiri altına düşdü. Lakin sülh müqaviləsindən sonra da Osmanlı yürüşləri davam etdi. Səlmas, Xoy, Mərənd, Marağa, Həmədan, 1725-də Təbriz, Ərdəbil türklər tərəfindən tutuldu. Bu müharibə də 1727-ci ilin oktyabrında Həmədan sülhü ilə başa çatdı. Osmanlılar bütün Azərbaycana yiyələndilər [5, s.340-349; 3, s.115-116].

1724-1735-ci illərdə işğal altında olan Azərbaycan ərazilərində əhalinin ruh düşgünlüyü nəticəsində təsərrüfatın müəyyən sahələrinin, sənətkarlığın çökməsi halları müşahidə olunur. XVI-XVII əsrlərin mühüm sənətkarlıq ocaqlarından olan Təbriz, Marağa, Qəzvin, Naxçıvan, Mərənd, Ərdəbil və s. şəhərlər iqtisadi mərkəzlər sayılırdı [6, s.13-21; 7, s.92-120]. Tədqiqatçılar qeyd edirlər ki, bu dövrdə Səfəvi məmləkətində 44 sənət və peşə növü var idi. Onların içərisində toxuculuq, başmaqçılıq, dərzilik, misgərlik, dulusçuluq, dabbağlıq, bənnalıq və silah istehsalı xüsusi yer tuturdu [8, c.42-43].

Yuxarıda qısa şəkildə də olsa, 1514-cü ildə baş vermiş Çaldıran döyüşündən sonra, təxminən 210 ildən artıq sürən Osmanlı-Səfəvi müharibələrinin qısa xronologiyasını araşdırdıq. Uzun sürən müharibələrlə yanaşı, bizim söyləmədiyimiz elə məqamlar olub ki, hər iki tərəfin hərbi sərkərdələri fürsət düşən kimi qonşu əraziləri yağmalamaqla məşğul olublar. Bu müharibələrdən kimlər qazandı? Kimlər itirdi?

Söz yox ki, ən böyük, ölçüsü olmayan itkiyə məruz qalan Azərbaycan torpaqları idi. Azərbaycan ərazisi əldən-ələ keçərək dağıdıldı, təsərrüfatı məhv edildi. Siyasət xətrinə, yeri gəldi-gəlmədi zorla dinc əhali ayrı-ayrı vilayətlərə köçürüldü. Torpaqlar boşaldıldı, mal-qara əllərdən alındı. Xalq ümidsiz və

çarəsiz qaldı. Təkcə, XVII əsrin əvvəllərində I Şah Abbasın "Böyük sürgün" adlandırılan siyasətinin nəticəsində Araz çayının sol sahilində, 300-500 km məsafədə yaşayan əhali köçürülmüş, yaşayış evləri, təsərrüfat sahələri dağıdılmış, içməli su quyuları zəhərlənmiş, otlaqlar yandırılmışdı. Vandan başlayaraq İrəvan, Naxçıvan, Culfa və Təbrizə qədər olan ərazilərin əhalisi bu acıları yaşamışlar [9, s.289-290].

Qazanan isə Avropa və Asiyanın qonşuluğumuzda yerləşən ölkələri idi. Hələ XVI əsrin başlanğıcında-Səfəvilər dövləti yarananda onlardan şərqdə Özbək Şeybani türk dövləti, qərbdə-Osmanlı türk dövləti, mərkəzdə isə Səfəvi türk dövləti var idi. Şeybani xanın 1510-cu ildə ölümündən sonra, Özbək dövləti bir sıra torpaqlar üzərində nəzarəti itirdi.

1526-cı ildən başlayaraq yenə də Kiçik, Ön və Mərkəzi Asiyada, habelə Uzaq Şərqin çox hissəsində hakim xalq türklər idi: qərbdə-Osmanlılar (1299-1923) artıq Avropanın içərilərinə doğru irəliləməkdə idilər. Şərqdə Baburun yaratdığı Böyük Moğollar (1526-1857) günbəgün ərazilərini genişləndirirdi. Mərkəzdə isə Səfəvilərlə Osmanlılar arasında gedən aramsız və amansız müharibələr türk-müsəlman dünyasının tədricən gələcək uğurlarının tükənməsinə xidmət edirdi.

Səfəvi-Osmanlı müharibələrində qalib gələn osmanlılar özünün ənənəvi dövlətçilik prinsiplərinə uyğun olaraq, işğal etdiyi yerlərdə idarəçilik sistemini yenidən qurur və bu məqsədlə yeni inzibati-ərazi bölgüsü aparır, yerli əhalini və vergi obyektlərini siyahıya alırdı. Bu tədbirlərin nəticəsi öz əksini o dövrdə yeni tərtib olunan maliyyə-vergi reyestrlərində (müfəssəl və icmal dəftərlərində) tapırdı. Rəsmi dövlət sənədi statusu daşıyan bu dəftərlər bu gün həmin regionların sosial-iqtisadi vəziyyətini, etnodemoqrafik prosesləri öyrənmək baxımından çox dəyərli mənbələrdir [10, s.3].

Osmanlı işğalı altında olan bütün əyalətlər üzrə dəftərlər iki nüsxədə hazırlanır və təsdiq olunmaq üçün paytaxta göndərilirdi. Təsdiq edildikdən sonra dəftərin bir nüsxəsi nəzarət üçün paytaxtda saxlanılır, digər nüsxəsi isə icra olunmaq üçün müvafiq əyalətə göndərilirdi [11, s.43]. Bu dəftərlərin hamısı xüsusi tərtib olunmuş "Qanunnamə" ilə başlayırdı. Qanunnamədə Osmanlı vergi siyasətinin əsas istiqamətləri əks olunurdu. Bu sənədlərdə əyalətin sərhədləri, təbii-coğrafi şəraiti, əhalinin əsas məşğuliyyəti haqqında məlumatlar verilir, ən əsası isə ödəniləcək vergi və rüsumların dəqiq miqdarı müəyyənləşdirilirdi [12, s.13].

Belə dəftərlər sırasına "İrəvan sancağının müfəssəl dəftəri" [13], "Naxçıvan sancağının müfəssəl dəftəri" [14], "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"[15], "Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı)" [16], "Lori vilayətinin icmal dəftəri" [17], "Ərdəbil livasının müfəssəl dəftəri" [18] "Marağa livasının müfəssəl dəftəri" [10], "Urmiya, Xalxal livaları və Salmas qəzasının müfəssəl dəftəri" [19], "Təbriz sancağının müfəssəl dəftəri"

[20], Xoy livasının müfəssəl dəftəri [21], Həmadan livasının müfəssəl dəftəri [22] daxildir.

Göründüyü kimi, Çaldıran döyüşündən sonra iki əsrdən artıq müxtəlif fasilələrlə davam edən Səfəvi-Osmanlı müharibələri XVIII əsrin birinci yarısında Azərbaycan torpaqlarının iki dövlət – Osmanlı və Rusiya arasında müvəqqəti də olsa, bölüşdürülməsi ilə nəticələndi. Bunun ən ağır sonluğu isə 1736-cı ildə dövrünün ən böyük imperiyalarından olan Səfəvilər dövlətinin tarixə qovuşması oldu.

## ƏDƏBİYYAT

1. Мехтиев Р. ШахИсмаилСефеви. Портрет правителья и воина, часть I, Баку, «Şərq-Qərb», 2014, 256 стр.
2. Azərbaycan tarixi. (Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə), Bakı, “Çıraq”, 2007, 720 səh.
3. Süleymanov N.M. Azərbaycan Səfəvi dövləti, 1501-1736-cı illər., Bakı, “İqtisad Universiteti”, 2018, 214 səh.
4. Məmmədov İ.M. Azərbaycan tarixi (Ali məktəblər üçün dərslik), Bakı: Adiloğlu, 2005, 486 səh.
5. Məhərrəmov İ.B. Azərbaycan tarixi. Ən qədim dövrlərdən XIX əsrədək. Ali texniki məktəb tələbələri üçün dərslik. Bakı: Xəzər Universitəsi, 2017, 440 səh.
6. Süleymanov N.M., Seyidov A.Q. XVI-XVII əsrlərdə Təbriz şəhərinin iqtisadi həyatında sənətkarlığın və ticarətin inkişafı. “Tarix, insan və cəmiyyət” jurnalı, № 1 (14), 2016, s.13-21.
7. Süleymanov N.M., Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2012, 442 səh.
8. Гейдаров М.Х. Ремесленноепроизводство в городахАзербайджана в XVII веке. Баку, Изд. АН Азерб.ССР, 1967, 200 стр.
9. Naxçıvan tarixi. Üç cilddə, I cild, Naxçıvan, “Əcəmi”, 2013, 452 səh.
10. Qafqazlı G.Ə. XVIII əsrin əvvəllərində Osmanlı hakimiyyəti dövründə Marağa livası., t.ü.f.d. dissertasiyasının avtoreferatı, Naxçıvan, 2018, 25 səh.
11. Мамедов Г.М. НекоторыевопросыОсманскойналоговойсистемы в 20-30-х годах XVIII века. Azərb. SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, № 1, 1984, s.41-49.
12. Abbaslı X. Gəncə-Qarabağ əyalətində iqtisadi vəziyyət (1725-1735-ci illər). “Tarix, insan və cəmiyyət” jurnalı, № 3 (22), 2018, səh. 11-20.
13. İrəvan sancağının müfəssəl dəftəri. Araşdırma, tərcümə və qeydlər H.Məmmədov Bakı: Elm, 1996, 184 səh.

14. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). Tərcümə edənlər akad.Z.Bünyadov və H.Məmmədov, Bakı: Elm, 2001, 376 səh.

15. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri.Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov), Bakı: Şuşa, 2000, 576 səh.

16. Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı)". Giriş, tərcümə və qeydlərin müəllifi Mustafayev Ş. Bakı: Pedaqogika, 2001, 256 səh.

17. "Lori vilayətinin icmal dəftəri". Ön söz, mətnin tərtibi və qeydlərin müəllifi t.e.n. Mustafayev Ş., Bakı: Nurlan, 2004, 87 s.

18. Ərdəbillivasının müfəssəl dəftəri. Araşdırmanın, transliterasiyanın müəllifi E.Arıklı, Bakı: Nurlan, 2004, 857 səh.

19. Urmiya, Xalxal livaları və Salmas qəzasının müfəssəl dəftəri.(Nəsirova Y.B. XVIII əsrin əvvəllərində Osmanlı hakimiyyəti dövründə Urmiya Xalxal bölgələrinin sosial-iqtisadi vəziyyəti, t.ü.f.d. dissertasiyasının avtoreferatı), Naxçıvan, 2018, 25 s.

20. Təbriz sancağının müfəssəl dəftəri (bu dəftər iki hissədən ibarətdir. BOA TT № 904, № 908 nömrəli arxiv sənədləridir-bu dəftərlər hələ çap olunmayıb).

21. Xoy livasının müfəssəl dəftəri (BOA TT № 911 nömrəli arxiv sənədi).

22. Həmadanlivasının müfəssəl dəftəri (BOA TT № 907 nömrəli arxiv sənədi).

**UOT: 577.4:34 (079.24)**

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏTRAF MÜHİTİN QORUNMASININ HÜQUQİ ƏSASLARINA DAİR

(müstəqillik dövrü)

***Yusif Mahmudov***
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu*

**Açar sözlər:** *ekoloji hüquq, sərəncamlar, qanun və qərarlar, beynəlxalq konvensiyalar, normativlər, ekoloji tədbirlər*

*Elmi - metodiki əsasını təbii sərvətlər təşkil edən ekoloji hüquq ətraf mühitin optimal vəziyyətdə saxlanmasına və təbii komplekslərin qorunmasına dair qanunçuluqdan ibarətdir. Məqsəd əhalinin normal həyat fəaliyyətini təmiz və sağlam ətraf mühit ilə təmin etməkdir [19].Təbii sərvətlərdən səmərəli istifadə və ətraf mühitin qorunmasına dövlətin qayğıkeş münasibəti öncə bu sahədə mövcud hüquqi baza ilə müəyyən edilir. Ona görə də, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra ekoloji-hüquq sahəsində qanunçuluğun inkişafına xüsusi diqqət yetirdi; ətraf mühitin qorunmasına və təbii ehtiyatlardan səmərəli istifadəyə yönəlmiş qanunvericilik bazası yaradıldı[4, 8, 15, 17].*

## TO LEGAL BASES OF ENVIRONMENT PROTECTION OF THE AZERBAIJAN REPUBLIC

(Independence period)

***Yusif Mahmudov***

**Key words:** *Ecological right, orders, laws and resolutions, international conventions, standards, ecological actions.*

*The caring attitude of the state to effective use of natural wealth and environment protection, first of all, is defined by the legal base existing in this area. Therefore after restoration of the state independence the Azerbaijan Republic deleted special attention to development of the legislation in the field of the ecological right.*

*For the purpose of the help to the solution of environmental problems in article the works which are carried out in the field of the ecological right are considered. It is noted that in the independence period as in other areas, and in the field of conservation have been begun to implementation of conceptual actions. In the course a research the main directions of environmental policy of the state, in connection with creation of legal base against the background of these actions have been investigated.*

## К ЮРИДИЧЕСКИМ ОСНОВАМ ЗАЩИТЫ ОКРУЖАЮЩЕЙ СРЕДЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

(период независимости)

***Юсиф Махмудов***

**Ключевые слова:** *Экологическое право, распоряжения, законы и постановления, международны еконвенции, нормативы, экологические мероприятия.*

*Заботливое отношение государства к эффективному использованию природных богатств и защиты окружающей среды, в первую очередь, определяется юридической базой, существующей в этой области. Поэтому после восстановление государственной независимости Азербайджанская Республика удаляла особенное внимание к развитию законодательства в области экологического права.*

*С целью помощи к решению экологических проблем в статье рассматриваются работы, осуществленные в области экологического права. Отмечается, что в периоде независимости, как в других областях, и в области охраны природы были начаты к осуществлению концептуальных мероприятий. В ходе исследовании были исследованы основные направления экологической политики государства, в связи с созданием юридической базы на фоне этих мероприятий.*

Ekologiyanın hüquqi əsaslarının yaradılmasına hələ Azərbaycanın SSRİ-nin tərkibində olduğu dövrdəbaşlanılmış, Müstəqillik Aktı qəbul edilənədək (1991) təbiəti mühafizə və təbiətdən səmərəli istifadə sahəsində qanunlar qəbul edilmişdir[2, 10, 11]. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, digər sahələrdə olduğu kimi təbiətin mühafizəsi sahəsində də konseptual tədbirlər həyata keçirilməyə başlandı. Az vaxtda ekoloji problemlərin həllinə kömək məqsədilə ekoloji hüquq sahəsində xeyli işlər görüldü: yeni qanunlar

hazırlandı, əvvəllər qəbul olunmuş qanunlarda dəyişikliklər aparıldı və s. Ətraf mühitin qorunması və istifadəsinə dair qanunvericilik aktları tələblərinin pozulmasına görə inzibati, mülkü və cinayət məsuliyyəti müəyyən olundu [5,6, 7]. Nəticədə, ardıcıl şəkildə ölkənin ekologiya hüququnu özündə cəmləyən hüquqi sənədlər qəbul edildi. Müstəqilliyin bərpasından sonra qəbul olunmuş "Azərbaycan Respublikasının ekoloji konsepsiyası"nda ətraf mühitin mühafizəsi baxımından mühüm əhəmiyyət kəsb edən problemlərin həlli üzrə prinsiplər öz əksini tapıb.

Ətraf mühitin mühafızəsini tənzimləyən qanunvericilik aktlarını aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar, Milli Məclis tərəfindən ratifikasiya olunmuş beynəlxalq sənədlər
3. Respublika Prezidentinin fərman və sərəncamları
4. Respublika Nazirlər Kabinetinin qərarları
5. Mərkəzi icra hakimiyyəti orqanının normativ sənədləri.

1992-ci ilin 25 fevralında Azərbaycan Respublikası Ali Soveti Milli Şurası "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında" Müstəqil Azərbaycan Respublikasının ilk ekoloji qanununu, 10 noyabr 1992-ci il tarixdə isə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının qanununu qəbul etdi. Azərbaycan Respublikasının Prezidenti 07.09.1992-ci il tarixdə "Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Fərman imzaladı. Azərbaycan Respublikasının Nazirlər Kabineti isə "Təbii ehtiyatlarına görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında" 03.03.1992-ci il tarixli 122 saylı qərar verdi. Nazirlər Kabineti 08.06.1992-ci il tarixdə "Azərbaycan Respublikasında geniş yayılmış faydalı qazıntı yataqlarının qanunsuz işlədilməsi nəticəsində təbiətə dəymiş ziyanın ödəmə normativlərinin tətbiq edilməsi haqqında" növbəti qərarını qəbul etdi [23]. Həmin ildən başlayaraq, ətraf mühitin mühafizəsini tənzimləyən 30-a yaxın qanun qəbul olundu.

1995-ci il 12 noyabrda ümumxalq səsverməsi (referendumu) ilə qəbul olunmuş Müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasında "Sağlam ətraf mühitdə yaşamaq hüququ" və "Ətraf mühitin qorunması" maddələri ayrıca təsbit olundu [9].Qeyd etmək lazımdır ki,ekoloji qanunvericilik bazasının yaradılması ekoloji sahənin idarəolunma strukturunun təkmilləşdirilməsinə də təkan verib.Belə ki, Respublika Prezidentinin 23 may 2001 tarixli fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yaradıldıqdan sonra ətraf mühitin mühafizəsi sahəsində görülən işlərin miqyası xeyli artıb. Dövlət müstəqilliyinin bərpasının birinci onilliyində ekoloji mühitin yaxşılaşdırılıması

məqsədilə Bakı şəhər İcra Hakimiyyətinin nəzdində xüsusi əhəmiyyət daşıyan "Abadlaşdırma və Park-Bağ Təsərrüfatının İnkişafı Departamenti"yaradılıb. Altı idarəni özündə birləşdirən departamentin əsas fəaliyyəti paytaxtın abadlaşdırılması ilə bərabər, yaşıllıqların və meşə zolaqlarının mühafizəsi, yeni bağların salınması, şəhər ətrafında əmələ gəlmiş süni göllərin qurudulması, çirkabların təmizlənməsi, şəhər ərazisindəki torpaqların rekultivasiyası və s. həyata keçirməklə əhalinin sağlamlığı və ətraf mühitin qorunması kimi vacib problemin həllinə yönəlib [1].

Ölkədə ətraf mühitin mühafizəsi tədbirlərini gücləndirmək məqsədilə "Bitki mühafizəsi haqqında" (1996),"Meşə Məcəlləsi" (1997), "Su Məcəlləsi", "Heyvanlar aləmi haqqında" (1999), "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" (2000) Azərbaycan Respublikasının qanunlarına, Milli Məclis tərəfindən ratifikasiya olunmuş beynəlxalq konvensiyalar və razılaşmalara, o cümlədən "Bioloji müxtəliflik haqqında", "Bitki mühafizəsi haqqında", "Avropa landşaftı", "YUNESKO-nun əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan su-bataqlıq yerlər haqqında", "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa konvensiyaları"nauyğun olaraq[18, 24,25], xüsusi qorunan ərazilərə yenidən baxılıb və ya yeniləri yaradılıb. Hazırda Azərbaycanda 11 dövlət təbiət qoruğu, 24 dövlət təbiət yasaqlığı, 9 milli park, yaşı 100-dən yuxarı 2083 ağac, 37 geoloji və paleontoloji obyektlər və 15 min hektar endemik və qiymətli meşə növü sahələri vardır. Respublikada xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 892.546,49 hektardır və ümumi ərazinin 10,3%-ni təşkil edir [26].

Təbiət komplekslərinin qorunmasını və bərpasını ETSN həyata keçirir.Xüsusi qorunan ərazilərdən biri kimi qoruqlar mühüm əhəmiyyət kəsb edir.Müxtəlif təbii zonaların xarakterik landşaftlarını, kökü kəsilməkdə olan, yaxud nadir hallarda rast gəlinən bitki və heyvan növlərini, aradan çıxmaq təhlükəsinə məruz qalan təbii komplekslər və onların komponentlərini etibarlı şəkildə qorumaq üçün təşkil olunan Dövlət Təbiət Qoruqları (DTQ)təbiətin ən yaxşı mühafizə formalarından biridir. Qoruqlarda elmi-tədqiqat işlərinin aparılması istisna olunmaqla, hər hansı təsərrüfat fəaliyyəti qadağan edilir. Azərbaycanın ilk dövlət qoruğu 1925-ci ildə yaradılıb və qoruqların təşkili 1990-cı ilə qədər davam etdirilib. Müstəqillik illərində onların ərazisi genişləndirilib və ya yeniləri yaradılıb: Türyançay Dövlət Təbiət Qoruğunun (DTQ) ərazisi genişləndirilərək 22,5 hektara (ha), Pirqulu DTQ-nin ərazisi 2753 ha-dan 4274 hektara, Qarayazı DTQ-nin ərazisi 4803 ha-dan 9658 hektara, İlisu DTQ-nin ərazisi 17381,6 hektara, İsmayıllı DTQ qoruğunun ərazisi 10,96 mindən 16,7 min hektaraçatdırılıb. Şirvan DTQ-nin isə əsas hissəsi Şirvan Milli Park (MP) statusu alıb. Hazırda bu qoruğun ümumi sahəsi 6232 hektardır. 2003-2012-ci illər ərzində 4 yeni qoruq yaradılıb: sahəsi 3139 ha olan Şahbuz DTQ,

sahəsi 1686 ha olan Eldar şamı DTQ , sahəsi 4833,6 ha olan Korçay DTQ və ərazisi 12322,84 ha olan Palçıq vulkanları DTQ.

Respublikadakı təbii sərvətlərdən məhdud istifadə etməklə heyvanların və bitkilərin bəzi növlərinin, su, torpaq, meşə və s. obyektlərin mühafizəsi və ya bərpası məqsədilə 1993-cü ilə qədər ümumi sahəsi 285.000 ha olan 24 Dövlət Təbiət Yasaqlıqları (DTQ) yaradılıb.Qoruqlardan fərqli olaraq, burada torpaq sahələri təsərrüfat dövriyyəsində saxlanılır [3, 84].Ekoloji tarazlığın saxlanması üçün xüsusi əhəmiyyət daşıyan ərazi kimi yasaqlıqlarınyaradılmasına ilk dəfə olaraq 1961-ci ildə başlanıb və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra yeni yasaqlıqların yaradılması işi davam etdirilib. 2003-cü ildən sonra yasaqlıqların ərazisinə yenidən baxılib, yeni yasaqlıqlar yaradılıb və onların rejimi daha çox rasional edilib. Müstəqillik illərində yaradılmış yasaqlıqlara aiddir:

Qəbələ DTY (1993-cü il, ərazisi 39 700 ha), Arazboyu DTY - (Zəngilan,1993-cü il, sahəsi 2200 ha. Hazırda ermənilərin işğalı altındadır və fəaliyyəti tamamilə dayandırılıb), Qax DTY (2003-cü il, sahəsi 36 836 ha), Arazboyu DTY (Naxçıvan, 2005-ci il, sahəsi 9118 ha), Hirkan DTY (2005-ci il, sahəsi 2252 ha), Zaqatala DTY (2008-ci il, sahəsi 6557 ha), Arpaçay DTY (2009-cu il, sahəsi, 68911 ha) və Rvarud DTY (2009-cu il, ərazisi 1333,0 hadır.

Respublikada quru və su sahələrində nadir landşaftların və təbiət abidələrinin səmərəli istifadəsi və mühafizəsi məqsədilə Milli Parklar (MP) yaradılıb. Qoruq və yasaqlıqlardan fərqli olaraq, təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik olan ərazi kimi təbii komplekslərin yerləşdiyi və mühafizə edildiyi MP-lar, həm də ekoloji-tarixi-estetik əhəmiyyət daşıyır və maarifçilik, elmi-mədəni məqsədlər üçün istifadə olunur. Qeyd etmək lazımdır ki, ETSN yaradılmazdan (2001) əvvəl Azərbaycan Respublikasında MP-lar yox idi. 2003-cu ildən başlayaraq ETSN tərəfindən Akademik Həsən Əliyev adına Ordubad MP (ərazisi 12.131,0 ha), Şirvan MP (ərazisi 54.373,5 ha), Ağ göl MP (sahəsi 17.924 ha-a), 2004-cu ildə Hirkan (sahəsi 21.435 ha, 2008-ci ildə ərazisi genişləndirilib: 40.358 ha), Altıağac MP (ərazisi 11.035 ha), 2005-ci ildə Abşeron MP (ərazisi 783 ha), 2006-cı ildə Şahdağ MP (ərazisi 115.895 ha), 2008-ci ildə isə Göygöl MP (sahəsi 12.755 ha) yaradıldı. 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ordubad MP-nin ərazisi genişləndirilərək, sahəsi 42.797,4 ha-a catdırılıb və MP-nin adı dəyişdirilərək Akademik Həsən Əliyev adına Zəngəzur MP (sahəsi 42.797,4 ha) adlandırılıb. 2012-ci ildə isə Samur-Yalama MP-i (ərazisi 11.772,45 ha) yaradılıb.

Qeyd etmək lazımdır ki, su-bataqlıq ərazisi olan Ağgöl MP-i mühüm əhəmiyyətinə görə 2001-ci ildə "Su quşlarının əsas yaşama yerləri" kimi Beynəlxalq Ramsar Konvensiyasına daxil edilib və burada Beynəlxalq Təbiəti Muhafizə İttifaqının "Qırmızı Siyahı"sına və Azərbaycan Respublikasının

Qırmızı kitabına daxil edilmiş quşlar məskunlaşıb. Dünya miqyasında qorunan quşlardan 34 növünə Şirvan MP-da rast gəlinir. Bu quşlar həm Azərbaycanın "Qırmızı Kitabı"na, həm də "Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin "Siyahı"sına daxil edilib. Respublikamızda yayılmış məməli heyvanların bütün dəstələrinin nümayəndələri Şirvan MP-da qeydə alınıb. Hirkan MP-da isə Üçüncü dövrün relikt və endemik bitki növləri mühafizə edilir. Parkın entomofaunasıendem növlərlə zəngindir. Burada "Qırmızı Kitab"a daxil edilən 15-dən çox kəpənək növü qorunub saxlanılır [20].

Hazırda MP-lərin ümumi sahəsi 3.101.365 ha olub, ölkə ərazisinin 3,7%-ni təşkil edir.Qızılağac DTQ ərazisinin genişləndirilərək Dənizkənarı MP-nin yaradılması nəzərdə tutulub. MP-lərin artırılması humanist tədbir kimi, təbiətin qorunması ilə bərabər, həm də əhalinin nəzarətli, zərərsiz istifadəsinə xidmət edir. Ekoloji maarifçilik və turizmin inkişaf etdirilməsi baxımından milli parkların xüsusi əhəmiyyəti vardır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 5 avqust 2006-cı il tarixliqərarına əsasən, xüsusi mühafizə olunan ərazilərin genişləndirilməsi və ekoturizmin inkişaf etdirilməsi məqsədiləQirməki  və Qax təbiət abidələri təşkil olunub[27].

Azərbaycan Respublikası meşəsi az olan ölkədir. Ona görə də bitki örtüyünün mühafizəsində əsas yeri meşələrin qorunması tutur. Bu məqsədlə Azərbaycan Respublikasının "Meşə Məcəlləsi" və "Biomüxtəliflik haqqında beynəlxalq konvensiya"ya uyğun olaraq bir sıra meşəsalma, meşəbərpa və digər yaşıllaşdırma tədbirləri həyata keçirilib. Belə ki, "Azərmeşə" İstehsalat Birliyi 1993-2001-ci illər ərzində respublika üzrə ümumilikdə, 40.339 ha sahədə meşəbərpa tədbirləri aparıb. Bunun 14.647 hektarımeşə əkinlərindən ibarət olub. ETSN-nin yaranması bu sahədə işlərə təkan verib: 2002-2010-cu illərdə respublikanın bütün ərazilərini əhatə etməklə 88.422 ha sahədə meşəbərpa tədbirləri görülüb. Bunun 33.158 hektarını yeni meşələrin salınması təşkil edib[14]. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 18 fevral tarixli 1152 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında Meşələrin Bərpa edilməsi və Artırılmasına dair Milli Proqram" təsdiq olunduqdan sonra bu cür tədbirlərin həyata keçirilməsi xeyli sürətlənib. Məsələn, 2003-2005-cü illərdə meşəsalma müəssisələri tərəfindən səhralaşma prosesinə məruz qalmış ərazilərdə 584 ha sahədə yeni ağaclıqlar və yaşıllıq massivləri salınıb, 69.700 ha sahədə meşəbərpa tədbirləri (yeni meşələrin salınması – 44.700 ha və təbii bərpaya kömək tədbirləri– 25.000 ha) planlaşdırılıb. Bunun 14.300 hektarımeşə fonduna daxil olmayan ərazilərdə  (avtomobil və dəmir yolları kənarlarında, Kür və Araz çayları vadilərində, sututarların kənarlarında və Xəzər dənizi sahillərində) nəzərdə tutulub. ETSN-in xətti ilə Qobustan rayonu ərazisindəki Cəngi yaşayış massivi ətrafında və Qaradağ rayonu ərazisində Şıx çimərliyi yaxınlığında süni meşələr, ARDNŞ tərəfindən isə Xəzər rayonunun Qala

qəsəbəsi ərazisində yaşıl zolaqlar salınıb [3, 79-80].Yaşıllıqların artırılması, onların mühafizəsi ilə bərabər aparılıb. Görülən tədbirlər səmərəli olub.Rəsmi məlumata görə, 2002-ci illə müqayisədə 2007-ci ildə qanunsuz ağac kəsilməsi halları 23,5% azalıb. Belə ki, 2002-ci ildə 41.110 $m^3$, 2003-cü ildə 49.063 $m^3$ , 2004-cü ildə 46.793 $m^3$, 2005-ci ildə 38.493 $m^3$, 2006-cı ildə 36.842 $m^3$, 2007-ci ildə 31.430 $m^3$ həcmində ağac kəsilib [22]. Buna səbəb oduncaq yanacağının tədricən qazla əvəz edilməsi olub. Ağac tədarükü və meşəqırma sahəsində fəaliyyətin hüquq çərçivəsində nizamlanması da bu prosesə öz müsbət təsirini göstərib.Həyata keçirilmiş tədbirlər nəticəsində ölkə ərazisinin 11,4 faizini təşkil edən meşə ilə örtülü sahə xeyli artaraq, 11,8 faizə çatdırılıb. Buna 1 milyon hektardan çox meşə salınması ilə nail olunub. 10 ildə 103 min hektar sahədə meşə-bərpa işləri aparılıb və 80 milyon ağac yetişdirilib. Meşə fonduna daxil olmayan ərazilərdə isə 20 milyondan çox müxtəlif növ kol və ağac bitkiləri əkilib. Bakı şəhərində və respublikanın bölgələrində müasir metodlara əsaslanan layihələrin həyata keçirilməsi nəticəsində genişmiqyaslı yaşıllaşdırma işləri aparılıb. Aşağı keyfiyyətli torpaqlarla əhatə olunmuş Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması bu cəhətdən səcciyəvidir[28].

Azərbaycan Respublikası Prezidentinin 21.10.2004-cü il tarixli 462 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiqi də ölkəmiz üçün əhəmiyyətli bir problemin həllinə kömək edib. Belə ki, proqramın miqyası genişləndirilərək, 2009-cu ildə Sənaye və Energetika Nazirliyinin tərkibində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılıb. Məqsədyönlü icra nəticəsində 2011-ci ildə Qobustan rayonu ərazisində ölkədə ilk külək elektrik stansiyası işə düşüb. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzi 38 hektar ərazidə inşa olunmaqla külək, günəş və bioqaz stansiyaları ilə təchiz edilib [21]. Eyni zamanda, proqram çərçivəsində ETSN Sənaye və Energetika Nazirliyi ilə birgə BMT-nin İnkişaf Proqramı vasitəsilə Qlobal Ekologiya Fondunun "Respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə texniki-iqtisadi qiymətləndirmə" layihəsi reallaşmağa başlayıb. Layihə alternativ enerji mənbələrindən istifadə baxımından ölkədə ekoloji problemlərin həlli yollarından biri kimi faydalıdır. Danimarkanın Ətraf Mühit Nazirliyi ilə birgə Gəncə və Sumqayıt şəhərlərində məişət tullantılarındanbioqaz alınması layihələrinin hazırlanaraq həyata keçirilməsi də aktualdır[29].

"Xəzərinekoloji vəziyyətinin yaxşılaşdırılması" məqsədilə Azərbaycan Respublikası Prezidenti 20.06.2007-ci il tarixli Sərəncam imzalayıb və buna uyğun konkret tədbirlər həyata keçirilib. Həmçinin, "Xəzər dənizinin dəniz-ətrafı mühafizəsi haqqında çərçivə konvensiyası" bu tədbirin reallaşmasında əhəmiyyətli rol oynayıb. Xəzər sahillərində beynəlxalq standartlara cavab

verən modul tipli lokal çirkab su təmizləyici qurğuların quraşdırılması bunu göstərir. Belə ki, 2007-2009-cu illər ərzində Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı, Nardaran, Novxanı və Sumqayıt sahilboyu sahəsində ümumilikdə, gündə 6140 $m^3$ çirkab su təmizləmə gücünə malik, beynəlxalq standartlara cavab verən modul tipli qurğulardan ibarət 16 stansiya qurulmuş və Abşeron yarımadasının 86 kilometrlik sahil zolağını əhatə edən “Xəzər dənizinin ekoloji mühitinin mühafizəsi sistemi” yaradılıb. Nəticədə Xəzər dənizinin ekosisteminə antropogen təsirlər azalıb. 2010-2014-cü illər üçün hazırlanmış əlavə tədbirlər planına əsasən uzun illərdən bəri Sumqayıt şəhərinin ətraf mühitinin normadan artıq çirklənməsinə səbəb olan 287 min ton civə tərkibli toksiki tullantılar Təhlükəli Tullantılar Poliqonuna daşınaraq tam şəkildə zərərsizləşdirilib [12].

Ətraf mühitin çirklənməsi və ona qarşı mübarizə sahəsində mövcud hüquqi sənədlərin qəbulu da vacib tədbirləri əhatə edir:İstehsalat və məişət tullantıları haqqında (1998),Ətraf mühitin mühafizəsi haqqında (1999),Ekoloji təhlükəsizlik haqqında (1999),Su təchizatı və tullantı suları haqqında (1999) Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında təhlükəli tullantıların idarə olunmasının Dövlət Strategiyası”nın təsdiq edilməsi haqqında” (2004) və “İstehsalat tullantılarının axıdılması (atılması) qadağın edilən istehsalat və müəssisə növləri haqqında” qərarları və Mərkəzi İcra Hakimiyyəti orqanının “İstehsal prosesində və xidmət sahələrində əmələ gələn tullantıların inventarlaşdırılması qaydası və təsnifat sistemi (klassifikasiya) haqqında təlimat”a əsasən məişət tullantılarının daşınması və zərərsizləşdirilməsi sahəsində faydalı işlər görülüb; Abşeron yarımadasında məişət tullantılarının 80%-i Balaxanı Tullantılar Poliqonuna daşınması təşkil olunub, ətraf mühit, sağlamlıq və təhlükəsizlik standartlarına cavab verən “Balaxanı Poliqonunda Tullantı Daşıyan Maşınların Yuma və Dezinfeksiya Məntəqəsi” layihəsi hazırlıq mərhələsinə çatdırılıb və bu layihənin Texniki-İqtisadi Əsaslandırılması həyata keçirilib [22]. Abşeron yarımadasında neftlə çirklənmiş torpaqların təmizlənməsi istiqamətində bir neçə pilot layihə reallaşdırılıb. Məsələn, ARDNŞ tərəfindən yaradılan “Ekol Mühəndislik Xidmətləri” Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən 2006-cı ildən başlayaraq orta hesabla bir ildə Heydər Əliyev adına Bakı Neftayırma Zavodundan (BNZ) atılan 12,5 milyon $m^3$, “Azərneftyağ”NEZ-dan atılan 10,9 milyon $m^3$ sənaye çirkab suları norma həddinə qədər təmizlənib. Hər iki zavodun istehsalat sahələrində uzun illər yığılıb qalmış 35,5 min ton, “Bibiheybət” sahəsində isə 6,2 min ton neftşlamemal edilərək zərərsizləşdirilib. Bundan başqa, “Bibiheybətneft” NQÇİ-nin və “Salyan OİL” LTD-nin mədən ərazilərində torpaqların və qazma şlamının rekultivasiyası aparılıb.

Respublkada həyata keçirilən mühüm ekoloji layihələrdən biri də Bakıda məişət tullantılarının yandırılması üçün ən yeni texnologiyalara əsaslanan zavodun tikilməsidir. Müəssisənin tikintisinə “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı” çərçivəsində Fransanın “ConstructionsIndustrielles de laMediterranee S.A.” (“CNİM” S.A.) şirkəti tərəfindən başlanıb. Zavodun layihələndirmə-tikinti işlərinin ümumi məbləği 346 milyon avrodur. Balaxanı qəsəbəsində ayrılmış 20 ha ərazidə inşa olunan və illik gücü 500 min ton təşkil edən zavod, istehsalat gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri zavoddur. Burada tullantıların yandırılması prosesində ildə 231,5 milyon KVt saat enerji hasil etmək mümkün olacaqdır. Müəssisənin inşası uzun illər Bakının məişət tullantılarının açıq havada yandırılması və şəhərətrafı boş ərazilərə atılması nəticəsində meydana gələn ekoloji problemin həlli istiqamətində mühüm addımdır[30].

Azərbaycan Respublikası Prezidentinin “Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında” 20.06.2007-ci il tarixli Sərəncamı, “Su Məcəlləsi” və Nazirlər Kabinetinin “Su obyektlərinin istifadəsi üzrə normallaşdırma Qaydaları” haqqında qərarı Azərbaycan Respublikasında əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər effektli nəticə verib:əhalisinin sayı 579 min nəfərdən çox olan 28 şəhər və rayon mərkəzində içməli su təchizatı sistemi yenidən qurulub. 24 rayonun 620 min nəfərdən çox əhalisi olan 384 yaşayış məntəqəsində isə modul tipli sutəmizləyici qurğular quraşdırılıb. 360 min nəfərdən çox əhalisi olan 49 rayonun 343 yaşayış məntəqəsində içməli su təchizatı sistemi yenilənib[31].

2007-2008-ci illərdə Naxçıvan Muxtar Respublikasının bəzi rayonlarında, habelə Yevlax, Zərdab, Ağcabədi, Kürdəmir, İmişli, Sabirabad, Saatlı, Salyan, Neftçala və Biləsuvar rayonlarının 100 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılmasına başlanıb. 2008-ci ildə Kür və Araz çaylarının sahilboyunca yerləşən 200 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün Prezidentin sərəncam ilə 2 milyon manat əlavə vəsait ayrılıb[32].2005-2010-cu illərdə inşa olunan Oğuz-Qəbələ-Bakı su kəməri Bakı şəhərinin və Abşeron yarımadasının uzun illərdən bəri üzləşdiyi içməli su probleminin həlli istiqamətində mühüm hadisədir.Bu layihəninməqsədi Oğuz-Qəbələ ərazisindəki yeraltı su mənbələrinin işlədilməsi nəticəsində Bakı şəhərinə saniyədə 5 $m^3$ həcmində suyun nəql olunması, nəticədə əhalinin yüksək keyfiyyətli, ekoloji baxımdan təmiz su ilə təmin etmək idi. Layihənin icrasına 1 milyard manata yaxın vəsait xərclənib. Bakı və ətraf qəsəbələrdə supaylayıcı şəbəkələrin yenidən qurulması işlərinin başa çatdırılmasından sonra, paytaxt əhalisinin 75 faizini içməli su ilə təmin etmək mümkün olmuşdur [16].

Azərbaycan Respublikası Prezidentinin 18.02.2003-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram"ının, 28.09.2006-cı il tarixli "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın və 04.05.2011-ci il tarixli "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamlarının icrası Bakı və Abşeron yarımadasında ekoloji böhran xarakteri almağa başlayan çirklənmənin qarşısını almaq üçün strateji əhəmiyyət kəsb edir: Bakı buxtasının, Bibiheybət zonasının, Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətrafının, Abşeron yarımadasının göllərinin, neftlə çirklənmiş torpaqların, lay suları altında qalmış sahələrin və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, Bakı və Sumqayıt şəhərlərində formalaşan tullantıların idarə olunmasınıntəkmilləşdirilməsi və s. məsələlər tədbirlər planında əks olunub. Plana uyğun olaraq, 2007-2009-cu illərdəSumqayıt şəhərinin ətraf mühitinin ciddi çirklənməsinə səbəb olan 56.422 $m^3$ civə tərkibli toksiki tullantılar Təhlükəli Tullantılar Poliqonuna daşınaraq zərərsizləşdirilib [33].Bakı şəhərinin ekoloji vəziyyətinə mənfi təsir edən amillərin aradan qaldırılması üçün neftlə çirklənmiş 228 hektar ərazi rekultivasiya edilib, 1350 hektar sahədə 1,3 milyon ədəd ağac əkilib[34].

Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafına dair proqramlar çərçivəsində Bakı şəhərinin və Abşeron yarımadasındakı yaşayış massivlərinin kanalizasiya şəbəkələri ilə təmin edilməsi, mövcud təmizləyici qurğuların yenidən qurulması və yeni təmizləyici qurğuların tikilməsi istiqamətində ardıcıl layihələr həyata keçirilir. Ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönələn bu layihələrdə həmçinin, paytaxt ətrafındakı neft və çirkli sularla çirklənmiş göllərin təmizlənməsi, qurudulması məsələləri əksini tapıb [22]. Beləliklə, uzun illərdən bəri ərazinin neftlə çirklənmiş torpaq örtüyü təmizlənərək yerində ekoloji mühitin sağlamlaşdırılmasına xidmət edən şərait yaradılıb.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin qorunması istiqamətində apardığı uğurlu ekoloji siyasət onun dünya ölkələri arasında mövqeyini müəyyənləşdirib, bu sahədəki ardıcıl və səmərəli fəaliyyəti respublikanın önə çıxmasını təmin edib. Nüfuzlu tədqiqat mərkəzləri olan ABŞ-ın Yel və Kolumbiya universitetlərinin 2012-ci ilin yanvar ayında açıqlanmış Beynəlxalq Ekoloji Fəaliyyətin Nəticələrinin İndeksi (Environmental PerformanceİIndex) sənədində ətraf mühit sahəsində son 10 ildə baş vermiş müsbət dəyişikliklərin tempinə görə Azərbaycan 132 ölkə arasında 2-ci yeri tutub[13].Həmin tədqiqat mərkəzlərinin 2 sahə (insan sağlamlığının qorunması və ekosistemlərin mühafizəsi) və 9 istiqamət üzrə 2016-cı ildə apardıqları qiymətləndirmələrə görə Azərbaycan Respublikası üçün aşağıdakı nəticə müəyyən edilib: 100 ballıq qiymətləndirmə sistemi üzrə 180 ölkə

arasında 83,78 balla 31-ci, Şərqi Avropa və Mərkəzi Asiya Regionu üzrə 2-ci, MDB ölkələri arasında isə 1-ci yer. Karbon İntensivliyi göstəricisinə görə, ölkəmiz 1-ci, İqlim və Enerji istiqamətinə görə 2-ci, meşələrlə bağlı istiqamət üzrə 5-ci olub. Bu cür yüksək göstəricilərə səbəb Azərbaycan Respublikasının ətraf mühit sahəsində çox qısa müddətdə və sürətlə həyata keçirdiyi müsbət dəyişikliklərdir[35].

Araşdırmalarımız göstərir ki, ekoloji problemlərin həlli üçün hüquqi bazanın yaradılması ətraf mühitin yaxşılaşdırılması sahəsində əsas amil olmuş, bu istiqamətdə görülən işlərə təkan vermişdir. Belə ki, insan sağlamlığına mənfi təsir göstərən ekoloji problemlərin aradan qaldırılması ilə bağlı görülmüş işlər - meşə ilə örtülü ərazilərin sahəsinin artırılaraq 11,8 faizə çatdırılması, təhlükəli tullantıların effektli idarə olunması, o cümlədən civə tərkibli toksiki tullantıların müasir təhlükəli tullantılar poliqonunda tam zərərsizləşdirilməsi, əhalinin Ümumdünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin edilməsi, bərk məişət tullantıları və çirkab suların idarə olunmasındakı irəliləyişlər, neftlə çirklənmiş ərazilərin reabilitasiyası və s. yuxarıda qeyd edilən nəticələrə gətirib çıxarmışdır.

Nəticə. Göründüyü kimi, Azərbaycan Respublikasında son illər baş verən sürətli iqtisadi inkişaf on illər ərzində ilk dəfə ekoloji problemlərin həllinə, ətraf mühitin qorunmasının dövlətin siyasətinin əsas prioritetlərindən birinə çevrilməsinə imkan verib. Ekologiya sahəsində qanunvericilik bazasının yaradılması ətraf mühitin qorunması istiqamətində bir sıra mövcud problemlərin həllinə kömək edib.

## ƏDƏBİYYAT

1.Abdullazadə F., Ələsgərov F. Əlirzayev Ə. və b. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI-YNE, 2001, 360 s.

2.Azərbaycan ekologiyası, Təbiəti mühafizə, 1969-1998 / Burax. məs. Ə.Ş.Həsənov. Bakı: Press-Alyans, 1998, s.147-149

3.Azərbaycanın Milli Ensiklopediyası. Azərbaycan: Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2007, 882 s.

4.Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu) / Ş.Xuduoğlununredaktəsilə. 2 cilddə. Bakı: Qanun, 2006, I c., 760 s.; II c., B., 2006, 884 s.

5.Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddələr üzrə normativ maddələrə istinadlarla). Bakı: Didesta, 2015, 448 s.

6.Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: Hüquq, 2015, 400s.

7. Azərbaycan Respublikasının Mülkü Məcəlləsi. Bakı: Hüquq, 2015, 400s.

8.Azərbaycan Respublikasının ətraf mühitə dair qanunlar toplusu / H.Bağırovunredaktəsilə. 2 cilddə, I c. Bakı: El-Aliance, 2002, 404 s.; B., II c., 2002, 424 s.

9.AzərbaycanRespublikasınınKonstitusiyası. Bakı: Hüquqədəbiyyatı, 2009, 96 s.

10.“Azərbaycan SSR-nin təbiətini qorumaq haqqında“Azərbaycan Sovet Sosialist Respublikasının Qanunu. “Kommunist» qəz., Bakı, 1959, № 141

11.“Azərbaycan SSR-nin təbiətinin qorunması haqqında” Azərbaycan Sovet Sosialist Respublikasının Qanunu. Bakı: Azərnəşr, 1970, 16 s.

12.Bağırov H. Azərbaycan dövləti ekoloji problemlərin həllini prioritet hesab edir. Ekoloji durumun sağlamlaşdırılması və təbii sərvətlərdən səmərəli istifadə sahəsində ekoloji siyasət uğurla reallaşdırılır. “Azərbaycan”qəz., Bakı, 2010, 5 iyun

13. H.Bağırov. Ətraf mühitin mühafizəsi sağlamlığa xidmət edir, “Azərbaycan” qəz., Bakı, 2013-cü il, 23 may

14. Bədəlov H. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin meşə sektorunda 2002-2010-cu illərdəki fəaliyyətinə dair toplu. Bakı: Ziya NPM, 2012, 144 s.

15.Dolxanov A.B. Təbiətdən istifadənin hüququ əsasları (dərslik). Bakı: Bakı Universiteti, 2008, 496 s.

16.Əmənullayev İ. Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca ekoloji problemlər daha sürətlə həll edilir. “Xalq qəzeti” qəz., Bakı, 2015, 21 dekabr

17. Əsədov A.Ə. Axundzadə L.Q., Quliyeva Z.N. Ekologiya hüququ. Dərslik. Bakı: Adiloğlu, 2007, 512 s.

18. İlham Əliyevin uğurlu ekoloji siyasəti / H.Bağırovunredaktəsilə. Bakı: Şərq-Qərb, 2008, 399 s.

19. Mustafayev Q. T. Ekoloji hüquq. Bakı: Futroloq, 1999, 73 s.

20. Mustafayev Q., Mahmudov Y. Azərbaycan Respublikasında ekoloji vəziyyətə kömək məqsədilə icra olunan tədbirlər // İnsanvəBiosfer (MaB, UNESCO). Azərbaycan Milli Komitəsinin əsərləri. Ekolojisivilizasiya, davamlı inkişaf, ətrafmühit. № 11, Bakı: Təhsil, 2016, s. 95-110

21.Mükərrəmoğlu M. Ekoloji problemlərin həllində alternativ və bərpa olunan enerji mənbələri əhəmiyyətli rol oynayır “Xalq qəzeti” qəz., Bakı, 2015, 10 noyabr

22. Proqramlar, qanunvericilik və infrastrukturun inkişafı (2008-2012-ci illər) / Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı: ZiyaNPM, 2013, 236 s.

23. Təbiəti mühafizə və təbiətdən istifadə haqqında hüquqi sənədlər toplusu / Tərt. ed. T.Ə.İsmayılov. Bakı: Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, 1992, 62 s.

24.http://eco.gov.az/az/23-qanunvericilik
25. http://files.preslib.az/projects/azereco/az/eco_m4_7.pdf
26.https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_qoruqlar%C4%B1
27.http://files.preslib.az/projects/azereco/az/eco_m4_6.pdf
28.http://publika.az/news/qirmizi/46065.html
29.eco.gov.az/uploads/dovlet-proq/gorulen-isler/21oktyabr.doc
30.http://anl.az/down/meqale/bizim_yol/2015/yanvar/413169.htm
31.http://www.president.az/articles/23176
32. http://www.bizimyol.info/news/42578.html
33.http://files.preslib.az/projects/azereco/az/eco_m2_2.pdf
34.http://www.president.az/articles/10832
35.http://eco.gov.az/az/xeberler/azerbaycan-ekoloji-fealiyyetin-effektivliyi-indeksi-uzre-reytinqde-180-olke-arasinda-31-ci-yerdedir-4287

**УДК 94(479.24)**

# ЗАВОЕВАНИЕ АЗЕРБАЙДЖАНА ХАЛИФАТОМ И НАРОДНО-ОСВОБОДИТЕЛЬНАЯ ВОЙНА

***Исраил Магеррамов, Ровшан Кулиев, Эльдар Алиев***
*Азербайджанский Технический Университет*
*rovshan5901@gmail.com*

**Ключевые слова:** *Арабский халифат, ислам, хуррамиты, Бабек, освободительная война*

*Тема по многим признакам и свойствам занимает одно из важнейших мест в истории Азербайджана. Исламская религия быстро распространилась по Азербайджану. Первым руководителем хуррамитов, живших в горах Базз и его окрестностях был Джавидан. После смерти Джавидана в 816 г., по инициативе его вдовы 18-летний Бабек стал главой общины Хуррамитов.Сторонники Бабека вплоть до самого конца IX в. Продолжали активно участвовать в выступлениях против режима Халифата.*

# XİLAFƏTİN AZƏRBAYCANI İŞĞAL ETMƏSİ VƏ XALQ AZADLIQ MÜHARİBƏSİ

***İsrail Məhərrəmov, Rövşən Quliyev, Eldar Əliyev***

**Açar sözlər:** *Ərəb xilafəti, islam, xürrəmilər, Babək, azadlıq mübarizəsi*

*Məqalədə ərəblərin hakimiyyəti, köçürülməsi, aqrar və vergi siyasəti, milli azadlıq hərəkatı, xürrəmilər, Babəkin rəhbərliyi altında azadlıq mübarizəsi və s. kimi məsələlər tarixi faktlar əsasında tədris prosesinə gətirilir. Eyni zamanda, məqalədə müəllimlər və ilk növbədə gənc müəllimlər üçün faydalı təlimatlar verilir.*

# THE CONQUEST OF AZERBAIJAN WITH THE CALIPHATE AND THE PEOPLE'S LIBERATION WAR

***Israil Maharramov, Rovshan Guliyev, Eldar Aliyev***

**Key words:** *Arabic khaliphate, Islam, khurramites, Babek,* the liberation war

*In this paper issues such as the Arab dominion in Azerbaijan, resettlement, land and tax policy, the Arabs, the People's Liberation Movement, Khurremids, liberation war led by Babek Khurremid and others, through the historical facts involved in the process of teaching. Given useful guidelines to train teachers, and in the first place, novice teachers.*

Тема «Завоевание Азербайджана Халифатом и народно-освободительная война против арабского гнета» по многим признакам и свойствам занимает одно из важнейших мест в истории Азербайджана.

Основным содержанием темы являютсятакие вопросы как внешняя политика Албанского правителя Джаваншира, отношения Византии с Арабским халифатом, власть халифата над Албанией и позиция Джаваншира по отношению к халифату. В начале VII в. завоевание Закавказья халифатом, усиление борьбы против арабских завоевателей, господство арабов в Азербайджане, исламизация и формы и методы распространения ислама в Азербайджане. Первые выступления азербайджанского народа против арабского господства, в конце VIII в. началась освободительная борьба, которая вошла в историю как движение хуррамитов. После того как это движение возглавил Бабек, оно переросло в национально-освободительную войну азербайджанского народа против арабского владычества и сыграла важную роль в ослаблении арабского халифата. Изучение студентами всех выше перечисленных вопросов дает основание считать тему «Завоевание Азербайджана Халифатом и народно-освободительная война против арабского гнета» одной важных проблем нашей истории.

При изучении данной темы рекомендуются следующий план:

1. Общественно-политическое положение Азербайджана накануне арабского завоевания.

2. Административная система Арабского халифата в Азербайджане. Переселенческая и земельная политика арабов.

3. Народное движение против арабского гнета. Освободительная война под руководством Бабека.

4. Культура и хозяйственная жизнь Азербайджана в период господства Арабского халифата.

I вопрос: Общественно-политическое положение Азербайджана накануне арабского завоевания.

При изучении этого вопроса следует отметить что, азербайджанский народ на протяжении многих веков вел героическую борьбу против иноземных завоевателей и местных феодалов, в борьбе за свою свободу продемонстрировал беспримерный героизм, понеся многочисленные жертвы.

Одной из самых ярких страниц борьбы за свободу народа и Отечества является освободительное движение азербайджанского народа против арабских захватчиков в VIII-IX вв.

К середине VII в. Арабский халифат оккупировав большую часть стран приблизился к границам Азербайджана. Это было время, когда арабы положили конец могуществу Сасанидской империи, подчинив своей власти все страны, находившиеся под ее властью. Несмотря на самоотверженную борьбу азербайджанского народа арабы в начале 30-х годов после 90-летней борьбы завершили завоевание Азербайджана, включив его в состав Халифата.

В этом вопросе необходимо отметить, что арабы принесли на захваченные ими территории ислам, арабский язык и арабскую культуру.

Следует отметить, что, несмотря на давление со стороны арабов, население отказывалось принимать ислам. Однако арабыдля укрепления своей власти в Азербайджане, который имел для них большое стратегическое и экономическое значение, как эффективное средство использовали ислам.

Арабы признавали право на существование еще двух религий - христианства и иудаизма, категорически выступая против сохранения всех других верований, рассматривая их как противоречащие идее единобожия. Огнепоклонничество причислялось к идолопоклонничеству, поэтому сторонники зороастризма с самого начала подверглись преследованиям и были обречены на уничтожение.

Следует отметить, что исламская религия быстро распространилась по Азербайджану. Это было связано с тем что, арабы установили правило, что те, кто принимал ислам, были освобождены от налогов и кроме этого им оказывалась определенная помощь.

Исламская религия, основанная в первой половине VII века жителем Мекки Мухаммедом за короткое время, распространилась на десятки стран Азии, Африки и Европы. При изучении этого вопроса нужно отметить что, ислам есть закон Божий, Мухаммед же согласно

Корану, является посланником Аллаха. Последователей этого закона называли мусульманами.

Приход арабов, распространение ислама, превращение основной части населения в верующих мусульман явилось поворотным пунктом в исторических судьбах азербайджанского народа. Приобщение к новым мусульманским традициям и образу жизни, религиозным представлениям и взглядам на мироустройство положили начало духовному обновлению населения.

Распространение новой религии ознаменовалось массовым сооружением мечетей по всей стране. Проповеди в мечетях, исполнение в них верующими мусульманских обрядов, безусловно, влияли на изменение внутреннего мира людей. Мечети стали центрами распространения не только сугубо религиозных идей, но и научных знаний, культуры.

Наиболее крупные мечети функционировали в городах Гянджа, Марага, Шамахы, Дербент, Тебриз, Ардебиле. При мечетях действовали учебные центры - медресе, в которых получали образование дети. Создание сети медресе положило начало школьному образованию. В медресе дети, помимо усвоения Корана, получали знания в области географии, математики, литературы. Огромное значение имело распространение среди населения арабского алфавита, который на долгие столетия стал основой письменности для всего мусульманского населения. И хотя еще несколько столетий эта письменность использовалась, правда, вначале в системе лишь арабского, а позже персидского языка, ее появление и распространение среди населения всего Азербайджана явилось значительным событием в духовном обновлении края, шагом вперед по пути культурного развития населения. Приобщение к мусульманской религии означало также приобщение к формируемому исламскому миру, к знакомству с творчеством наиболее выдающихся представителей раннего периода его развития, что сыграло особую роль в духовном подъеме, наблюдаемом уже в начале второго тысячелетия нашей эры.

Стоит отметить, что до нас недошли произведения местного характера, отражающие социально-экономическую, политическую и культурную жизнь Азербайджана в VIII-IX вв., крупные крестьянско-освободительные войны против иноземных захватчиков и местных феодалов. Материалы об Азербайджане в данный период содержатся только в трудах арабских историков.

Также важно отметить факторы, которые сыграли важную роль в развитии экономики Азербайджана в этот период. Население

Азербайджана в основном было занято сельским хозяйством, скотоводством, ремеслом и торговлей.

Согласно источникам, благоприятные природные условия страны и многочисленные источники воды создали огромные условия для развития сельского хозяйства, садоводства, виноградарства, садоводства и овощеводства.

Также получили дальнейшее развитие торговля и ремесло. Города Азербайджана сыграли важную роль в политической, экономической и культурной жизни страны.

Для изучения первого вопроса темы студентам рекомендуется следующая литература:

1. З.Буниятов. Азербайджан в VII-IX вв. Б.1965.
2. Н.Велиханлы. Арабский Халифат и Азербайджан. Б.1994.
3. И.Алиев. История Азербайджана. Б.1995.
4. С.Алиярлы. История Азербайджана (с древнейших времён до 70-х гг. 19 в.). Б. 2008.
5. И.Мамедов. История Азербайджана. Б.2009.
6. Э.Исмайлов. Очерки по истории Азербайджана. Б.2010.
7. Н.Ахундова. Тюрки в системе государственного управления арабского Халифата.

II вопрос: Административная система Арабского халифата в Азербайджане. Переселенческая и земельная политика арабов.

Объясняя этот вопрос, необходимо отметить, что арабы создали свои собственные системы управления в Азербайджане. Азербайджан управлялся арабскими эмирами. В то же время арабы переселяли сюда арабские племена, чтобы укрепить свои позиции в Азербайджане.

BVII-VIII веках феодальные отношения в арабском обществе были слабо развиты,и по этой причине они сохранили в Азербайджане налоговую систему Сасанидов. В отличие от Сасанидов, арабы собирали налоги со всей страны.

Поскольку часть азербайджанского населения проповедовала христианство, с населения взимались подушная подать-джизья и земельный налог-харадж Мусульмане были освобождены от налога-джизья. В период правления Халифа Хишама,в 725 годубыла проведена перепись населения, земли, крупного рогатого скота и других объектов в Азербайджане, и был введен ряд новых налогов.

Особенно ужесточился налоговый гнет при легендарном халифе Харун аль-Рашиде и его преемниках. Усиление эмиров в результате бессистемной раздачи земель икта в полную собственность привело к усилению произвола со стороны местных чиновников. И тем не менее система социально-экономических отношений, утвердившаяся при

халифе, была намного более совершенной, чем в предшествующий период. Именно потому, что ее можно было назвать системой, опирающейся на формируемую, достаточно конкретную правовую концепцию мусульманского права, опирающуюся пусть не на всегда совершенные, но с точки зрения формальной логики обоснованные причины.

В период господства Халифата в Азербайджане существовало 5 форм земельной собственности на землю: поместья халифские или султанские; земли икта; земли мюльк; земли вакфи земли общинные. Наиболее часто распространенными были земли икта. Большинство обрабатываемых земель были включены в эту категорию. Икта делилась на условную и наследственную. Условная икта предоставлялась в качестве вознаграждения за службу придворным халифа, наместникам, чиновникам. Доходы от владения условной икта служили источником выплат за службу и содержание воинов. По окончании службы халиф вправе был изымать земли икта и передавать их вновь назначенным на службу. Но нередко халиф даровал икта в полную собственность наиболее влиятельным вельможам и военноначальникам. Тогда она приобретала наследственный характер. Со временем наследственная икта приобрела более широкий размах, что в немалой степени укрепило позиции наиболее крупных владельцев (иктадаров), стимулировало сепаратистские тенденции в халифате, ослабило авторитет центральной власти.

Передача икта в полную собственность послужила основой возникновения новой формы собственности - мюлька, при котором владелец приобретал права дарения, продажи, сдачи в залог земли, передачи ее в наследство по собственному усмотрению.

Следующей формой собственности был вакф. Это были земли, мечети и строения, даруемые халифом духовному управлению мусульман. Эти земли не облагались налогом в пользу казны, не подлежали продаже или сдаче в залог. Земли и пастбища, принадлежащие крестьянам, считались собственностью общины. Право общины на землю обусловливалось выплатой поземельного налога - хараджа.

В тесной связи с формами собственности на землю находилась система налогового обложения. Основным налогом был налог харадж (за владение землей). Налог ушр выплачивался в размере одной десятой с полученного урожая. Налог хумс предусматривал выплаты при приобретении новой собственности, золота, серебра, с прибыли на нефть, соль, морского промысла.

Таким образом, налоговая политика халифата, произвол чиновников и полнейшее беззаконие сделали невыносимым положение население Азербайджана.

Для получения подробного ответа на этот вопрос необходимо использовать следующую литературу:

1.Буниятов. Азербайджан в VII-IX вв. Б.1965.

2.Н.Велиханлы. Арабский Халифат и Азербайджан. Б.1994.

3.И.Алиев. История Азербайджана. Б.1995.

4.С.Алиярлы. История Азербайджана (с древнейших времён до 70-х гг. 19 в.). Б. 2008.

5.И.Мамедов. История Азербайджана. Б.2009.

6.Э.Исмайлов. Очерки по истории Азербайджана. Б.2010.

7. Н.Ахундова. Тюрки в системе государственного управления арабского Халифата.

III вопрос: Народное движение против арабского гнета. Освободительная война под руководством Бабека.

Поясняя этот вопрос, следует отметить, что одной из ярких страниц освободительной борьбы против арабского халифата в Азербайджане является движение хуррамитов, которое длилось более 60 лет.

Хуррамиты видели корень всей несправедливости в обществе в социальном неравенстве. Их лозунг заключался в том, чтобы справедливо разделить землю и средства производства между людьми, освободить крестьян и ремесленников от зависимости представителей господствующего класса. Они боролись за социальное равенство. Борьба за восстановление независимости и освобождение его от тирании иноземцев являлось основной идеологией хуррамитского движения.

Движение хуррамитов было мощным народным движением в средние века на Востоке направленное против исламской религии, феодального гнета и, самое главное, арабской оккупации. Следует отметить, что до недавнего времени в произведениях многих авторов и источниках даются различные суждения о цели и сущности хуррамитского движения, о Бабеке как руководителе движения, о значении слова «хуррам».

По мнению, некоторых авторов IX-X веков, это слово связано с названием поселения под названием Хуррам, недалеко от Ардебиля. Поскольку восстание впервые началось здесь, его участники были названы хуррамитами.

Есть и те, кто говорит, что термин «хуррам» связан с именем жены Маздака Хуррам. Также на персидском языке термин «хуррам» означает «радостный».

По мнению многих средневековых авторов маздакиты и хуррамиты были огнепоклонниками. Вот почему академик З.Буниятов утверждал, что термин «хуррам» на пахлевийском языке означает «хур» - огонь и «хвар» - «солнце».

Также следует отметить, что по словам Абу-Музаффар Исфараини «хурамиты делятся на две секты. Одна существовал до появления ислама и называласьмаздакитами.Вторая же секта хуррамитов появилась в государстве ислама. Это «бабекиты и маз'яриты. Ее называют мухаммира и бабекийя — последователи человека по имени Бабек ал-Хуррами, который появился в Азербайджане, и увеличивалось число его [Бабека] последователей.»

Чтобы узнать о руководителях хуррамитов, необходимо отметить, что первым руководителем хуррамитов, живших в горах Базз и его окрестностях был Джавидан. После смерти Джавидана в 816 г., по инициативе его вдовы 18-летний Бабек стал владельцем имущества Джавидана и главой общины Хуррамитов.

Согласно источникам, борьба хуррамитов с арабами продолжалась 61 год. Когда Бабек стал во главе хуррамитов число его сторонников было малочисленным. Как руководитель народного движения Бабек уже на начальном этапе проявил большие способности. Его люди, разосланные во все регионы страны, призывали людей к оружию, к созданию добровольных пешихи конных отрядов. Очень скоро численность конных отрядов,состоявших из крестьян, ремесленников и городской бедноты, достигла 20 тысяч человек. Бабеку пришлось ввести в своих войсках твердую дисциплину, подчинив ее главной цели - уничтожению арабского владычества в Азербайджане, а затем и в других областях.

Поставив перед хуррамитами задачу изгнать арабов, Бабек объявил своим последователям, что исполнение этой задачи было завещаноему Джавиданом, который, якобы, говорил: «Бабек достигнет для вас таких пределов, которых никто до него не достиг и никто после него не достигнет».

По сведениям Аль-Багдади, только в Азербайджане и Дейме число сторонников Бабека достигало 300 тысяч человек. Бабек начал свою деятельность в 816 году. В 819 году халиф Мамун отправил первую регулярную армию против хуррамитов, которая потерпела поражение. В 822 г. близ Барды бабекиды нанесли сокрушительное поражение отрядам халифата, возглавляемым Исой ибн Мухаммедом. Командующий войсками халифа был убит. В 824 г. войска Бабека разгромили отряды халифа, возглавляемые Ахмедом ибн Джунейдом. Сам арабский военачальник попал в плен. В 827 году Халиф Мамун отправил одного из самых талантливых полководцев Мухаммеда ибн Хамид Туси во главе 150-тысячной армии. В 829 году бабекиды одержали победу над арабами. Туси был убит.

Самая большая победа Бабека близ Хамадана датируется 830 г. После этого под контролем хуррамитов оказалась обширная территория,

охватывающая Ширван, Аран, Ардебиль, Карадаг и области к югу от Аракса и вокруг озера Урмия.

К 830 г. возникла реальная угроза власти халифата, возглавляемого династией Аббасидов. Арабские авторы ат-Табари, Динавария, ал-Киндая, Масуди особо подчеркивали, что победы хуррамитов поставили под угрозу власть халифата. Так, Масуди пишет: "Движение Бабека достигло невиданных масштабов, его влияние возросло, численность войска настолько выросла, что возникла угроза ликвидации власти Аббасидов. Положение резко изменилось после смены власти в халифате, когда халифом стал аль-Мотасим. Более решительный новый властитель халифата мобилизовал для борьбы с восставшими потенциал все еще могучей империи".

В 833 г. новая большая армия халифата наконецто сумела нанести близ Хамадана серьезное поражение хуррамитам. Переход стратегической инициативы в войне на сторону халифата был не случаен. Война приобрела затяжной характер, при котором ее исход вызывал среди некоторых участников восстания определенные сомнения.

Система управления становилась все более шаткой. Самая активная часть движения-крестьяне требовали своей доли в начавшемся переделе собственности. Крупные земельные владетели из числа местной знати почувствовали угрозу своей собственности. Исторические предания гласят о многочисленных фактах отхода ряда наместников и крупных феодалов от участия в восстании. Это учитывал ихалиф, завязавший со многими из них тайные переговоры. В 835 г. против Бабека была брошена новая армия, возглавляемая талантливым полководцем Афшином, ранее отличившимся в войне с Византией. Военные действия между войсками Бабека и Афщина завершились в 837 г. окружением войсками халифата крепости Базз. 26 августа 837 г. после длительной осады и кровопролитного сражения крепость Базз пала.

Бабек с ближайшими сподвижниками и семьей попытался скрыться, но местный феодал Сахль ибн Сумбат выдал его. Бабек был доставлен в сирийский город Самиру, где 14 марта 838 г. был четвертован.

Несмотря на поражение хуррамитского движения, народно-освободительная война под предводительством Бабека ускорила падение Халифата и облегчила освободительную борьбу других угнетенных народов. Сторонники Бабека вплоть до самого конца IX в. Продолжали активно участвовать в выступлениях против режима Халифата.

Для подробного изучения третьего вопроса рекомендуется следующая литература:

1. Буниятов. Азербайджан в VII-IX вв. Б.1965.

2. Н.Велиханлы. Арабский Халифат и Азербайджан. Б.1994.

3. И.Алиев. История Азербайджана. Б.1995.

4. С.Алиярлы. История Азербайджана (с древнейших времён до 70-х гг. 19 в.). Б. 2008.

5. И.Мамедов. История Азербайджана. Б.2009.

6. Э.Исмайлов. Очерки по истории Азербайджана. Б.2010.

7. Н.Ахундова. Тюрки в системе государственного управления арабского Халифата.

IV вопрос: Культура и хозяйственная жизнь Азербайджана в период господства Арабского халифата.

Арабское иго и длительное господство Халифата в Азербайджане серьезно тормозили развитие его экономики, ремесла, торговли и вообще производительных сил.Проводившиеся на территории Азербайджана военные действия нанесли огромный ущерб его городам и селам. Вместе с тем арабы, не сумевшие привнести в Азербайджан более прогрессивную систему общественных отношений и вследствие этого не пытавшиеся изменить со своим приходом общественно-экономические основы завоеванного ими общества, не уничтожали его производительные силы и пытались сохранить существующую хозяйственную систему.

Письменные источники, которые подтверждаются результатами археологических исследований, свидетельствуют о том, что после более чем двухвекового периода экономического застоя, вызванного арабской оккупацией, походами хазар, борьбой местного населения против Халифата и т.п., в Азербайджане стали развиваться города, ремесла и торговля. Постепенно менялся облик городов, появились такие важные торгово-ремесленные центры как Гянджа, Байлакан, Баку, Тебриз, Марага и др. Находясь в рамках единого централизованного государства, они были тесно связаны друг с другом, что, наряду с прочим, приводило к постепенной утрате ими всей прежней самостоятельности и внутренней автономии. По мере усиления процесса отделения города от деревни городское население, полностью устранившись от земледельческих занятий, стало заниматься только ремеслом и торговлей.

Стремительное развитие внутренней и внешней торговли способствовало серьезным изменениям в социально-экономической структуре ряда городов, возле цитаделей («шахристанов»), возникали обширные ремесленно-торговые кварталы - рабаты. Ремесленники и торговцы составляли большинство городского населения.

В некоторых городах арабского времени, являвшихся объектами археологических исследований (в Гяндже, Габале, Мингечауре, Байлакане, Дербенте, Баку, Шабране, Шамахе и др.), во время проведенных раскопок были выявлены изделия, относящиеся ко всем основным отраслям средневекового ремесла.

В этот период самым большим городом не только Азербайджана, но и всего Кавказа являлась Барда, которую называли «матерью Аррана». В то время здесь проживало примерно 100 тыс. человек. Бардинский базар «Курки» являлся одним из самых знаменитых на Ближнем Востоке. Важнейшей статьей городского экспорта являлся шелк.

Сходившиеся в Барде торговые и караванные пути соединяли этот город с Дербентом, Тифлисом, Дабилом, Ардабилем, а через эти города - с северными, южными и восточными странами. В этой связи следует отметить, что развитие внутренней и внешней торговли и ремесла в Азербайджане изменило направление некоторых мировых торговых путей. По этим путям в Азербайджан привозились ткани, металлические изделия, парфюмерия, пряности, меха и др., а вывозились - шелк-сырец, шелковые ткани, хлопок, ковры, краски, нефть, скот, кони и т.д. Дербент, Баку и другие порты были основными центрами торговли халифата со странами Востока и Европы.

Монеты,которые чеканились в Азербайджане использовались в торговле с Россией, Германией, Скандинавией, Прибалтикой, а также с восточными странами.

В экономической жизни Азербайджана во второй половине VII-IX вв. ведущее место продолжают занимать земледелие и скотоводство. Большую роль в дальнейшем развитии земледелия, увеличении его продуктивности сыграли пахотные орудия различного устройства. Природные и климатические условия Азербайджана способствовали возникновению и развитию различных систем искусственного орошения.

Из зерновых культур наибольшее распространение имели пшеница, ячмень, просо и чалтык (рис). Из технических культур определенное место занимали шафран и марена. В IX в. в связи с развитием шелководства широкое развитие получило ткачество.

В VII-IX вв. в Азербайджане ведущую роль занимали оседлая отгонная формы скотоводства. Однако в этот период возникает и постепенно развивается полукочевое скотоводство. В этот период развивались также коневодство и верблюдоводство. В горных районах развивалось товарное животноводство.

Развитие социально-экономических отношений и рост производительных сил способствовали развитию культуры Азербайджана. Свободное владение арабским языком создавало возможность для ученых-философов, поэтов, выходцев из среды неарабских народов создавать свои труды на этом языке, благодаря чему они становились достоянием всего мусульманского мира.

Среди представителей философской мысли особо выделялись Мухаммед Али Бакуи и Абу Бекр Мухаммед ибн Али Мараги.

С середины VIII в. получают широкое распространение достижения арабской поэзии, ее основные жанры и формы – газель, касыда, арабский стихотворный метр аруз, трактаты и труды по теории стиха, поэтике.

По верному замечанию И.Ю.Крачковского, «арабская литература, как и арабская культура вообще, обязана своим развитием не только арабам, но и представителям целого ряда других народов». Среди них были Исмаил ибн Яссар, Муса Шахават и Абу Аббас аль-Ама которые были родом из Азербайджана.

В VII-IX вв. дальнейшее развитие получили архитектура, декоративное, ювелирное и изобразительное искусство. Известному влиянию подверглась азербайджанская народная музыка. В музыкальной культуре Азербайджана сложился ряд особенностей, общих для стран халифата, но получивших своеобразное конкретное преломление в местных условиях. Азербайджанские классические мугамы, обогащая общемусульманскую музыку, одновременно вносили национальные мотивы.

## ЛИТЕРАТУРА

1. Буниятов. Азербайджан в VII-IX вв. Б.1965.
2. Н.Велиханлы. Арабский Халифат и Азербайджан. Б.1994.
3. И.Алиев. История Азербайджана. Б.1995.
4. С.Алиярлы. История Азербайджана (с древнейших времён до 70-х гг. 19 в.). Б. 2008.
5. И.Мамедов. История Азербайджана. Б.2009.
6. Э.Исмайлов. Очерки по истории Азербайджана. Б.2010.
7. Н.Ахундова. Тюрки в системе государственного управления арабского Халифата.

**UOT 37**

# BABA NEMƏTULLAH NAXÇIVANİNİN HƏYATI, SUFİ VƏ TƏRBİYƏVİ-ƏXLAQİ GÖRÜŞLƏRİ

***Məhcəbin Qədimbəyli***
*Naxçıvan Dövlət Universiteti*
*qasimovacannat@mail.ru*

**Açar sözlər**: *Nemətullah Naxçıvani, əxlaqi görüş, mənəvi zövq, mənəvi tərbiyə,davranış*

*Məqalədə XV-XVI əsrlərdə yaşamış Azərbaycanın böyük mütəfəkkir sufi alimlərindən olam Baba Nemətullah Naxçıvaninin həyatından, sufi və tərbiyəvi-əxlaqi görüşlərindən bəhs olunur.*

*Müəllif mövcud elmi mənbələrə və Nemətullah Naxçıvaninin "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə Əl Müdihəti Lil Kəlimil Quraniyyə Vəl hikemil Firkaniyyə" və "Şərhi-əsrarin-nöqtə", "Hidayət-ül-İxvan", "Təhqiqat", "Vücudiyyə", "Məcmuai-lətaif", "Hidayə", "Nikat", "Mükaşəfə", "Əsilə vəl əcibə" adlı əsərlərinə istinad edərək böyük mütəfəkkirin irsində geniş yer tutan elmi-tərbiyəvi və əxlaqi görüşlərini təhlilə cəlb edib pedaqoji cəhətdən dəyərləndirmişdir.*

*Məqalədə Baba Nemətullah Naxçıvaninin elm və ürfan, fəzilət, şəxsiyyət kamilliyi, mənəvi kamillik, mənəvi gözəllik, mənəvi estetik zövq, davranış və əxlaq, tərbiyə və s. məsələlərə həsr olunmuş sufi görüşləri səciyyələndirilmişdir.*

## ЖИЗНЬ, СУФИЙСКИЕ И ВОСПИТАТЕЛЬНО-НРАВСТВЕННЫЕ ВЗГЛЯДЫ БАБА НЕМАТУЛЛАХА НАХЧЫВАНИ

***Мехджебин Гадимбейли***

**Ключевые слова**: *Нематуллах Нахчывани, моральный взгляд, нравственный вкус, нравственное воспитание, поведение*

*В статье говорится о жизни, суфийских и воспитательно-нравственных взглядах великого азербайджанского мыслителя, суфийского ученого Баба НематуллахаНахчывани, проживишем в XV-XVI веках.*

*Автор статьи, ссылаясь на существующие научные источники и на такие труды НематуллахаНахчывани, как «Ал-Фаватихул-Илахийя вел Мафатихул-Гейбийя Ал Мудихати Лшл Калимил Гуранийя Вел хикемил*

*Фикранийя» и «Шерхи-асрарин-ногте», «Хидайят-ул-Ихван», «Техгигат», «Вуджудийя», «Меджмуаи-Латаиф», «Хидайя», «Никат», «Мукашафа», «Асила вел аджиба», привлекла к анализу научно-воспитательные и нравственные взгляды, занимающие широкое место в наследии великого мыслителя, оценила их с педагогического аспекта.*

*В статье характеризуются суфийские взгляды, посвященные вопросам науки и религии, целостности личности, совершенству личности, нравственного совершенства, нравственной красоты, нравственно-эстетического вкуса, поведения и морали, воспитания и т.д.*

## BABA NEMETULLAH NAKHCHIVANI'S LIFE, SUFI AND EDUCATIONAL – MORAL VIEWS

***Mahjabin Gadimbayli***

**Key words:** *NemetullahNakhchivani, moral view, spiritual pleasure, upbringing*

*The article deals with life, sufi and educational and moral views of Baba Nemetullah Nakhchivani, one of the great thinkers of Sufi Scientists, who lived in the XV-XVI centuries. Referring to the works by the great thinker, like "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə Əl Müdihəti Lil Kəlimil Quraniyyə Vəl hikemil Firkaniyyə" və "Şərhi-əsrarin-nöqtə", "Hidayət-ül-İxvan", "Təhqiqat", "Vücudiyyə", "Məcmuai-lətaif", "Hidayə", "Nikat", "Mükaşəfə", "Əsilə vəl əcibə" and the existing scientific sources she analyzed and appreciated the scientific-educational and moral opinions of the great thinker from the pedagogical point of view.*

*The article characterizes Baba Nemetullah Nakhchivani's Sufi views on issues of science and morality, virtue, personality perfection, moral perfection, moral beauty, moral aesthetic pleasure, behavior and morals, education and so on.*

Nemətullah Naxçıvani XV-XVI əsrlərdə yaşamış Azərbaycan sufi alimlərindəndir.Bu vaxta qədər Baba Nemətullah Naxçıvani haqqındabir sıra orta əsrlər müəlliflərinin əsərlərində məlumatlar verilmiş, sonrakı dövrlərdə isə dəyərli elmi məqalələr və monoqrafik tədqiqat əsərləri yazılmışdır. "Hidayətül-Arifin", "Əl-Aləm" və "Böyük təfsir tarixi" adlı əsərlərdə Baba Nemətullah Naxçıvaniyə az da olsa yer verilmişdir.

Tədqiqatçıların fikrinə görə, Baba Nemətullahın "Əl-Fəvatih" təfsirinin giriş hissəsində yarım səhifəlik tərcümeyi-halı verilir ki, bu, böyük mütəfəkkirin ən mükəmməl tərcümeyi-halı sayılır.

Əhməd bin Mustafa Taşköprüzadənin "Şəqayiqün-Nomaniyyə" əsərində də Baba Nemətullaha yüksək qiymət verilmiş, onun Allah yolunda xidmət edən bir sufi olması bildirilmişdir. Bu haqda professor Hacı Fəxrəddin Səfərli və professor Məmməd Rzayevin birgə yazdıqları "Baba Nemətullah Naxçıvani: həyatı və fəlsəfi görüşləri" adlı məqalələrində oxuyuruq: "Baba Nemətullah Naxçıvani zəmanəsinin tanınmış alimi, filosofu, məşhur sufi şeyxi olmuşdur. Əhməd bin Mustafa Taşköprüzadə "Şəqayiqün-Nomaniyyə" əsərində onun adını Sultan Bəyazidxan Fazi zamanının (1481-1512-ci illər) məşhur şeyxləri sırasında qeyd edərək yazır: "Allah yolunda xidmət edən ariflərdən biri, dərvişlik və sufiliyin fəxri olan Baba Nemətullah Naxçıvani özünü xalqdan gizlədirdi. O, rəbbani (ilahi) elmlərdə dərin bilikli olmuşdur. O, "Quran"ın digər təfsirlərinə müraciət etmədən ona təfsir yazmış, orada bir çox şəxslərin dərk etmədiyi incəlikləri və həqiqətləri fəsahətli ibarələr və bəlağətli ifadələrlə aydınlaşdırmışdır" [3, s.17-18].

Məhəmmədəli Tərbiyətin "Daneşməndane-Azərbaycan" adlı təzkirəsində də Baba Nemətullah Naxçıvani haqqında deyilir: "Baba Nemətullah Naxçıvani Şeyx Mahmud Naxçıvaninin oğlu, hicri-qəməri IX/XV əsr ariflərindən və şeyxlərindəndir" [5, s.36].

Türkiyənin Van Yüzüncü İl Universitetinin ilahiyyət fakültəsinin dosent-doktoru M. Xəlil Çiçəyin "Nemətullah Ən Naxçıvani və təfsirdəki metodu" adlı monoqrafik tədqiqat əsərində də N.Naxçıvanidən ətraflı söhbət getmişdir.

Türk alimlərindən olan Mehmet Rıhtım özünün "Seyid Yəhya Bakuvi və xəlvətilik" adlı əsərində də Baba Nemətullah Naxçıvanidən bəhs etmiş, onun tanınmış sufi alimlərdən dərs alması, təsəvvüfə bağlanması, Təbrizdə tanınmış sufilərdən Ömər Rövşəni ilə görüşməsi, islam aləminin önəmli mərkəzlərini gəzib dolaşması və sufizmi mənimsəməsi haqqında məlumat vermişdir [6, s.80].

Professorlardan Fəxrəddin Səfərlinin "Naxçıvanda sufiliklə bağlı mərkəzlər" adlı monoqrafiyasında və Məmməd Rzayevlə birgə çap etdirdikləri "Baba Nemətullah Naxçıvani: həyatı və fəlsəfi görüşləri" adlı tədqiqatlarında da Baba Nemətullahın fəlsəfi görüşlərindən bəhs edilmiş, Əhməd Faruq Güney isə öz tədqiqatında Nemətullah Naxçıvaninin həyatı və yaradıcılığından söz açmışdır.

Professor Məmməd Rzayevin tədqiqatında Baba Nemətullah Naxçıvani haqqında belə bir fikir vurğulanır: "İki cildlik "Əl-Fəvatih" adlı təfsirini heç bir mənbəyə istinad etmədən yazdığı hiss olunur. Əsərdən görünür ki, həm təsəvvüfi, həm də elmi şəxsiyyət kimi iki mühüm xüsusiyyəti özündə birləşdirə

bilmişdir. "Vəhdəti-vücud" düşüncəsinə malik olan Ən Naxçıvaninin məzhəbi Hənəfilik təsəvvüfü, inamı isə Nəqşibəndi təriqəti olmuşdur" [4, s.25].

Araşdırmalardan məlum olur ki, Nemətullah Naxçıvani böyük sufi Məhəmməd Parsanın tələbələrindən olmuş, Bəktaşilik və Nəqşibəndilik təriqətlərini mənimsəmiş və Nəqşibəndilik təriqətinin Azərbaycanda ilk nümayəndəsi olmuşdur. Mənşəcə azərbaycanlı olan böyük sufi alim Xacə Məhəmməd Parsan onun sufi alim kimi yetişməsində xüsusi rol oynamışdır.

Hacı Fəxrəddin Səfərli öz tədqiqatlarında bu haqda yazır: "...Baba Nemətullah Naxçıvani Naxçıvanda fəaliyyət göstərən Bəktaşilərin içərisindən çıxmış və Bəktaşiyyə təriqətinə mənsub olmuşdur" [1,s.248]. Onun professor Məmməd Rzayevlə birgə yazdığı "Baba Nemətullah Naxçıvani: həyatı və fəlsəfi görüşləri" adlı tədqiqatında da Baba Nemətullahın Bektaşi dərvişi olduğunu əsaslandırmaq üçün Bektaşiliyin beş mərhələsi olması, 1.Aşıq, 2.Mühib, 3.Dərviş, 4.Baba, 5.Xəlifə mərtəbələri haqqında da elmi açıqlama vermiş və Nemətullaha verilmiş "Baba" fəlsəfi-sufi titulunun onun mənsub olduğu Bəktaşilik təriqəti ilə bağlı olduğunu bildirmişdir. Bu münasibətlə H.F.Səfərli "İslamda təriqətlər və məzhəblər haqqında 100 sual və cavab" adlı əsərə istinad edərək yazır: "Aşıq" təriqətə girmək istəyən adamdır. O, təcrübədən sonra təriqətə daxil olurdu. Təriqətə girən insana "Mühib" deyilirdi. Onlardan isə istəyən dərviş ola bilərdi. Dərvişin başına xəlifə tərəfindən sarıq sarılaraq ona "Baba"lıq rütbəsi verilirdi. "Xəlifə" Bəktaşilərin ən yüksək dərəcəsi idi [3,s.17].

Bu mənbədə Baba Nemətullahın nəsil şəcərəsini yaşadan və Bəktaşi soyadını daşıyan ailələrin Naxçıvanda yaşaması və Bəktaşiliyin daha çox Naxçıvanla bağlı olması haqqında da məlumat verilir: "Məlumdur ki, Baba Nemətullah Naxçıvaninin anadan olduğu Naxçıvan şəhəri "Bəktaşiyyə" sufi təriqətinin geniş yayıldığı ərazilərdən biri olmuşdur... Hazırda Naxçıvan Muxtar Respublikası ərazisində... "Bəktaşi" soyadlı adamlar yaşayırlar. Bu soyadı daşıyan adamların orta əsrlər zamanı Naxçıvanda fəaliyyət göstərən "Bəktaşiyyə" sufi təriqətinin üzvlərinin törəmələri olması heç bir şübhə doğurmur" [3, s.16].

Bu fikirlərdən məlum olur ki, Baba Nemətullah Konyaya getməzdən qabaq Naxçıvanda yaşadığı 50 illik həyatı dövründə Bəktaşi dərvişlərinin keçdikləri dörd mərhələni keçmiş və "Baba"lıq rütbəsi qazanmışdır.

Bu elmi mülahizələr göstərir ki, Baba Nemətullah Haxçıvani Naxçıvanda və Təbrizdə yaşadığı vaxtlarda Bəktaşilik təriqətini mənimsəmiş, Anadolunun Karaman vilayətində, Akşəhərdə yaşadığı vaxtlarda isə bu təriqətlə bağlı görüşlərini təkmilləşdirmiş və Nəqşibəndilik təriqətinə də yiyələnmişdir.

Mənbələrdə onun 1452-ci ildə Naxçıvanda doğulması, Ağqoyunlu hökmdarı Uzan Həsənin zamanında (1467-1478) mədrəsə təhsili alması və Sultan Yaqubun zamanında (1478-1490) Naxçıvan mədrəsələrində müəllimlik etməsi,1514-cü ildə Türkiyədə Konya yaxınlığındakı Akşəhərdə vəfat etməsi və

III Sultan Muradın isə 1584-cü ildə Baba Nemətullahın Baştəkkə yolu üzərində yerləşən məzarında "Əvkafi-zaviyə Baba Nemətullah Naxçıvani" adında bir vəqf təsis etməsi göstərilmişdir.

Digər məlumatlara görə Nemətullah Naxçıvani 1498-ci ilə qədər Naxçıvanda yaşamış, daha sonra Şərq ölkələrinə səfərlər etmiş, səfərdən qayıtdıqdan sonra Təbrizdə yaşamış və orada böyük sufilərdən olan Dədə Ömər Rövşəni ilə yaxın dostluq etmiş, onun sufi görüşlərini mənimsəmişdir.

Nemətullah Naxçıvani 1498-ci ildə Təbrizdən Anadoluya köçmüş, Karaman vilayətinin Akşəhər qəsəbəsində məskunlaşmışdır.

O, Təbrizdə yaşadığı illərdəQurani-Kərimin ayələrinin təfsirinə aid 1495-ci ildə yazıb tamamladığı məşhur "Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə Əl Müdihəti Lil Kəlimil Quraniyyə Vəl hikemil Firkaniyyə" ("Quran"ın kəlmə və hikmətlərini açıqlayan qeybin açarı və ilahi fəthi") adlı əsərini yazmış və 1496-ci ildə tamamlayıb özü ilə Anadoluya aparmışdır. Anadolunun təsəvvüfçü alimləri bu əsərə böyük dəyər vermiş və Nemətullahın sağlığında pul toplayıb əsəri çap etdirmişlər. Çünki bütün təsəvvüfçü alimlərin diqqətini cəlb edən bu əsər Şərqdə islam aləmindəQurani-Kərimin ilk təsəvvüf təfsiri idi. N.Naxçıvani bu əsərin birinci cildindəQurani-Kərimin 13, ikinci cildində 20, üçüncü cildində isə 81 surəsinin təfsirini və şərhini vermişdir. Məhz bu əsəri ilə də Nemətullah Naxçıvani məşhurlaşmışdır. Çünki əsər orijinal yazılmışdı və heç bir mənbəni təkrar etmirdi. Əsərin Baba Nemətullah tərəfindən yazılmış avtoqraf nüsxəsinin ikinci cildi İstanbulda Topqapı Sarayı III Əhməd xan kitabxanasında saxlanılır. Əsər 1908-ci ildə "Osmaniyyə mətbəəsi"ndə cap olunmuşdur.

Bu əsərdən başqa N.Naxçıvaninin "Şərhi-əsrarin-nöqtə", "Hidayət-ül-İxvan", "Təhqiqat", "Vücudiyyə", "Məcmuai-lətaif", "Hidayə", "Nikat", "Mükaşəfə", "Əsilə vəl əcibə" adlı əsərləri də vardır.

N.Naxçıvani Qazi Beyzavinin "Ənvarüt-tənzil" adlı təfsirinə və Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsərinə də təfsir vəşərhlər yazmışdır.

"Gülşəni-raz" əsərinə yazdığı şərhində N.Naxçıvani möbcudatın vəhdətinin panteist izahını vermiş, bunu "Quran" surələrinin nisbətində şərh etmiş və "Mahmud Şəbüstərinin "Quran" ayələri ilə mövcudatın mərtəbələri arasındakı müqayisəsini, ayələrin əqlə, nəfsə, göyə, ulduzlara müvafiqliyi" [3, s.20] haqqındakı fikirlərini yüksək dəyərləndirmişdir.

Baba Nemətullah öz əsərləri və təfsirləri ilə bütün dünyada böyük şöhrət qazanmışdır. Böyük islam aliminin təfsir yaradıcılığından bəhs edən İshaq Doğan onun "Quran" haqqında olan təfsirinə yüksək qiymət verərək yazmışdır: "Müəllifin heç bir təfsirə müraciət etmədən yazdığı bu təfsir təvil və təsəvvüf baxımından əhəmiyyətli bir əsərdir... Nemətullah "Quran"ın başdan-başa hər ayəsini təsəvvüfi baxımdan təfsir etmişdir. Ondan əvvəl yazılan təsəvvüfi təfsirlər hər ayəni əhatə etməzdi, bəzi ayələri keçərdi. Ötürdüklərinin də

hamısını deyil, bəzi kəlmələrini təfsir edər, ümumi mənasının üzərində durardılar. Baba Nemətullah isə hər ayəni kəlmə-kəlmə təfsir etmiş, təfsir etmədiyi ayə qoymamışdır…” [8].

N.Naxçıvaninin əsərlərində əxlaq, fəzilət, elm və ürfan məsələləri geniş yer tutur. Bütün İnsanlığa mənəvi kamillik və mənəvi saflıq gözü ilə baxan müəllif hər bir oxucudan mənəvi zövq və təmiz vicdan hissi tələb edir və “Əl-Fəvatihül-İlahiyyə vəl Məfatihül-Qeybiyyə” əsərinin giriş hissəsində yazırdı: “Qardaşlarımdan və dostlarımdan arzum budur ki, bu əsərə sadəcə ibrət gözü ilə baxsınlar. Fikir bildirərkən mənəvi zövq və vicdan hissi ilə oxusunlar. Sübut, nəfsi-hesab və təxminlə yox, real təhlil və müşahidə ilə yanaşsınlar”.

Göründüyü kimi, N. Naxçıvani təsəvvüf təlimində xüsusi yer tutan mənəvi zövq tərbiyəsinə, vicdan saflığı tərbiyəsinə və təlimdə əsas yer tutan müşahidə üsuluna üstünlük vermiş, özünün tərbiyəvi görüşlərində bunların insan üçün zəruri olduğunu bildirmişdir.

N.Naxçıvani özünün tərviyəvi-əxlaqi görüşlərində insan şəxsiyyətinin formalaşması və inkişafında elmə və biliyə yiyələnməyi zəruri sayırdı. O,“Quran”ın “Əl Rəhman” surəsinin təfsirindəki giriş hissəsində insan şəxsiyyətinə, onun elminə və biliyinə qiymət verərək yazırdı: “İnsan qəlbinin genişlənməyi Rəhmanın arşınının genişliyində təsəvvüf edilməlidir. İnsan biliyi, inamı və “Quran”ı öyrənmək qabiliyyəti ilə uca mövqeyə və yüksək mərtəbəyə layiqdir”.

Baba Nemətullah öz təfsirlərində insan şəxsiyyətinə yaraşmayan acgözlüyü, həyata, var-dövlətə hərisliyi tənqidlə qarşılayırdı. “Gözütoxluğun, comərdliyin, təvazökarlığın, təmənnasızlığın həqiqi möminin, sufinin ən böyük keyfiyyəti və ləyaqəti olduğunu bəyan” [3, s.18] edənmüəllif insan şəxsiyyəti üçün zəruri olanmənəvi gözəlliyi və mənəvi kamilliyi şəxsiyyətin yetişməsində əsas amil kimi götürürdü. O, Qurani-Kərimin “Vəqərə” surəsinin 79-cu ayəsinə yazdığı təfsirində bu haqda deyirdi: “Bu gün nübuvvət (peyğəmbərlik) varisliyini iddia edən bəzi alimlər və şeyxlər halal-haram demədən dünya malı yığırlar. Onlar məqam (mənsəb) və sərvət xatirinə özlərini təhlükəyə atır, özləri üçün axirətdə əzab hazırlayırlar. Onlar qısamüddətli dünya həyatına xatir zilləti (zəlilliyi) qəbul edib zənginlikləri ziyarət edərək mal-mülk toplayır, bu topladıqlarından da fəqir-füqəraya heç nə vermirlər. Onlar bütün bu işləri görə-görə vilayət (dini rəhbərlik) iddiasında olub özlərinin həzrəti-peyğəmbərin varisləri olduqlarını söyləyirlər. Əslində isə bunlar şeytana uyanların özləridir ki var. Rəbbim bizi və bütün bəndələrini şeytanın məkrindən və vəsvəsələrindən qorusun”.

N. Naxçıvaninin sufi, dini-əxlaqi və tərbiyəvi görüşləri onun “Hidayətül-ixvan” (“Dost-qardaşlara yol göstərmə”) adlı əsərində də xüsusi yer tutur. Bu əsər təsəvvüf qardaşlığının islam fəlsəfəsinə həsr olunmuşdur. Lakin N.Naxçıvani bu əsərində əxlaq və hərtərəfli inkişaf etmiş şəxsiyyət və kamil

insan məsələlərinə də geniş yer vermiş və bu məsələləri təsəvvüf mövqeyindən şərh etmişdir.

Nemətullah Naxçıvaniyə görə insan şəxsiyyətində olan bütün müsbət mənəvi gözəlliklər və müsbət əxlaqi keyfiyyətlər ona uca Allah tərəfindən verilir. Bu münasibətlə müəllif öz əsərində inkişaf etmiş şəxsiyyət, yəni kamil insan haqqında yazırdı: "Aləmin bütün xüsusiyyətləri insanda mövcuddur. Kamil insan mərtəbəsi uca Allahın müəyyən etdiyi ən gözəl görünüşdür".

N.Naxçıvani bu əsərində tərbiyədə əsas rol oynayan elmi biliklərə, mənəvi kamilliyə, gözəl davranışa və əxlaqa üstünlük verirdi. Böyük mütəfəkkir hərtərəfli inkişaf etmək, cəmiyyətdə layiqli yer tutmaq üçün insandan elmi biliklərə yiyələnməyi, mənəvi kamillik dərəcəsinə yüksəlməyi, insani davranışları əxz etməyi və yüksək əxlaqa malik olmağı tələb edir və yazırdı: "Kamil insan yaxşı sözə, yaxşı hərəkətə, yaxşı əxlaqa və məlumata tam yiyələnən varlıqdır".

N.Naxçıvani bu əsərində elmi fəaliyyətlə yaradıcılığı vəhdətdə götürür və insan üçün belə bir zəruri fikir vurğulayırdı ki, insanın həyatda qazandığı elmi biliklər onun cəmiyyətdəki ictimai fəaliyyəti ilə uyğun və vəhdətdə olmalıdır. Bu fikirlərinin şərhində müəllif elmi "elmi-hüzuri" və "elmi-husuli" olaraq iki yerə ayırırdı. Onun fikrinə görə "elmi-hüzuri" Allahın iradəsinə bağlıdır və ancaq onun lütfkarlığı ilə qazanılır. Buna "vəhy elm" də deyilir. Hər bir alim bu elmə sahib ola bilməz. Allah "elmi-hüzuri"ni yalnız öz istədiyi və arzu etdiyi bəndəsinə verir. İkinci elmi, yəni "elmi-husuli"ni yaradılan şəxs Məhəmməd (s) peyğəmbərdən və alimlərin söhbətlərindən qazana bilər.

Deyilənlər təsdiq edir ki, Baba Nemətullah Naxçıvani, sufi istiqamətdə olsa da, öz əsərlərində şəxsiyyətə, elmə, yaradıcılığa, əxlaqa, təlim və tərbiyə məsələlərinə geniş yer vermiş, kamil insan və hərtərəfli inkişaf etmişkamil şəxsiyyət arzulamışdır.

Baba Nemətullah Naxçıvaninin təfsirlərində irəli sürülən sufi mətləblər və mənəvi islami dəyərlər öz dini və elmi əhəmiyyəti cəhətdən çağdaş dövrümüz üçün də çox aktual sayılır. Əsərlərində islami dəyərlərə üstünlük verib bunun insan tərbiyəsində əhəmiyyətini ön plana çəkən böyük islam mütəfəkkirişəxsiyyətin kamilliyini islami dəyərlərə yiyələnməkdə görmüş və öz təfsirlərində bu ideyadan çıxış etmişdir.

## ƏDƏBİYYAT

1.Hacı Fəxrəddin Səfərli. "Naxçıvanda sufiliklə bağlı mərkəzlər".Bakı: Elm və təhsil, 2013.

2.İsmayıl Hacıyev. Naxçıvan torpağının yetirdiyi görkəmli alim və mütəfəkkir. "Şərq qapısı" qəzeti, 2 noyabr 2018-ci il.

3. Hacı Fəxrəddin Səfərli, Məmməd Rzayev. Baba Nemətullah Naxçıvani: həyatı və fəlsəfi görüşləri. AMEA-nın Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2007, № 1.

4.Məmməd Rzayev. Neymətullah Naxçıvani. NDU-nun "Fikir" jurnalı, 1998,№ 2.

5.Məhəmmədəli Tərbiyət. Danişməndane-Azərbaycan. Bakı: Azərnəşr, 1987.

6.Rıhtım Mehmet. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı: 2005.

7. https://www.google.az/search?q=Nemətullah+Naxçıvan

8.https://nuhcixan.az/gorkəmli-turk-islam-alimi-baba-nemətullah-naxcivani-və-orta-əsr- naxcivan-muhiti/

**UOT 32**

# TƏZYİQ QRUPLARININ SİYASİ PROSESLƏRƏ TƏSİR METODLARI VƏ VASİTƏLƏRİ

***Riyad Rüstəmli***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*riyadrustamli@yahoo.com*

**Açar sözlər:** *təzyiq qrupları, metod, vasitə, maraq, tələbat, hakimiyyət*

*Məqalədə maraq qruplarının spesifik növü olan təzyiq qruplarının siyasi proseslərə təsir metodları və üsulları təhlil olunur. Təzyiq qruplarının siyasi proseslərə ciddi təsiri ilk növbədə siyasi sistemin demokratik mahiyyəti və dərəcəsi ilə müəyyənləşdirilir. Bununla bağlı, siyasi proseslərə onların təsirinin üstünlükləri aşkarlığın və qanunverici tənzimləmənin səviyyəsi ilə əlaqələndirilir, eləcə də, bu istiqamətdə siyasi texnologiyanın mahiyyəti vurğulanır.*

## МЕТОДЫ И СРЕДСТВА ВЛИЯНИЯ ГРУПП ДАВЛЕНИЯ НА ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ

***Рияд Рустамли***

**Ключевые слова:** *группы давления, метод, средство, интерес, потребность, власть*

*В статье анализируется влияние групп давления на конкретные типы групп интересов на политические процессы и методы. Серьезное влияние групп давления на политические процессы определяется, прежде всего демократической сущностью и степенью политической системы. В этом отношении преимущества их влияния на политические процессы коррелируют с уровнем прозрачности и законодательного регулирования, а также с сущностью политических технологий в этом направлении.*

# METHODS AND MEANS OF INFLUENCE OF PRESSURE GROUPS ON POLITICAL PROCESSES

***Riyad Rustamli***

**Key words:** *pressure groups, method, means, interest, need, power*

*The article analyzes the impact of pressure groups on specific types of interest groups on political processes and methods. The serious impact of pressure groups on political processes is primarily determined by the democratic essence and degree of the political system. In this regard, the advantages of their influence on political processes are correlated with the level of transparency and legislative regulation, as well as the essence of political technology in this direction.*

Maraqqruplarının siyasi proseslərə təsir metodları və vasitələri haqqında danışarkən qeyd etmək lazımdır ki, onların spesifik növü olan təzyiq qruplarının fəaliyyət xüsusiyyətlərindən biri həmin qrupların yalnız qərarların qəbulu sferasında (icraedici və qanunverici) fəallıq göstərməsidir. Onlar kütlələrlə çoxsaylı əlaqələrə malikdir.Həm də bu əlaqə ümumi maraqlarla bağlı deyil, spesifik xarakter daşıyır.İctimai fəaliyyətə az meyllidirlər.Lakin siyasi oyunlarda qəbul olunan daha məhdud vasitələr dəstini məqbul hesab edirlər. Belə fəaliyyət formalarına qarşıdakı seçkilərə namizədlərin seçimi, kütləvi informasiya vasitələrinin nəşri, namizədləri müdafiə fondunun yaradılması və s. aiddir.

Təzyiq qrupları öz məsələlərinin həllinin başlıca metod və vasitələri kimi məsul şəxslər və idarəetmə orqanları üçün, siyasətçilərə və idarə edənlərə kömək məqsədi ilə şuarlardan, tövsiyələrdən, məsləhət verməkdən istifadə edirlər. Qərarların yerinə yetirilməsi, mətbuatla əlaqəni təmin etmək, siyasi qrupların maliyyələşdirilməsi, deputat komissiyalarında iş aparmaq, qanuna nəzarət etməkdə inzibati müdiriyyətlə əməkdaşlıq etmək üçün təsirli mexanizmlərdən və müxtəlif vasitələrdən məqsədyönlü istifadədən yararlanırlar. Lakin siyasi proseslərə təsir gedişində onlar qanuni olmayan vasitə və üsullara da əl atırlar. Beləliklə, təzyiq qruplarının öz funksiyalarını həyata keçirməsi xarakteri hər şeydən əvvəl, onların fəaliyyət üsullarının qanuni və ya qeyri-qanuni olmasından asılıdır (1, s. 154). Təzyiq qruplarının müxtəlif növləri arasında prosesə "birbaşa daxil olan" qruplar da mövcuddur. Belə qruplar hakimiyyət strukturlarına biznesin ayrıca nümayəndələrinin köməyi ilə təsir etməyə üstünlük verirlər. Siyasi proseslərə spesifik təsir qruplarına həmcinin: hakimiyyət orqanlarında "öz adamlarının" mövcudluğunu ifadə edən "koridor

lobbiçiliyi" (ələ alınmış məmurlar), hakimiyyət və biznes nümayəndələrinin əlaqələrinin müxtəlif formalarını ifadə edən "korporativ lobbiçilik", sırf siyasi problemlərin həllini qismən öz üzərinə götürən "qabağa çəkilmiş qruplar", qeyri-formal əlaqələr əsasında təşkil edilən qruplaşmaları səciyyələndirən "əlaqə qrupları" aiddir. Təzyiq qruplarının siyasi proseslərə ən çox təsir edən hissəsini D.Rismen "veto qrupu" adlandırır, onlar özlərini təniin etməyən qərarları bloklamaq (təcrid etmək) və ya buna yol verməmək qabiliyyəti ilə səciyyələnirlər.

Bütövlükdə təzyiq qruplarının siyasi proseslərə ciddi təsiri və fəaliyyətinin bu və ya digər metodlarının üstünlüyü siyasi sistemin demokratiklik dərəcəsi, aşkarlığı ilə müəyyən edilir, qanunverici tənzimləmənin səviyyəsi ilə şərtlənir. Bununla yanaşı maraq qruplarının hakimiyyətlə qarşılıqlı münasibətlərinin tipik üsulları milli dövlətçiliyin inkişafında müəyyən meyllərə təsir göstərə bilər. Belə ki, bir sıra Latın Amerikası dövlətlərində, qismən Rusiyada və SSRİ-nin bəzi keçmiş respublikalarında ayrı-ayrı maraq qruplarının fəaliyyəti idarəetmənin gizli formalarının, dövlət məmurlarının rüşvətxorluğunun, qərarların qəbulu sferasının kriminallaşmasının artmasına imkan yaradır. Bir sıra digər dövlətlərdə bu siyasi təsisatlar əksinə, dövlət idarəçiliyi sahəsinin ictimaiyyət üçün açıq olmasına cəhd edirlər, digər vasitəçilərin köməyi ilə hakimiyyət arasındakı əlaqələrimöhkəmləndirirlər. Məsələn, ABŞ-da ümummilli partiya öz tərkibində məharətli assosiasiyaların, vətəndaşların, maraq qruplarının (hakimiyyətin federal orqanlarına seçkilər prosesində öz aralarında əməkdaşlıq edən) məcmusunu təmsil edir.

Təcrübə göstərir ki, yeni sahələrdə təzyiq qruplarının təşəkkülü cəmiyyətin irəliyə doğru hərəkətinə imkan yaradır, "ənənəvi" qrupların fəaliyyəti isə islahatları və s. mühafizə etməyə istiqamətlənir. Təzyiq qruplarının fəaliyyətinin və siyasi proseslərə təsirinin effektli olması hüquqi sistemdə müəyyən olunan icraedici və qanunverici orqanlar arasında əlaqələrin xarakterindən, hakimiyyətin müxtəlif qolları tərəfindən və maliyyə sferasında, eləcə də kütləvi informasiya vasitələri sistemində müdafiə olunmasından asılıdır. Maraq qruplarının fəaliyyətinin nəticələri cəmiyyət üçün o halda mənfi xarakter kəsb edir ki, hakimiyyətin yüksək bürokratikləşməsi baş versin, lobbiçilik hüquqi tənzimlənmədən məhrum olsun, vətəndaş cəmiyyətinin inkişaf dərəcəsi və elita üzərində nəzarət aşağı səviyyədə olsun, kütləvi informasiya vasitələrinin kommersiya qruplaşmalarından iqtisadi asılılığı yüksək səviyyədə nəzərə çarpsın.

Konkret problemin həlli fərdlərin, sosial təbəqə və qrupların ona nail olmasının məqsəd və vasitəsini, mexanizmini başa düşməsindən daha çox, praktikada təcəssümünün konkret üsullarını işləyib hazırlamasını ifadə edir, başqa sözlə, məsələnin həlli üçün müəyyən texnologiyanın tətbiqini nəzərdə tutur. Əlbəttə, maraq-təzyiq qruplarının siyasi proseslərin təsir vasitələri barədə

mülahizələr yürüdərkən siyasi texnologiyanın mahiyyətinin vurğulanması diqqətdən yayınmamalıdır. Siyasi texnologiya zəruri siyasi nəticələrin əldə olunmasına istiqamətlənən ardıcıl, aşkar nəzərə çarpan effektli fəaliyyətlərin məcmusudur (sistemidir) (2, s. 21). Məhz buna görə texnologiyanın köməyi ilə hakimiyyətin, yeni mənası və mahiyyəti üzə çıxır. Texnologiya siyasi hadisələrin ölçüsü problemini yeni tərzdə təzahür etdirir, siyasi hadisələrin tənzimlənməsi (nəzarəti) məqsədilə ixtisaslaşmış fəaliyyətin əsasını möhkəmləndirir. Siyasi texnologiyainsanların, sosial qrupların fəaliyyətini, sistemin təşkilini nizamlayırvə buna görə də əlverişli siyasi məsələlərin həlli üçün çoxtərəfli qaydada istifadə edilə bilər. Siyasi texnologiyadan istifadə olunmasının subyektləri siyasi elita, liderlər, partiyalar, ictimai təşkilatlar və müəyyən qruplar hesab olunur. Təsiretmə obyekti insanların sosial qruplarının siyasi şüuru və davranışıdır. Siyasi texnologiyanın reallaşmasının başlıca vasitəsi kütləvi informasiya vasitələri və politoloji (siyasi) tədqiqatların müxtəlif mərkəzləridir (3, s.423).

Cəmiyyətin siyasi həyatının fəaliyyət şəraitinin təhlili göstərir ki, siyasi proseslərin texnologiyalaşmasının mahiyyəti siyasi sistemin potensialının üzəçıxarılması və istifadəsi prosesində açıqlana bilər. Bu isə siyasi təsir metodlarının,üsullarının, məcmusunun köməyilə siyasi sistemin optimal fəaliyyəti məqsədlərinə xidmət edir. 1999-cu ildə Moskvada nəşr edilən siyasi ensiklopediyada siyasi texnologiyaya geniş və düzgün tərif verilir: "Siyasi texnologiya siyasi problemlərin həlli, siyasətin işlənib hazırlanması, onun reallaşması, praktiki siyasi fəaliyyətin həyata keçirilməsi metodudur, siyasət sferasında obyektin yenidən dəyişdirilməsinə (vəziyyətin dəyişilməsinə), nəzərdə tutulan nəticənin (məqsədin) əldə edilməsinə istiqamətlənən üsulların məcmusudur.

Maraq qruplarının siyasi proseslərə təsir metodları və vasitələrinin rasionallığı və optimallığı, hər şeydən əvvəl, həmin prosesə effektli təsir amilləri ilə müəyyən olunur. Maraq qruplarının, xüsusilə onun daha təsirli və güclü növü olan təzyiq qruplarının hakimiyyətə effektli təsirinin amillərinə təşkilatın istifadə etdiyi vasitələr; səylərin gücləndirilməsi, ixtisaslaşdırılmış orqanların mövcudluğu, təsir etmək qabiliyyəti, qarışmaq tipi (hakimiyyətə dolayı və ya birbaşa təzyiq) aiddir.

Q.Almondun və D.Pauellin fikrincə, maraqları müdafiə edən müxtəlif qruplar konkret təşkilatın xarakterindən asılı olaraq təzyiq göstərməyin müxtəlif üsullarından istifadə edirlər (4, s. 397). Təzyiq qrupları hakimiyyətdən özlərini təmin edən qərarı əldə etmək üçün məsələn, zorakı metodlardan istifadə edə bilərlər. Adətən belə vasitəni öz-özünə təşəkkül tapan qruplar tətbiq edirlər(məsələn, kortəbii nümayiş). Qeyri-formal və müvəqqəti qruplaşmalar şəxsi əlaqələrdən istifadə etməklə təzyiqi həyata keçirirlər (ailəvi, ictimai, yerli). Nəhayət, assosiativ və institutsional qruplar nümayəndəli prosedurlardan

istifadə etməyə üstünlük verirlər (məsələn, onların nümayəndələrinin parlamentə seçilməsinə nail olmaq). Təzyiq qruplarının təsir vasitələri baxımdan fərqlənməsi xeyli dərəcədə şərtidir, yəni, konkret təşkilatlar hansısa bir vasitədən istifadə etməklə məhdudlaşmır, məhz formal və təşkilati təsir vasitələrinin hamısından istifadə etməyə cəhd edirlər (kütləvi informasiya vasitələrindən, partiyalardan, qanunvericilərdən, müdiriyyətdən və s.).Siyasi elita ilə bu kommunikasiya kanalları təzyiq qruplarına imkan yaradır ki, elita ilə əlaqədə çıxış etsin və siyasi qərarların qəbul olunmasının xarakterinə və məzmununa təsir göstərsin. Təzyiqin effektliyi eləcə də səylərin gücləndirilməsindən asılıdır.

Məsələ ondadır ki, müxtəlif ölkələrin siyasi sistemlərində konkret qərarların qəbul olunmasında iştirak edən bu və ya digər elementlər eyni deyildir. Bir qrup ölkələrdə qərarların qəbulu mərkəzi qanunverici hakimiyyət sferasında, digər ölkələrdə icraedici hakimiyyət strukturlarında yerləşir, üçüncü qrup ölkələrdə bu prosesdə yerli orqanlar böyük rol oynayırlar. Təzyiq qruplarının maraqlarının nəzərə alınması ilə bağlı qəbul olunan qərarlar nəticə etibarilə təzyiq vasitələri üzrə ixtisaslaşan orqanların yaranmasına gətirib çıxartdı. Məsələn, ABŞ-da həmin orqanlara daxil olanlar lobbiçilər adlandırılır, lakin Avropada “maraq qrupları” terminindən istifadə edilməsinə üstünlük verirlər.

Müəyyən maraq qruplarının maraqlarının tədricən ön plana çəkilməsi ixtisaslaşmış büro və kontorların yaranmasına səbəb oldu ki, bunlarda hakimiyyətə təsir göstərmək istəyənlərə öz xidmətlərini təklif edir, onların xidmətindən müxtəlif nazirliklər və xüsusi təşkilatlar istifadə edirlər.

Təzyiq qruplarının imkanları müxtəlifdir. Onlardan bəziləri cəmiyyətdəki nüfuzundan istifadə edir və buna görə də belə qruplar bilavasitə qərarları qəbul edənlərə müraciət etməyi lazım bilirlər. Digər təzyiq qrupları isə elita ilə birbaşa əlaqə yaratmaq kanallarına malik olmadığına görə hakimiyyətə dolayı yolla təsir göstərməyə məcburdurlar. Onlar ilk əvvəl ictimai rəyə, sonra isə siyasi qərarları qəbuledənlərə təsir göstərirlər. Təsir etməyin xarakterindən asılı olaraq təsir etmənin üç tipi fərqləndirilir: Siyasi qərarları qəbul edənlərə (başqa sözlə, hakimiyyət) təsir göstərmək; hakimiyyəti əldə saxlayan və ya ona nəzarət edən partiyaya təsir etmək; hakimiyyətə təsir edən ictimai rəyə təsir göstərmək. İlk halda təsir obyektini qanunvericilər, hökumət nazirləri, inzibati elita təşkil edir. Onlar ən mühüm siyasi qərarları qəbul edirlər və sosial qrupların və birliklərin maraqlarını müxtəlif ölçüdə nəzərə alırlar. Siyasi qərarda bu və ya digər qrupun marağının nəzərə alınması normal hadisədir. Əgər maraq vardırsa, onun reallaşması da tələb olunur. Lakin təzyiq qruplarının qərarların qəbuluna təsir imkanları nə qədər müxtəlifdirsə, açıq və gizli təsir vasitələrindən bir o miqdarda istifadə edirlər (6, s. 214-215).

Hakimiyyətə təsir göstərməyin gizli kanallarına malik olmaq nəinki siyasi qərarların qəbulu məntiqini başa düşməyə imkan yaratmır, eləcə də rəsmi hakimiyyətin klanların, mafıoz qrupların, kriminal strukturların gizli hakimiyyətini ört-basdır etmək imkanlarını genişləndirir. Təzyiq qruplarının xüsusi maraqları müdafiə etmək funksiyasını yerinə yetirməsi və real hakimiyyətə çevrilməsi üçün ölkələrin əksəriyyətində elə qanunvericilik mövcuddur ki, onların açıq fəaliyyət imkanlarını dəqiq müəyyənləşdirir (məsələn, 1946-cı ildə ABŞ-da lobbiçiliyin tənzimlənməsi haqqında federal qanunun qəbulu). Təzyiq qrupları siyasi qərarları qəbul edənlərə məlumatlandırma, məsləhət vermə və ya hədə-qorxu ilə təsir göstərə bilər. Belə halda təzyiq qruplarının açıq fəaliyyəti razılaşma və iştirak prinsipinə əsaslanır. Konkret qrupun maraqlarının üstünlüyünə nail olmaq üçün bu barədə hakimiyyəti məlumatlandırmaq zəruridir. Qrupun tələbinin ədalətli olması haqqında hərtərəfli və əsaslandırılmış məlumat rəsmi şəxslərin, əsasən parlament üzvlərinin nöqteyi-nəzərinin dəyişməsinə imkan yaradır. Təqdim olunan faktların, göstəricilərin inandırıcı olması xeyli dərəcədə nəinki informasiyanın xarici obyektiv və məqsədyönlü oriyentasiyasının xarakteri ilə şərtlənir, həm də ondan irəli gəlir ki, təqdim edilən qanun layihəsində qanunvericilərin texniki məsələlərləbağlı təcrübəsizliyinin olacağını da nəzərdə tutur. Hakimiyyətə tələb halında sosial cəhdlərin açıq ifadəsi təzyiq prosesinin məhz başlanğıc fazasını səciyyələndirir. Təzyiq qrupları müdiriyyətə və hökumətə birbaşa təsirini onların nəzdində yaradılan məsləhətçi orqanların (ekspert şurası, komitələr, komissiyalar) vasitəsilə də reallaşdırır. Məsələn, ABŞ-da hökumətin nəzdində iki min belə məsləhətçi təşkilatlar mövcuddur. Dövlət orqanları daim fəaliyyət göstərən strukturlar yaratmaqla müntəzəm olaraq qruplarla qarşılıqlı məsləhətləşmələr aparırlar (“dəyirmi Stol", nazirlərlə görüş, parlamentdə dinləmə vasitəsilə və s.). Belə əlaqələr nəinki razılaşdırılmış qanun layihələri və eləcə də maraq qruplarınınnümayəndələrinin rəhbər vəzifələrə təyin edilməsi ilə nəticələnir.

Hakimiyyətə açıq təsirin son forması ya parlament üzvlərini və yaxud dövlət məmurlarını hədələməkdir, onları təhdid etməkdir. Qanunvericilərin ünvanına qorxu yaratmaq müxtəlif formalarda qəbul edilə bilər: məcburetmə qruplarının öz proqramlarında namizədlərin seçkilərə məcburi qatılmasını əks etdirmək; maraq kəsb edən qanun layihəsinə səsvermə ərəfəsində parlament üzvlərinin yenidən seçilməsi ilə bağlı kompaniyanın başlanması imkanları barədə xəbərdarlıq; parlament binası qarşısında və digər bu tipli yerlərdə nümayiş təşkil etmək. Dövlət qulluqçularını hədələmək özündə onların nüfuzlu vəzifələrini itirmək təhlükəsini, mövqeyinin pozulmasını əks etdirir.

Hakimiyyətə gizli təzyiq vasitələri də müxtəlifdir: şantaj etmək, korrupsiya, qohumluq əlaqələrindən istifadə etmək. Gizli təsir etmənin effektivliyi onunla bağlıdır ki, o şəxsi əlaqələrə əsaslanır və təzyiq qruplarının

üzvləri rəhbər dairələrdə belə əlaqələrə malikdirlər. Mühitin, dilin ümumiliyi, intellektual görüşlər, davranış qaydaları nöqteyi-nəzərlərin, mövqelərin yaxınlaşmasını, fikir mübadiləsini xeyli asanlaşdırır. Hakimiyyət üçün mühüm amil ondan ibarətdir ki,geniş dostluq münasibətləri şəbəkəsinə malikdir. Müəyyən təzyiq qruplarının üstünlüyü xeyli dərəcədə sosial mənşə, birgə təhsil, maddi resursların mövcudluğuilə bağlıdır. Müştəri və qohumluq əlaqələrinin əhəmiyyətini unutmaq olmaz. O təzyiq qrupları ilə dövlət administrasiyasının qarşılıqlı fəaliyyətinə gətirib çıxarır. Lakin gizli təsiretmə formasının effektivliyinin ("xüsusi münasibətlərə" əsaslanan) ölçüsünü təyin etmək çətindir.

Gizli təsir etmənin kifayət qədər yayılmış üsulu korrupsiyadır. Demokratik sistemlərdə onun birbaşa formaları (səslərin, vacib qərarların əldə edilməsi) öz yerini daha təkmilləşmiş və gizlin formalara verir. Korrupsiya fərdi və kollektiv formada mövcuddur. Fərdi korrupsiya kiçik hədiyyə vasitəsilə baş verir və onun sayəsində siyasi cəhətdən məsul şəxsə meyllilik təmin olunur, xeyriyyəçilik nəzərə çarpır (bu, istirahət etməyə dəvət olunmaqda, səfərin-səyahətin, məzuniyyətin təşkilində ifadəsini tapa bilər). Kollektiv korrupsiya isə partiyaların və seçki kompaniyalarının maliyyələşdirilməsində təzahür edir. Seçki kompaniyasının bahalığı xeyli sayda namizədləri maliyyələşmə vasitələri axtarışı məqsədilə biznesə müraciət etməyə məcbur edir. Xüsusi firmalar gələcəyə ümid məqsədilə öz vəsaitini spesifik kapital kimi yerləşdirməyi nəzərdən keçirir və bunun sayəsində gələcək qanunvericini müxtəlif güzəştlərlə təmin edir (vergi güzəşti, güzəştli kredit və s.). Xeyli miqdarda xüsusi firmalar vəsaitləri yerləşdirmək üzrə təşkilatlar yaratmaq üçün birləşirlər. Bu birliklər partiyalara və namizədlərə gizli effektli təzyiq göstərirlər.

Siyasi qərarların qəbulu müxtəlif qrupların və vətəndaşların siyasi tələblərinin reallaşdırılmasının mərkəzi elementidir.Bütün cəmiyyət üçün məqbul sayılan bu məsələ həm də sosial münasibətlərin tənzimlənməsi və təşkilinin metod vasitəsi kimi çıxış edir. Əslində bu proses siyasi sistemə "giriş" və "çıxış" kimi iştirak edir. Buna görə sosial qrupların tələbinin artması, mühitin sosial "narazılıqları" idarəetmənin miqyasını genişləndirir və siyasi həyatın təşkilində onun rolunu yüksəldir. Digər tərəfdən, qərarların qəbulunun reallaşmasının effektivliyi idarəetmə rejiminin müdafiə olunması dərəcəsinə və nüfuzuna bilavasitə təsir göstərir.

Hakim rejimin siyasi hadisələri qabaqcadan duymaq qabiliyyəti, böhranın yaranmasına mane olması və ya onlara sonradan reaksiya vermək məcburiyyətində qalması ən mühüm problemləri müəyyənləşdirmək bacarığından asılıdır. Bir qaydaolaraq bu halda müxtəlif qruplar özlərinin müdafiə etdiyi belə düşüncədən çıxış edirlər ki, vacib ictimai problemləri hansı ardıcıllıqla həll etmək lazımdır. Bu və ya digər sosial məsələlərin aktuallığına seçim münasibəti ideoloji tələblərlə, hakim dairələrin nümayəndələrinin gözlənilən mövqeyilə,

şəxsi rəğbətlə, keçmiş təcrübə ilə və digər səbəblərlə müəyyənləşdirilə bilər (7, s. 137).

Bu prosesdə müxtəlif strukturlar, yəni formal (parlament komitələri, komissiyaları, lobbi qrupları) və qeyri-formal (siyasətçilərin şəxsiyyətlərarası birlikləri, ekspertlər və b.) strukturlar mühüm rol oynayırlar. Böyük, strateji və ya adi, köhnə məsələlərin həllinin gözlənilməsi faktı böyük əhəmiyyət kəsb edir. Birinci halda siyasi qrup və qüvvələr sərt şəkildə açıq və ya gizli polemikaya cəhd edir, hakim dairələrdə gərginlik artır, hakimiyyətin gizli vasitələrinin təsiri güclənir. "Gündəlik məsələnin" işlənib hazırlanmasının başlıca şərti informasiyanın əldə edilməsidir ki, bu da idarə edənlər üçün xüsusi problemli situasiya yaradır. Bununla bağlı qərarların qəbulu problemini tədqiq edən məşhur mütəxəssis E.Kveydin qeyd etdiyi kimi, informasiya elə prinsipial məqamlarda alınmalıdır ki, qərarların qəbulu zamanı nəzərə alınsın. Bu zərurət qərarı qəbul edən orqanların sosial proseslər haqqında düzgün məlumat alması və onların işlənib hazırlanması imkanlarının mövcudluğunu nəzərdə tutur.

Maraq qruplarının siyasi proseslərə təsir mexanizmləri və vasitələrini dolğun başa düşmək baxımından sosial qruplar arasında qarşılıqlı əlaqə və təsirin açıqlanması zəruridir. Sosial qrupların qarşılıqlı əlaqə və vasitələri müxtəlifdir. Elmi ədəbiyyatda sosial qarşılıqlı təsirin əlamətləri bu prosesin iştirakçılarının kəmiyyət və keyfiyyət göstəriciləri əsasında müəyyənləşdirilir: - iki ayrıca fərd arasında təzahür edən qarşılıqlı təsir;- ayrıca fərdlə qrup arasında qarşılıqlı təsir;- iki qrup arasında qarşılıqlı əlaqə və təsir;- birtərəfli və ikitərəfli qarşılıqlı əlaqə və təsir;- uzun müddətli və müvəqqəti qarşılıqlı təsir;- birbaşa və vasitəli (dolayı) qarşılıqlı təsir.

## ƏDƏBİYYAT

1. Боришполец К.П. Метод политических исследований. М: 2005, 221с.

2. Основы политологи / Под ред. – Р.Т. Яновского. М: 1991, 387с.

3. Əfəndiyev M. Politologiya. Dərslik. Bakı: 2018, 515s.

4. Мастенбург У. Управление конфликтами ситуациями и развитие организации – М: 1996, 362с.

5. Розин В.М. Культурология. М: 2001, 344с.

6. Марченко М.Н. Буржуазные политические партии. М: 1987, 483с.

7. Ортега-и-Гассет. Избранные труды. М: 1997, 704с.

8. Антоновис Н.А. Методология и методы политического анализа. Минск: 2007, 197с.

**UOT 94(479.24)**

# 1818-1820-Cİ İLLƏR QAZAX-ŞƏMŞƏDDİL ÜSYANLARI VƏ ŞİMALİ AZƏRBAYCANIN MİLLİ-AZADLIQ HƏRƏKATI TARİXİNDƏ ONLARIN YERİ

***Mürvət Əliyev***
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu*
*murveteliyev9099@gmail.com*

**Açar sözlər:** *Qazax, Şəmşəddil, Rusiya, rus qoşunları, əhali*

*Məqalədəçar Rusiyası məmurları tərəfindən törədilən sui-istifadə hallarına, özbaşınalıqlara və vergi mükəlləfiyyətlərinin ağırlığına qarşı baş qaldıran 1818-1820-ci illər Qazax-Şəmşəddil üsyanlarından bəhs olunur. Xalqın vahid birliyini nümayiş etdirən bu üsyanlar nəticəsində sonrakı illərdə baş qaldıracaq növbəti milli-azadlıq hərəkatlarına da zəmin hazırlanmış və yerli əhali onlara qarşı tətbiq edilən vergi yükünün ağırlığından qısa müddət də olsa xilas ola bilmişdir. Məhz bu üsyanların təsiri altında Rusiya hökumətinin daxili vəziyyəti gərginləşmiş və bu da Qacar İranı dövlətinin işğal olunmuş əraziləri geri qaytarmaq uğrunda növbəti savaşa hazırlaşmasına səbəb olmuşdur.*

# ГАЗАХСКО-ШАМШАДДИЛЬСКИЕ ВОССТАНИЯ 1818-1820-х годовИ ИХ МЕСТО В ИСТОРИИ НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНОГО ДВИЖЕНИЯ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА

***Мурвет Алиев***

**Ключевые слова:** *Газах, Шамшаддиль, Россия, русские войска, население*

*В статье рассматриваются случаи злоупотреблений, совершаемых царскими российскими должностными лицами, произвол и тяжесть налоговых обязательств, явившиеся результатом Газахско-Шамшаддильских восстаний 1818-1820-х годов. Результаты этих восстаний, демонстрирующих единство народа, подготовили почву для последующих национально-освободительных движений, которые прошли в последующие годы, и местное население хоть и на короткое время,*

*смогло спастись от тяжести применяемого к ним налогового бремени. Именно под влиянием этих восстаний усугублялась внутренняя ситуация в российском правительстве и это стало причиной для подготовки к очередной войне для свержения оккупированных территорий Каджарским государством.*

## GAZAKH-SHAMSHADDIL UPRISING OF 1818-1820-ies AND THEIR PLACE IN THE HISTORY OF THE NATIONAL LIBERATION MOVEMENT OF NORTHERN AZERBAIJAN

***Murvet Aliyev***

**Key words:** *Gazakh, Shamshaddil, Russia, Russian troops, population*

*The article deals with the cases of abuses committed by tsarist Russian officials, the arbitrariness and severity of tax liabilities resulting from the Gazakh-Shamshaddil uprisings of 1818-1820-ies. The results of these uprisings, demonstrating the unity of the people, prepared the ground for the subsequent national liberation movements that took place in the following years, and the local population, even for a short time, was able to escape the burden of tax applied to them. It was under the influence of these uprisings that the internal situation in the Russian government was aggravated and this became the reason for preparing for another war to overthrow the occupied territories by the Kajar state.*

XIX əsrin əvvəlində Borçalı, Qazax və Şəmşəddil sultanlıqlarının Gürcüstan quberniyasının tərkibində Rusiyaya birləşdirilməsi və distansiyalara çevrilməsindən sonra bu bölgələrin əhalisi çar məmurlarının tətbiq etdiyi vergi yükünün ağırlığından əziyyət çəkir və buna görə də öz yaşayış yerlərini tərk etməyə məcbur olurdular. Çar məmurlarının azğınlığı hətta o dərəcəyə çatırdı ki, onlar rus qoşunlarının saxlanılması üçün əhalidən hətta, tələb olunan miqdardan da çox taxıl vergisi toplayır, artıq qalan taxıl məhsullarını isə qidaya ehtiyacı olan əhaliyə qaytarmayıb, proviant mağazalarında çürüntüyə çevirirdilər.

XIX əsrin birinci rübündə müsəlman distansiyalarının idarə olunması işində kəskin və olduqca riskli bir addım atılmışdı. Qafqazın baş komandanı A.P.Yermolov 1816-cı ildə bu bölgələrə baş çəkərkən, orada təhkimli əhali ilə sadə xalq arasındakı vəziyyət arasında heç bir fərqin olmadığına əmin olmuşdur. Ağalar və məliklər əhali və onların əmlakları ilə qeyri-məhdud hakimiyyətə malik olan mülkədarlar kimi davranırdılar. Ağalar və məliklərin

mülkədarlardan fərqi yalnız onda idi ki, onlar torpaqların və insanların satılması hüququnu özləri üçün mənimsəməmişdilər. Bütün bunlar məzlum təbəqələrin feodalların və çar məmurlarının zülmü altına düşməsi nəticəsində baş verirdi. Əhalinin hüquqlarını müdafiə edən qanunverici normaların olmamasını hətta çar administrasiyasının nümayəndələri də etiraf edirdilər [1, 116-117].

Çarizmin Qafqazdakı müstəmləkəçilik siyasətini daha ardıcıllıqla həyata keçirən Yermolov Borçalı, Qazax və Şəmşəddil distansiyalarında ağalarla kəndlilər arasındakı münasibətləri hökumətin xeyrinə qaydaya salmaq və yerli feodalların imtiyazlarını müəyyənləşdirmək məqsədilə 1817-ci ildə İcraedici ekspedisiyaya ağaların hüquqları barədə məlumatlar toplamağı tapşırmışdı [2, 75]. 1818-ci ildə Yermolov yazırdı ki, Azərbaycan distansiyaları olan Borçalıda və Qazaxda ağalar hələ əzəldən bəri qara camaat üzərində hakimiyyətin elə yüksək dərəcəsinə yiyələniblər ki, sonuncular tamamilə qul vəziyyətinə düşüblər [1, 117].

1818-ci ildə Yermolov tərəfindən müsəlman əyalətlərinin təftiş olunmasından sonra elə onun öz Əsasnaməsinə müvafiq olaraq ağaların və bəylərin hüquq və vəzifələri əhəmiyyətli dərəcədə azaldıldı [1, 117]. Bu Əsasnamə 1818-ci il martın 31-də “Borçalı və ona qonşu bölgələrin ağalarının hüquqları və vəzifələri” adı altında imzalanmışdı [3, 9]. Əsasnamə Borçalı, Qazax və Şəmşəddil distansiyaları sahibkar kəndlilərinin yerli feodallar və dövlət xəzinəsinin xeyrinə daşıdıqları vergi və mükəlləfiyyətləri rəsmi şəkildə nizamlamaq üçün Yermolovun rəhbərliyi altında hazırlanmışdı [2, 176]. Əsasnaməyə görə, ağalar onlara bağışlanmış ərazilərdə əhalinin başçısı kimi fəaliyyət göstərirdilər. Yermolovun siyahısına daxil olan bütün ağalara və onların qohumlarına onların özlərinin idarə etdikləri kəndlərdə pay torpaqları vermək və həmin kəndlərin əhalisi ilə ağalar arasındakı əvvəlki münasibətləri bərpa etmək qərara alınmışdı [1, 117]. Əsasnamədə ağalar kəndlilərin mülkiyyətçisi deyil, idarəçisi və icarəçisi hesab olunur və ağaların mülkədar hüquqları dəyişdirilərək onlara dövlət qulluqçusu və məmuru kimi yanaşılırdı. Xəzinə kəndlilərinin idarə hüququnun isə yalnız çar hökumətinin etimadını qazanan ağalara güzəştə gedilməsi nəzərdə tutulmuşdu [4, 26].

Yuxarıda göstərilən Əsasnamə 1818-ci ilin aprel ayında xalqa elan edilmiş və beləliklə ilk dəfə vergi sistemində mövcud olan əvvəlki qaydalar əsasında sahibkar kəndində yaşayan sakinlərin dövlət xəzinəsi və “kəndlərin idarəçisi” sayılan ağalar qarşısında daşıdıqları başlıca vergi və mükəlləfiyyətlər rəsmiləşdirilmişdir. Əsasnaməyə müvafiq olaraq dövlət xəzinəsinə natural və pul vergiləri ödəyən, eləcə də bir sıra ictimai mükəlləfiyyətlər daşıyan kəndlilərdən ağaların xeyrinə xəzinəyə ödənilən natural və pul vergisinin 1/10-i tələb edilməli idi. Bundan başqa onlar ağa üçün ev tikintisində iştirak etməli, səfərə çıxan ağa üçün at ayırmalı, hər kəndli həyəti ildə 1 gün ərzində öz xış və kotanı ilə birlikdə ağanın əkinini şumlamalı, əhalinin bir hissəsi yazda, digər

hissəsi isə payızda onun taxılını yığmalı, döyməli və anbarlara daşımalı, ümumiyyətlə, bu işləri ildə 1 gün ərzində bütün ağa qohumları üçün yerinə yetirməli idilər. Eyni zamanda baş pristav tərəfindən hər ağa üçün 2 nəfərdən 10 nəfərə qədər nökər təyin edilməli idi. Ümumiyyətlə, cəmi 743 nəfər – Qazax distansiyasından 334 nəfər, Şəmşəddil distansiyasından 197 nəfər, Borçalı distansiyasından isə 212 nəfər əhali arasından seçilib nökər kimi ağaların ixtiyarına verilməli idi [2, 176-177].

Beləliklə, Qazax, Şəmşəddil və Borçalı distansiyalarının ağaları haqda tətbiq edilən Əsasnamə çarizmin yerli əyanlar zümrəsinin köhnə hüquq və imtiyazlarını məhdudlaşdıran və sıxışdıran xəttinin rəsmi hala çevrilməsi ilə müşayiət olunaraq, ilk növbədə onların kəndlilər üzərindəki vərəsəlik hüquqlarının sarsıdılmasına qarşı yönəlmişdir. Bu yolla çarizm özünə düşmən olan qüvvələri iqtisadi cəhətdən zəiflətməyə və ali müsəlman təbəqəsinin tərkibini öz mənfəətinə uyğun olaraq qəti şəkildə dəyişdirməyə çalışırdı. Bu tədbirlərin həyata keçirilməsi hətta çar hökumətinin etimadını qazanmış bəy və ağalar arasında da həyəcana və narazılığa səbəb olmuşdur [4, 26].

Yuxarıda göstərilən "Ağalar haqqında yeni əsasnamə" 1818-ci ilin aprelində xalqa bəyan edilərkən ilk həyəcanlar məhz müsəlman distansiyalarının ərazisində başlanmışdır. Bilavasitə olaraq rusların nəzarəti altına keçəcəyindən ehtiyat edən xeyli sayda ailə sərhədi keçərək Şəmşəddil distansiyasını tərk etmişdir. Bundan qorxuya düşən ruslar Şəmşəddilə yeni alay yeridərək sərhədi bağlamışdılar [5, 112-113]. 1818-ci il Əsasnaməsindən narazı qalan Borçalı, Qazax və Şəmşəddil distansiyalarının ağaları hökumətə qarşı müxalif mövqeyə keçərək özlərinin əvvəlki hüquq və imtiyazlarını bərpa etmək uğrunda mübarizəyə qalxmışdılar [4, 26]. Artıq Qazax və Şəmşəddildəki narazılıq dalğası kütləvi xarakter almağa başlamışdı. Bu hərəkata Qazaxda Mustafa ağa, Şəmşəddildə isə Nəsib sultan başçılıq edirdi [5, 113].

Hökumət tərəfindən ağaların mülkədar hüquqları müvəqqəti sayılaraq təhlükə altına alındığı və kəndlilərin gəlirlərinin böyük bir hissəsinin dövlət xəzinəsinin ixtiyarına verildiyi bir vaxtda ağalar keçmiş sahibkarlıq hüquqlarını geri qaytarmaq üçün 1818-1819-cu illərdə "hökumətin vergiləri artırmaq və qoşun üçün rekrut (əsgər) toplamaq niyyətində olması" haqda şayiələrdən istifadə edərək öz tabeliklərində olan sakinləri üsyana qaldıra bilmişdilər [2, 177]. Sərhədi keçənlərin və ya bu haqda danışıqlar aparanların, silahlanmaq üçün vəsait toplayanların əmlakının dərhal müsadirə olunması haqqında çar fərmanının verilməsi müvəqqəti olaraq asayişin bərpa olunmasına səbəb oldu. Rusiya hökuməti sərhədləri möhkəmləndirərək digər xanlıqların ərazisinə keçməyi də qadağan etdi. Qanunu pozan şəxslərə həmçinin cismani cəza alacaqları, eləcə də onları sığınacaqla təmin edənlərin əmlakının müsadirə olunacağı barədə də xəbərdarlıq edilmişdi [5, 113].

General Yermolovun Borçalı, Qazax və Şəmşəddil əhalisinə ünvanladığı

1818-ci il 7 iyun tarixli müraciətini nəzərdən keçirərkən onun qiyama qalxan sakinlərin sakitləşdirilməsi istiqamətində hər cür aldadıcı vədlərdən istifadə etdiyi məlum olur. Həmin müraciətdə aşağıdakılar bildirilirdi: "bəzi bədxah adamlar sizin əyalətlərin idarə olunmasına dair mənim tərəfimdən tətbiq edilən qaydalara ədalətsiz şəkildə yanaşırlar. Onlar sizi mükəlləfiyyətlərin qaldırılmasına inandırmağa çalışırlar. Onlara inanmayın, böyük Hökmdar sizin pis güzəranınızı deyil, xoşbəxtliyinizi və zənginliyinizi arzulayır. Onlar sizin aranızdan rus qoşunlarına əsgərlərin toplanılması barədə fikirlər yeridirlər. Bu, iyrənc yalandan başqa bir şey deyil və mən böyük Hökmdarın adından sizi inandırıram ki, onun belə bir niyyəti yoxdur və mənə də belə bir səlahiyyət verilməyib. Sizə inanmaq çətin deyil ki, Hökmdarın bir əsgər kimi sizin xidmətinizdən yararlanmağa ehtiyacı yoxdur. Gürcüstanın geniş əyalətlərini, bir çox xanlıqları, Dağıstanı və digər torpaqları ələ keçirən rus qoşunlarının tərkibinə nəzər salın. Siz orada özgə xalqların nümayəndələrini deyil, yalnız rus əsgərlərini müşahidə edəcəksiniz. Əzəmətli İmperator sizsiz də xeyli sayda qoşunlara malikdir. Lazım olsa o qədər sayda rus qoşunları toplayarıq ki, siz onları saymaqla qurtara bilməzsiniz. Sakit və xoşbəxt yaşayın, hiyləgər və pisniyyətli adamların sözlərinə inanmayın. Tezliklə mən sizin aranızda olacam və siz mənim düz danışdığımın şahidi olacaqsınız." [6, 695].

General Yermolovun yuxarıda dediklərinə qarşı öz mülahizəmizə əsasən onu bildirək ki, bəhs olunan dövrdə rus qoşunlarının qacarlara və osmanlılara qarşı mübarizəsində Şəmşəddil və Qazax atlılarından, eləcə də Borçalı qarapapaqlarından istifadə olunduğu halda, nədənsə Yermolov bunları nəzərdən qaçırmışdır. Ya da ola bilsin ki, Yermolov əhalini aldadacağını düşünüb, bu faktları gizlətməyə çalışmışdır. Lakin o, "elin gözü tərəzidir" məsəlini yaddan çıxarmış, rus qoşunlarına qarşı Gəncə xanlığının və carlıların qəhrəmancasına müqavimətindən bir söz də belə deməmişdir. O, ki, qaldı şəmşəddillilərdən, qazaxlılardan və borçalılardan rusların bir qüvvə kimi istifadə etməsinə, həmin bölgələrin əhalisi bəzi istisnalar olmaqla heç vaxt könüllü şəkildə buna getməmişdir. Bu, Rusiya hakimiyyət orqanları nümayəndələrinin – murovların, pristavların və digərlərinin vasitəsilə Rusiya çarı tərəfindən verilən aldadıcı vədlərlə yerli əhalini öz tərəflərinə çəkməsi nəticəsində baş vermişdir.

Lazarevin Gürcüstan çarı XII Georgiyə yazdığı 1800-cü il 27 sentyabr tarixli məktubunu nəzərdən keçirərkən yuxarıda göstərilən bölgələrin əhalisinin doğrudan da ruslara xoşluqla təslim olmadığı məlum olur. Belə ki, həmin raportda Lazarev qazaxlılar arasında Rusiya dövlətinə etimad göstərməyənlərin təhlükəsizliyə riayət olunması adı altında onların arvadlarını və uşaqlarını girov kimi götürüb daxili və xarici sabitlik bərqərar olana qədər Tiflis şəhərində saxlamağı XII Georgiyə məsləhət görürdü [7, 321]. Elə general Yermolovun özü də Rusiya çarına göndərdiyi 1817-ci il 9 yanvar tarixli raportunda azərbaycanlıların yaşadıqları Qazax və Şəmşəddil distansiyalarının məhsuldar

torpaqlara və xeyli mal-qaraya malik olmasını, əhalisinin isə qoçaq və döyüşkənliyi ilə seçildiyini bildirmişdir [8, 142].

Lakin çar administrasiyası tərəfindən həyata keçirilən tədbirlər sadə xalqın güzəranını yaxşılaşdırmadı. Buna görə də bölgələrin əhalisi öz zülmkarlarına qarşı yenidən qiyam etməyə başladılar. 1819-cu ilin mayında Qacar İranı ilə sərhəd boyu ərazilərdə həyəcanlar müşahidə olundu. Hakim ağalar olan şəmşəddilli Nəsib sultan və qazaxlı Mustafa ağa öz vəziyyətlərindən narazılıq edərək xalqı qiyama sürükləyirdilər [1, 120]. Hələ 1818-ci il iyunun 7-də general Yermolov general-leytenant Velyaminova yazdığı məktubunda Nəsib sultanla Mustafa ağanı ciddi nəzarət altında saxlamaq göstərişini verir və yerli əhalinin onlarsız keçinə bilməyəcəyini nəzərə alıb, onların həbs olunmasını məqsədəuyğun sayırdı [6, 695].

General-leytenant Velyaminov polkovnik Krılova yazdığı 1818-ci il 19 iyun tarixli məktubunda Şəmşəddil və Qazax azərbaycanlılarının sərhəddən kənara qaçmaq niyyətində olmaları barədə məlumat verir və rus qoşunları tərəfindən onların düz istiqamətdə yolları kəsildiyindən, Gəncə tərəfdən qaça bilmək ehtimalının olduğunu bildirirdi. Velyaminov Krılova onların üzərində ciddi nəzarət edilməsini vacib sayır və bir məntəqədə Sevastopol polku rotasının yerləşdirildiyi barədə də məlumat verirdi. Velyaminov onları izləyərkən Qarabağ istiqamətində hərəkət etmələrini müşahidə etdikdə, dərhal bu barədə knyaz Mədətova məlumatın çatdırılmasını və öz növbəsində Mədətovun onların ələ keçirilməsi üçün bütün gücünü və qoşunları bu işə sərf etməsi, Nəsib sultanı da ələ keçirmək göstərişini verirdi [6, 695-696]. 1819-cu ilin mayında Yermolov knyaz Mədətova yazdığı məktubunda Nəsib sultanla Mustafa ağanın Gəncəyə gəlib yetişən kimi, onları həbs edib Tiflisə göndərilməsini tapşırırdı [6, 700]. Knyaz Mədətov Yermolova göndərdiyi 1819-cu il 7 may tarixli raportunda Nəsib sultanla Mustafa ağanı Gəncəyə dəvət edib həbs etdiyini və podpolkovnik Tixotskinin sərəncamı altında və gücləndirilmiş qarovulun müşayiəti ilə Tiflisə göndərdiyini bildirirdi [6, 700].

Bu hadisənin baş verməsi müsəlman distansiyalarında üsyanlara səbəb olmuşdur. Əhali heç bir işlə məşğul olmayaraq, yalnız həmin şəxslərin azad olunması uğrunda mübarizə aparırdı. Həbs olunanların azadlığa buraxılma-yacaqları təqdirdə onlar heç bir iş görməyəcəklərini, pristav və murovları öldürəcəklərini, özləri ilə apara bilməyəcəkləri hər şeyi məhv edib, öz yerlərini tərk edəcəklərini bildirirdilər. Hətta həmin distansiyalarda fəaliyyət göstərən pristavlar da bunu etiraf edirdilər. Məsələn, Şəmşəddil pristavı Vadarski öz təqdim etdiyi raportunda Nəsib bəyin həbsinin bütün əhalidə ağır təəssürat doğurduğunu, xalqın bütün təsərrüfat işlərindən əl çəkib yalnız onun azad olunmasını tələb etdiyini bildirirdi. Qazax pristavı Lapınskinin də raportu eyni məzmunda idi və orada bütün ağalar və kəndxudaların Mustafa ağanın həbsdən azad edilməsi uğrunda mübarizə apardıqları qeyd olunurdu. Lakin Yermolov

üsyan başçılarının həbs edilməsindən çox məmnun qalaraq, bununla kifayətlənməyəcəyini, belələrini yenə aşkara çıxarıb, nəzarət altında saxlayacağını bildirmişdi [5, 113-114].

Şəmşəddili bürüyən hərəkat orada fəaliyyət göstərən rus hərbçiləri arasında da vahiməyə səbəb olmuşdur. Üsyançılarla qarşılaşan alay komandiri, polkovnik Ladınski Yermolova yazdığı məktubunda şəmşəddilli Nəsib bəyin Rusiyaya göndəriləcəyi təqdirdə Şəmşəddilin itirilməsi təhlükəsi ilə qarşılaşa biləcəklərini, hətta bu zaman əlavə hərbi qüvvəyə ehtiyacı olacağını vurğulayırdı. Beləliklə, Şəmşəddildə xeyli sayda qoşunların olmasına baxmayaraq, yeni hərbi qüvvələrin tələb olunması vəziyyətin ciddiliyindən xəbər verirdi [5, 114].

Lakin bütün bunlara baxmayaraq Yermolov öz fikrindən dönməmiş və 1819-cu il iyunun 12-də Nəsib sultanla Mustafa ağanı Rusiyaya göndərmiş, əhalini isə sakitləşməyəcəyi təqdirdə süngü ilə dağıdacağını hədələmişdir. O, üsyançılara heç bir güzəşt etmək fikrində olmayaraq, qaçanların bir daha geri qayıtmayacaqlarını və onların zəngin torpaqları ilə sürülərinin Rusiyaya sədaqətli olan adamlara paylanacağını bildirmişdi. Ruslar guya ki, Nəsib sultanla Mustafa ağanın Rusiyaya müvəqqəti olaraq göndərilməsini bildirsələr də, əslində onların bu hiyləsi  Qazax və Şəmşəddil əhalisini sakitləşdirmək və itaət altında saxlamaq məqsədinə xidmət edirdi [5, 115]. Hətta Yermolov Nəsib sultanın böyük oğlu Yusif bəyə göndərdiyi 1819-cu il 26 may tarixli məktubunda da onun atasının müvəqqəti olaraq Rusiyaya göndərildiyini bildirirdi [6, 704].

Ümumiyyətlə, Yusif bəy Rusiyanın təbəəliyini hələ əvvəldən qəbul etdiyindən, Nəsib sultanın Rusiyaya göndərilməsindən sonra Yermolov Şəmşəddil distansiyasının bütün kəndlərinin idarəçiliyini ona tabe etdirmiş, hətta öz "rəğbətini" bildirmək üçün ona xələt də göndərmişdir [6, 700, 704]. Lakin Yermolovun Yusif bəyə qarşı olan bu "səmimi" münasibəti Nəsib sultanın sürgün edilməsinə görə hiddətlənən əhalini sakitləşdirmək məqsədilə atılan bir addım idi. Bu baxımdan Şəmşəddil distansiyası kəndlərinin idarə olunması işinin Yusif bəyə həvalə edilməsi müvəqqəti xarakter daşıyırdı. Bunu biz 1819-cu ilin may ayında general Yermolovun podpolkovnik Vadarskiyə göndərdiyi məktubunda da əks olunduğunun şahidi oluruq. Həmin məktubda Yermolov müvafiq sərəncamın verilməsinə qədər Nəsib sultanın sərəncamında olan kəndlərin onun ailəsinin idarəçiliyində qalmasını və Şəmşəddil kəndlilərinin itaətdən çıxmamaları üçün güclü nəzarət sisteminin tətbiq edilməsinin vacibliyini bildirirdi [6, 704].

Əhalinin sakitləşdirilməsində xalq arasında böyük nüfuza malik olan axundun da mühüm rolu olmuşdur. Nəticədə bütün bunlar öz başçılarının bir daha geri dönməyəcəyi ilə barışmağa məcbur olan əhalinin sakitləşməsinə və üsyanın getdikcə sönməsinə gətirib çıxartmışdır [5, 115]. V.U.Umudlu öz

əsərində yerli axundun bu hərəkətinin işğalçı dövlət üçün sərfəli olduğunu, gələcəkdə həmin ərazilərdə ermənilərin, rus hərbçilərinin və almanların yerləşdirilməsinə şərait yaratdığını bildirsə də, ümumilikdə belə bir nəticəyə gəlir ki, axundun qazaxlıları və şəmşəddilliləri öz doğma yurdlarını tərk etmələrindən çəkindirməsi istiqamətindəki fəaliyyəti danılmazdır və çox təqdirəlayiqdir [5, 115-116]. M.Q.Abdullayev isə öz məqaləsində Yermolov tərəfindən üsyanın yalnız 1820-ci ildə hərbi qüvvə vasitəsilə yatırıldığını qeyd edir [4, 26]. Bundan başqa M.Q.Abdullayev öz monoqrafiyasında belə bir nəticəyə gəlir ki, hökumətin yerli feodalların iqtisadi və siyasi gücünü zəiflətmək, onların sosial-siyasi hüquqlarını məhdudlaşdırmaq siyasətinə qarşı bəy və ağalar kəndli çıxışlarından məharətlə istifadə edə bilmiş və onları mübarizəyə qoşa bilmişdilər [2, 77].

Qafqaz Arxeoqrafiya Komissiyasının sənədlərindən məlum olur ki, Nəsib sultanla Mustafa ağa Yermolov tərəfindən Rusiya imperiyasının Kursk quberniyasına göndərilmişdir. Belə ki, Yermolov Vyazmitinova göndərdiyi 1819-cu il 20 may tarixli rəsmi məktubunda ona bu barədə göstəriş vermişdir [6, 702].

Beləliklə, gələcək mübarizə tarixində böyük əhəmiyyətə malik olan 1818-1819-cu illər (əslində 1818-1820-ci illər – M.Ə.) Qazax-Şəmşəddil hadisələri xalqın vahid birliyini nümayiş etdirdi. Bundan vahiməyə düşən ruslar həmin ərazilərdə qoşunların sayını yenidən artırmağa və bəzi güzəştlərə getməyə məcbur oldular. Üsyanın məğlub olmasına baxmayaraq, ruslar yalnız çoxsaylı və nizami qoşunlarının hesabına Qazax və Şəmşəddildən qovulmaqdan xilas ola bilmişdilər [5, 116].

General-leytenant Velyaminovun podpolkovnik Tixotskiyə göndərdiyi 1819-cu il 17 iyun tarixli məktubunu nəzərdən keçirərkən Velyaminovun timsalında Rusiya imperiyası məmurlarının azərbaycanlılara qarşı münasibətlərində onların yırtıcı və vəhşi xislətinin, qaniçənliyinin və qəddarlığının bir daha şahidi oluruq. Həmin məktubda Velyaminovun yazdıqlarından bir parçanı nəzərə çatdırmağı vacib bilirik: "Şəmşəddil ağaları və Nəsib sultanın qohumlarından ibarət olan ailələr qaçmağa səy göstərsələr, onlarla düşməniniz kimi davranın. Bir neçə ailənin, hətta Şəmşəddil əhalisinin yarısının itirilməsi Rusiya hakimiyyəti üçün daha az zərərlidir, nəinki əhalinin yenidən qiyam qaldırması. Yalnız zərurət yaranacağı halda karteçdən bir neçə güllənin atılması onların hamısını sakitləşdirəcək." [6, 709].

Yaranmış şəraitlə bağlı olaraq Borçalı, Qazax və Şəmşəddil bölgələrinin idarə olunması işini islahatlar yolu ilə dəyişdirmək məqsədilə Qafqaz administrasiyası tərəfindən zaman-zaman yeni-yeni əsasnamələr dərc olunsa da, onlar bir-birinə zidd xarakter daşıdığına görə həm yerli əhali, həm də administrasiyanın özü tərəfindən bəyənilməmişdir [1, 121]. Çarizmin yerli əyanların sosial-iqtisadi və siyasi hüquqlarını məhdudlaşdıran siyasətindən

narazı qalan və real vəziyyətlə barışmaq istəməyən bəy və ağalar itirilmiş imtiyazların geri qaytarılması uğrunda mübarizədə bütün vasitələrdən istifadə edirdilər. 1818-1820-ci il üsyanlarından sonra Şəmşəddil və Qazax ağaları öz "mülkədar hüquqlarının geri qaytarılması" haqda dəfələrlə ellik şikayət və ərizələrlə rəsmi idarələrə müraciət etmişdilər [4, 27].

Beləliklə, Rusiya hərbi dövlət xadimlərinin Şimali Azərbaycanda yerli əhaliyə qarşı tətbiq etdikləri zorakılıq üsulları bölgələrdə həyəcanların baş verməsinə səbəb olmuşdur. Ruslar tərəfindən hüquq və imtiyazları əllərindən alınmış ağalar və bəylər xalqı üsyana qaldırmış və öz əvvəlki səlahiyyətlərinin qaytarılmasını tələb etmişdilər. Rusiya məmurlarının yerli ağalar və bəylərlə sərt davranmaları əhalinin narazılığına səbəb olmuş və onlar bu narazılığı üsyanlar şəklində bildirmişdilər. Həmin məmurlar arasında general Yermolov öz qəddarlığı ilə seçilmiş, hətta yerli əhali arasında böyük nüfuz sahibləri olan qazaxlı Mustafa ağa ilə şəmşəddilli Nəsib sultanı Rusiyaya sürgün etmişdir. Məhz elə bu amil 1818-1820-ci illər Qazax-Şəmşəddil üsyanlarının daha da coşmasına səbəb olmuş və xalq təkidlə öz rəhbərlərinin geriyə qaytarılmasını tələb etmişdir. Lakin Yermolov əhalinin bu tələbini yerinə yetirməməklə əslində özünün Qafqazdakı "kreslosunu laxlatmışdı". Bundan bir qədər sonra – 1826-cı ildə demək olar ki, bütün Şimali Azərbaycan bölgələrində baş verən üsyanlar artıq Yermolovun karyerasını sual altında qoymuş və 1827-ci ildə o, Qafqazla rüsvayçı şəkildə "vidalaşmışdır".

## ƏDƏBİYYAT


1. Аббасова М.История Борчалинского махала (XIX – начало XX вв.). Баку: Сабах, 2006, 460 с.
2. Abdullayev M.Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı: Adiloğlu, 2005, 232 s.
3. Məmmədov K. Borçalı Çar Rusiyasının işğalı dövründə // Qarapapaqlar, 2009, fevral, №2, s. 9-11.
4. Abdullayev M.Q. Qazax, Şəmşəddil və Borçalı sultanlıqları rus işğalınadək olan dövrdə (XVIII əsrin ortaları – XIX əsrin 40-cı illəri // Qarapapaqlar, 2014, may, №5, s. 23-29.
5. Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə. Bakı: Elm, 2004, 184 s.
6. Акты собранные Кавказской Археографической Комиссией (АКАК). Том VI. Часть I. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1874, 957 с.
7. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе.

Том III. С-П: Типография П.Н.Скороходова, 1886, 557 с.
8. АКАК.Том VI. Часть II. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1875, 954 с.

**MÜNDƏRİCAT**

***Cavanşir Feyziyev.*** İPƏK YOLU MƏDƏNİYYƏTİ VƏ TÜRKLƏR ........ 3
***Акиф Кулиев, Аббас Сейидов.*** МОНЕТЫ КАРА ИСКЕНДЕРА 823-841 ГГ.Х. (1420-1437 ГГ.Н.Э.) ........ 15
***Малахат Фараджева.*** СТОЯНКА МАРАЛ НА ГОРЕ БЕЮКДАШ ... 23
***Исраил Магеррамов, Ровшан Кулиев.*** УЧАСТИЕ АЗЕРБАЙДЖАНСКОЙ ДЕЛЕГАЦИИ НА ПАРИЖСКОЙ МИРНОЙ КОНФЕРЕНЦИИ ......... 30
***Aysel Kərimova.*** ALBANİYANIN XƏZƏRYANI TAYFALARI YUNAN-ROMA MÜƏLLİFLƏRİNİN ƏSƏRLƏRİNDƏ ........ 39
***Cavanşir Feyziyev.*** DÜNYA TARİXİNDƏ TÜRK İMPERİYALARI ...... 47
***Nailə H. Ciddi.*** MÜASİR AİLƏ-MƏİŞƏT MÜNASİBƏTLƏRİNİN BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR (Şirvan bölgəsinin materialları əsasında) ........ 60
***Elçin Cabbarov.*** AZƏRBAYCANDA SEPARATİZMƏ VƏ TERRORA QARŞI MÜBARİZƏNİN MƏRHƏLƏLƏRİ (1813 - 1920) ........ 67
***Aytac Həsənova.*** DÜNYA ELMİNƏ İNTEQRASİYA ELM SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ ........ 77
***Abbas Seyidov, Gülər Qafqazlı.*** SƏFƏVİ-OSMANLI MÜHARİBƏLƏRİ VƏ AZƏRBAYCAN (XVI-XVIII əsrin birinci yarısı) ........ 89
***Yusif Mahmudov*** AZƏRBAYCAN RESPUBLİKASINDA ƏTRAF MÜHİTİN QORUNMASININ HÜQUQİ ƏSASLARINA DAİR (müstəqillik dövrü) ........ 96
***Исраил Магеррамов, Ровшан Кулиев, Эльдар Алиев.*** ЗАВОЕВАНИЕ АЗЕРБАЙДЖАНА ХАЛИФАТОМ И НАРОДНО-ОСВОБОДИТЕЛЬНАЯ ВОЙНА ........ 109
***Məhcəbin Qədimbəyli.*** BABA NEMƏTULLAH NAXÇIVANİNİN HƏYATI, SUFİ VƏ TƏRBİYƏVİ-ƏXLAQİ GÖRÜŞLƏRİ ........ 121
***Riyad Rüstəmli .*** TƏZYİQ QRUPLARININ SİYASİ PROSESLƏRƏ TƏSİR METODLARI VƏ VASİTƏLƏRİ ........ 129
***Mürvət Əliyev.*** 1818-1820-Cİ İLLƏR QAZAX-ŞƏMŞƏDDİL ÜSYANLARI VƏ ŞİMALİ AZƏRBAYCANIN MİLLİ-AZADLIQ HƏRƏKATI TARİXİNDƏ ONLARIN YERİ ........ 137

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – sevinc0610@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal*

*2018, 4(23)*

***Çapa imzalanmış*** *27.*12.2018-ci ***il***
***Kağız formatı*** *60x84 1/16,* ***çap vərəqi 19***
***Sifariş*** 527, ***sayı*** *200*

***Bakı, Ü.Hacıbəyli küçəsi****, 68*
Telefon: (+994 12)493 05 85
E-mail: sevinc0610@mail.ru
www.adpu.edu.az